Xalqın qəzeti!

# Xalq qəzeti

№ 143 (30837) 15 iyul 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan xarici siyasətinin yeni hədəfi

*Yaxın Şərqdə fəallaşmanın görünən hüdudları*



**2025-ci ilin ortalarına doğru Azərbaycanın xarici siyasət strategiyasında müşahidə olunan yeni dinamika, xüsusilə, Yaxın Şərq istiqamətində artan fəallıq regionda dəyişən güc balanslarının və yeni konfiqurasiyaların formalaşmasının bariz göstəricisidir. Ənənəvi olaraq Cənubi Qafqaz və Xəzər hövzəsində geosiyasi oyunçu kimi çıxış edən Bakı artıq geosiyasi nüfuzunu daha geniş coğrafiyalara, o cümlədən Şərqi Aralıq dənizi, Orta Şərq bölgəsinə daşımaqda qərarlıdır. Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın Bakıya səfəri və bu çərçivədə əldə olunan razılaşmalar yeni istiqamətin təzahürüdür.**

Suriyanın 13 illik beynəlxalq təcriddən sonra dünya sisteminə geri dönüş cəhdləri fonunda Azərbaycanın bu ölkə ilə qurduğu münasibətlər geniş geosiyasi proseslərin tərkib hissəsi kimi dəyərləndirilməlidir. İkitərəfli münasibətlər Azərbaycan diplomatiyasının son illərdə keçdiyi transformasiyanın - lokal və regional çərçivələrdən çıxaraq qlobal miqyasda təşəbbüskarlıq funksiyasını mənimsəməsinin bariz təzahürüdür. Ermənistanla müharibədən sonra ortaya çıxan yeni siyasi reallıq Azərbaycanın beynəlxalq münasibətlərdə fəal və prinsipal iştirakçıya çevrildiyini təsdiqləyir. Artıq Bakı postmünaqişə idarəetmə modeli və inteqrasiyaçı diplomatiya təcrübəsi ilə beynəlxalq sistemin yenidən formalaşmasına töhfə verən aktordur.

*(ardı 4-cü səhifədə)*

## “Rusiya Jurnalistlər İttifaqı bəyanatı özbaşına verməyib”

səhifə ⇨ 3

*Mintimer ŞAYMİYEV:*

## “Heydər Əliyev məni – Rusiyanın tərkibində olan respublikanın rəhbərini dövlət başçısı kimi qarşıladı...”



səhifə ⇨ 5

## Terrorla mübarizədə “türk strategiyası”: konseptual aspekt



səhifə ⇨ 7

## Azərbaycanın kredit reytinqi yüksəlir

*“Moody’s”in qiymətləndirməsi irəliləyişi göstərir*



**Aparıcı beynəlxalq reytinq agentliklərindən biri olan “Moody’s Ratings” Azərbaycanın suveren kredit reytinqini “Ba1” səviyyəsindən “Baa3”ə yüksəldib, reytinq üzrə proqnozu isə “müsbət” olaraq saxlayıb. Bu qərar son illər respublika iqtisadiyyatında həyata keçirilən islahatların beynəlxalq aləmdə yüksək dəyərləndirildiyini bir daha təsdiqləyir.**

*(ardı 8-ci səhifədə)*

## Rusiya miqrasiya siyasətini siyasiləşdirir




səhifə ⇨ 7

## Yeni Kaledoniya: “Müstəqil müstəmləkə” modeli?



səhifə ⇨ 11

## Karapetyanın partiyası və ya ana bətnində ölü uşaq

Ermənistanda “Şimal küləkləri” güclənir, amma...

**Rusiyanın müəyyən dairələri Ermənistanda vəziyyəti qarışdırmaq üçün özlərinin, obrazlı desək, son güllələrini atırlar. Bu güllələrin uçuş trayektoriyasının necə olacağı, hədəfə dəyib-dəyməyəcəyi şübhə doğurur. Amma hər halda ortada cəhd var. Söhbət Rusiyaya bağlı iş adamı və xeyriyyəçi kimi təqdim edilən “Tashir Group”un sahibi və rəhbəri Samvel Karapetyanın yeni partiya yaratmaq niyyətindən gedir. O, məqsədini yaydığı müraciətdə açıqlayıb. Müraciətin hazırlanma yeri isə Ermənistan İstintaq Komissiyasının təcridxanasıdır.**



Bəli, S.Karapetyan bir müddət əvvəl, yəni azadlıqda olarkən Erməni Apostol Kilsəsini və bu dini qurumun rəhbəri II Qaregini müdafiə etmiş və bildirmişdi: “Kiçik bir qrup, Ermənistan tarixini və kilsəmizin min illik ənənələrini unudaraq, ona və erməni xalqına hücum çəkir. Mən hər zaman kilsənin və xalqın yanında olmuşam və özüm də bu dəyərləri müdafiə etmək üçün mübarizə aparacam. Əgər siyasətçilər buna müvəffəq olmasa, onda biz öz yolumuzla bu prosesdə iştirak edəcəyik”, - deyən Karapetyanın “kiçik bir qrup” məntiqi baş nazir Nikol Paşinyan və onun komandasına atmacadır. O komanda ki, bu çıxışından sonra Karapetyanı dəmir barmaqlıqlar arxasına göndərdi.

*(ardı 3-cü səhifədə)*

MİLLİ MƏTBUAT – 150

## Milli məsləkə həyat verən “Həyat”



səhifə ⇨ 9

# Monteneqronun Prezidenti Zati-aliləri cənab Yakov Milatoviçə

**Hörmətli cənab Prezident!**

Monteneqronun milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan Monteneqro ilə münasibətlərinin inkişafına böyük önəm verir. Bu gün xoş ənənələr üzərində qurulmuş və konstruktiv ruhda inkişaf edən dövlətlərarası əlaqələrimiz və əməkdaşlığımız məmnunluq doğurur.

Keçən ilin noyabrında COP29-da iştirak etmək üçün Sizin ölkəmizə səfəriniz Azərbaycan-Monteneqro əlaqələrinin inkişafı baxımından əhəmiyyət kəsb edir. Hazırda müxtəlif sahələrdə, xüsusilə də iqtisadiyyat, turizm, sərmayə qoyuluşu və digər istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi üçün yaxşı imkanlar mövcuddur.

Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq birgə səylərimizlə ölkələrimiz arasında dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız bundan sonra da dinamik inkişaf edəcək və daha da dərinləşəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2025-ci il**

# Azərbaycan Respublikasının Axar-Baxar və İlisu milli parklarının yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsini, biomüxtəlifliyin qorunub saxlanılmasını, ətraf mühitin dayanıqlı idarə olunması ilə yanaşı, sosial-iqtisadi imkanların artırılmasını, yerli icmaların ekoloji təşəbbüslərə inteqrasiyasını və regionlarda ekoturizmin inkişafını təmin etmək məqsədilə **qərara alıram:**

**1** Samux rayonunun dövlət ehtiyat fondu torpaqlarından 11113,46 hektar, Yevlax rayonunun dövlət ehtiyat fondu torpaqlarından 7000,10 hektar və Qax rayonunun dövlət ehtiyat fondu torpaqlarından 5788,43 hektar ayrılmaqla, bu Sərəncama əlavə edilən yerquruluşu planında göstərilmiş 23901,99 hektar sahədə Azərbaycan Respublikasının Axar-Baxar Milli Parkı yaradılsın.

**2.** Zaqatala rayonunun dövlət ehtiyat fondu torpaqlarından 206,74 hektar və Qax rayonunun dövlət ehtiyat fondu torpaqlarından 13759,26 hektar ayrılmaqla, bu Sərəncama əlavə edilən yerquruluşu planında göstərilmiş 13966,0 hektar sahədə Azərbaycan Respublikasının İlisu Milli Parkı yaradılsın.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyul 2025-ci il**

# Komitə sədri Ağsuda qəbul keçirib



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov iyulun 14-də Ağsu rayonunda vətəndaşlarla görüşüb.**

Görüşdə Ağsu, İsmayıllı, Şamaxı və Qobustan rayonlarından olan vətəndaşlar İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyinatı, məscidin dini ədəbiyyatla təmin olunması, müqəddəs kitabları öyrənmə (Quran) kurslarının yaradılması üçün icazənin alınması, eləcə də digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciət və təklifləri diqqətlə dinlənilib, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

***XQ***

# Xanyurdulular da öz yurdlarına qovuşdular



**Dünən ilk köç karvanı ilə Xocalının Xanyurdu kəndinə köçürülən 122 nəfərdən ibarət 33 ailəyə evlərinin açarı təqdim olunub.**

Keçmiş məcburi köçkünləri doğma ata-baba yurdlarında Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşlarının iştirakı ilə ailələrə evlərinin açarları təqdim edilib və onlar yeni evlərində yerləşiblər.

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə, 50 mindən çox insan yaşayır.

# Milli Məclisin növbədənkənar sessiyası




**İyulun 14-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının sonuncu plenar iclası keçirilib.**

İclası açan Milli Məclisin sədri ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda ali hakimiyyətə gəlməsinin 56-cı ildönümünün tamam olduğunu deyib. O, Ulu öndərin Vətən və xalq qarşısında misilsiz tarixi xidmətlərinin minnətdarlıq hissi ilə xatırlandığını diqqətə çatdırıb.

Sonra parlamentin sədri Sahibə Qafarova gündəliyə 13 məsələnin daxil edildiyini və ilk 11 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu diqqətə çatdırıb. İclasda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Müdafiə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. O, qanun layihəsində ərazi müdafiəsi ilə bağlı normanın təkmilləşdirilməsi məqsədilə dəyişikliyin nəzərdə tutulduğunu bildirib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə dair məlumat verib. Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. Sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Mənzil Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Daha sonra Vüqar Bayramov "Büdcə sistemi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumatı diqqətə çatdırıb. O, həmçinin "Dövlət borcu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Mülki Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, "Media haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsini təqdim edib. Qanun layihələri səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Parlamentin sədri bildirib ki, növbəti iki məsələ Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Xüsusi icra məmurları haqqında" qanun layihəsi barədə məlumat verib. Növbəti məsələni – Mülki Prosessual Məcəllədə, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edən komitə sədri Əli Hüseynli diqqətə çatdırıb ki, bu layihə "Xüsusi icra məmurları haqqında" qanun layihəsinə uyğunlaşdırma məqsədilə hazırlanıb. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Daha sonra Əli Hüseynli Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Mənzil Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Notariat haqqında", "İcra haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin mahiyyəti barədə danışıb. O, həmçinin "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim edib. Qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin sədri Sahibə Qafarova son 2 məsələnin uyğunlaşdırma xarakteri daşıdığını və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini bildirib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsindən söhbət açıb. Müzakirələrdən sonra qanun layihələri səsə qoyularaq qəbul olunub.

Milli Məclisin növbədənkənar sessiyası başa çatıb.

***XQ***

# Videokadrlar Ermənistan hərbçilərinin vəhşiliyinə şahidlik edir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, kimi çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 14-də davam etdirilib.**





Hakim Zeynal Ağayev sədrliyi ilə davam edən iclasda zərərçəkmiş şəxs - Xocalı sakini Fərman Məmmədov ifadəsində 1992-ci il fevralın 25-dən 26-na keçən törədilmiş soyqırımıdan bir gün sonra - fevralın 27-də girov götürüldüyünü bildirib. Həmin vaxt 10 yaşı olan zərərçəkmiş girov götürülən zaman bir nəfərin güllələnməsinin şahidi olduğunu söyləyib.

Zərərçəkmiş Məhərrəm Nəcəfov deyib ki, Xocalı soyqırımı zamanı 30-40 nəfər digər azərbaycanlı ilə birlikdə onları döyə-döyə Xocavənd şəhərinə gətiriblər. Xankəndidə 21 gün ac-susuz saxlanılıb. Martın 18-də Azərbaycan tərəfinə təhvil verilib. Rasim Həsənov ifadəsində 1993-cü il sentyabrın 23-də Ağburun istiqamətində əsir götürüldüyünü söyləyib. O, Xocavənd rayon təcridxanasında, Şuşa həbsxanasında, Xankəndi müvəqqəti saxlama təcridxanasında və Xankəndi şəhər uşaq xəstəxanasında saxlanılıb.

Süleyman Hüseynov ifadəsində yaşadığı Ağdam rayonunun Qiyaslı kəndi işğal ediləndə əsir götürüldüyünü söyləyib. Ermənilər onu, kənd sakinlərindən Qalibi, həyat yoldaşı Gülsəbanı, İsanı, Rüxsarəni, Cəbrayılı və daha 10-15 nəfəri döyüblər, sonra Xocalıda və Ağdamda saxlayıblar. Digər zərərçəkmiş – S.Hüseynovun oğlu Cəmaləddin Hüseynov ifadəsində girov götürülərkən başının arxasından avtomat qundağı ilə aldığı zərbədən huşunu itirdiyini deyib. Həmin vaxt onun 12 yaşı olub. O, Əsgəranda, Xankəndidə və Şuşa həbsxanasında saxlanılıb.

Gülcamal Hacıyeva ifadəsində bildirib ki, Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri işğal edən zaman hamilə imiş. Həmin vaxt digər qohumları ilə yanaşı, iki qardaşı da girov götürülüb. Qardaşlarından biri Şuşa həbsxanasında döyülərək görmə qabiliyyətini itirib. Namiq Qarayev ifadəsində 1993-cü il sentyabr ayında Azərbaycanın suveren ərazilərinin müdafiəsi uğrunda gedən döyüşlər zamanı əsir götürüldüyünü bildirib. O, əsirlikdə olduğu müddətdə işgəncələrə məruz qaldığını deyib.

Zərərçəkmiş Valeh Hüseynov qohumları ilə Xocalıda yaşadığını, soyqırımı zamanı güllə yarası alaraq girov götürüldüyünü deyib. Mahir Qarayev isə ifadəsində Horovlu kəndində 6 nəfərlə birlikdə əsir götürüldüyünü bildirib. Əsirlikdə ona müxtəlif işgəncələr verilib, qeyri-insani rəftara məruz qalıb. Xəlil Hadıyev 1994-cü il aprelin 18-də girov götürüldüyünü söyləyib. Xankəndiyə aparılaraq işgəncələrə məruz qalıb. 1994-cü ilin sentyabr ayında 6 nəfər azərbaycanlı ilə birlikdə girovluqdan qaçıb.

Elxan Ələkbərov ifadədində 1992-ci il fevralın 12-də Kəlbəcərdə əsir götürüldüyünü qeyd edib. Əsirlikdə olduğu 1 il 10 ay müddətində onunla çox pis davranılıb, işgəncələrə məruz qoyulub. Etibar Abışov ifadəsində yaşadığı Ağdam rayonunun Tərnöyüt kəndində girov götürüldüyünü bildirib. Əsgəranda və Şuşada saxlanılıb, işgəncələrə məruz qalıb.

Nahid Həmidov ifadəsində vurğulayıb ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində iştirak edib, noyabrın 10-da Ermənistan silahlı qüvvələri tərəfindən Nurlan adlı hərbçi ilə birlikdə əsir götürülüb. 34 gün əsirlikdə saxlanılıb. Əsirlik müddətində onlara müxtəlif işgəncələr verilib.

Məhkəmədə Nahid Həmidov və Nurlan Əlizadə əsir götürülərkən verilən işgəncələrlə bağlı ermənilərin özlərinin çəkdikləri videokadrlar nümayiş etdirilib. Ardınca zərərçəkmiş şəxs Nurlan Əlizadə ifadə verib. O, özündən əvvəl ifadə vermiş N.Həmidovun dediklərini təsdiqləyib. Tərlan Pənahov ifadəsində Daşkəsən rayonunda hərbi xidmətdə olarkən 1995-ci ildə əsir götürüldüyünü deyib. Əsirlikdə işgəncələr və döyülmə nəticəsində aldığı xəsarətlərə görə hospitalda müalicə olunub.

Aydın Gülmalıyev ifadəsində qeyd edib ki, 2021-ci il yanvarın 29-da Laçında hərbi xidmət keçərkən hərbçi yoldaşı Cavidan Qasımovla birlikdə dumanda yolu azıb, nəticədə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb. Əsirlikdə olarkən o və hərbçi yoldaşı təhqir edilib, döyülüb, işgəncələrə məruz qalıblar.

İsmət Əzizov ifadəsində Kəlbəcər rayonunun Başlıbel kəndinin sakinlərinin kənddən 3 kilometr aralıda kahalara sığındığını, 1993-cü il aprelin 18-də Ermənistan silahlı qüvvələri hərbçilərinin kahalarda olan mülki şəxslərin 12 nəfərini öldürdüyünü, 14 nəfərini isə girov götürdüyünü qeyd edib. Məzahir Abbasquliyev Başlıbel kəndində baş verənlərlə bağlı İ.Əzizovun dediklərini təsdiqləyib, əlavə edib ki, hadisə zamanı boğazından yaralanıb.

Nazim Bayramov ifadəsində 1991-ci il dekabrın 26-da yaşadığı Əmirallar kəndi istiqamətində girov götürüldüyünü bildirib. Girov saxlanıldığı 12 gün müddətində vəhşicəsinə döyülüb, ona və digər azərbaycanlı girov və əsirlərə işgəncələr verilib. Vidadi Hüseynov və Məhərrəm Nuriyev ifadələrində 1991-ci il avqustun 29-da yaşadığı Füzuli rayonunun Aşağı Veysəlli kəndində digər həmyerliləri ilə birlikdə düşmənin 11-12 silahlısı tərəfindən girov götürüldüyünü deyiblər. Döyülüblər, işgəncələrə məruz qalıblar. Vaqif Məmmədov və İntiqam Teymurov onların dediklərərini və ibtidai istintaqa verdiyi ifadəni təsdiqləyib.

Gülnarə Soltanova ifadəsində 1993-cü il oktyabrın 30-da düşmən tərəfindən girov götürüldüyünü, işgəncələrə məruz qaldığını, 5 ay 8 gün sonra Azərbaycana təhvil verildiyini diqqətə çatdırıb. İfadə verən digər zərərçəkmiş şəxslər Eldar Babayev, Natiq Abbasov, Elbrus Əhmədov, Rövşən Nuriyev, Ədalət Nəsibov, Nizami Rzayev, İbrahim Quliyev, Emin Yaqubov və Ziyəddin Quliyev müxtəlif vaxtlarda Ermənistan silahlı qüvvələrinin hərbçiəri tərəfindən girov götürüldüklərini, müxtəlif işgəncələrə məruz qaldıqlarını deyiblər.

Məhkəmə prosesi iyulun 17-də davam etdiriləcək.

# Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin iclası

## *"Sputnik Azərbaycan"la bağlı durum da müzakirə edilib*



**Dünən Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin iclası keçirilib. Toplantını açan MŞ sədri Rəşad Məcid gündəlikdə dayanan məsələlər barədə məlumat verib.**

Əvvəlcə Rusiya Jurnalistlər İttifaqının "Sputnik Azərbaycan" agentliyinin əməkdaşlarının həbsi ilə bağlı xarici təşkilatlara, jurnalist və hüquq-müdafiə assosiasiyalarına məktubu, həmçinin, həmin məktuba cavab olaraq Şuranın beynəlxalq ictimaiyyətə ünvanladığı müraciət müzakirə olunub.

MŞ sədri Rəşad Məcid rəhbərlik etdiyi qurumun sözügedən müraciətinin rus və ingilis dillərində olmaqla, dünyanın bir çox aparıcı qurumlarına və onların rəhbər şəxslərinə göndərildiyini diqqətə çatdırıb. O vurğulayıb ki, Şuranın sənədində RJİ-nin "Sputnik Azərbaycan"la əlaqədar durumu söz azadlığının pozulması kimi təqdim etməsinin yolverilməzliyi əsaslandırılıb.

MŞ İdarə Heyətinin üzvü, Beynəlxalq Əlaqələr Komissiyasının sədri Müşfiq Ələsgərli Rusiya mediasındakı anti-Azərbaycan meyillərin hər zaman özünü göstərdiyini deyib. Komissiya sədri 2022-ci ildə ölkəmizin media resurslarının  Rusiya ərazisində yayımının bloklandığı da vurğulayıb. Halbuki, Azərbaycan müharibə şəraitində olduğu dönəmdə Rusiyanın kütləvi informasiya vasitələrinə münasibətdə analoji addım atılmamışdı.

MŞ İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elçin Mirzəbəyli bildirib ki, "Sputnik Azərbaycan" 2022-ci ildə də ölkəmizlə bağlı təxribatçı mövqe tuturdu. Belə bir mövqenin hazırkı qanunazidd təzahürünün meydana çıxması təəccüblü deyil. Ona görə MŞ-nin beynəlxalq ictimaiyyətə müraciəti tam yerindədir.

MŞ İdarə Heyətinin üzvü, "Azxeber.com" saytının baş redaktoru Hacıbəy Heydərli diqqəti Rusiya mediasının təmsilçilərinin, xüsusən, "Telegram" platformasında anti-Azərbaycan fəaliyyət həyata keçirmələrinə çəkib və belə hallara münasibətdə zəruri tədbirlərin görülməsinin vacibliyini əsaslandırıb.

MŞ sədrinin müavini, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu Rusiyanın media cameəsində Azərbaycana qarşı qərəzli münasibətin hər zaman özünü göstərdiyindən söz açıb və Şuranın məlum müraciətinin beynəlxalq ictimai rəydə müsbət qarşılanacağına inandığını bildirib.

MŞ İdarə Heyətinin üzvü, BDU-nun Jurnalistika fakültəsinin kafedra müdiri, professor Qulu Məhərrəmli çıxışında Şuranın müraciətinin kifayət qədər dolğun mahiyyət daşıdığını deyib. O bildirib ki, sənəd ölkəmizin media cameəsinin tutarlı mesajıdır.

MŞ İdarə Heyətinin üzvü, "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu bildirib ki, Rusiya mediası ilə ideoloji müharibənin bundan sonra da davamlı olacağı birmənalıdır. Çünki qarşı tərəf xoşagəlməz kursuna ara vermir. R.Arifoğlu mövcud şəraitdə Mətbuat Şurasının da mütəşəkkil komanda kimi aktivliyinin vacibliyinə toxunub və bu məqsədlə sosial şəbəkələrdə sistemli fəaliyyətin aparılmasının zəruriliyini vurğulayıb.

MŞ İdarə Heyətinin üzvü, politoloq Yeganə Hacıyeva çıxışında media sahəsindəki anti-Azərbaycan yönümlü beynəlxalq təmayüllərə qarşı mübarizənin daha fundamental aparılması üçün bu sahə ilə bağlılığı olan ekspertlərin ideoloji fəaliyyətə cəlb edilməsinin zəruriliyi üzərində dayanıb.

Toplantıda Mətbuat Şurasının məlum müraciətinin Rusiyanın media cameəsi tərəfindən hiddətlə qarşılandığı da önə çəkilib və bildirilib ki, bu, Şuranın sənədinin RJİ-nin qərəz və yalan dolu məktubunu heçə endirməsindən qaynaqlanır. Hiddətlənənlərdən biri isə "Rossiya Segodnya"nın baş direktoru Dmitri Kiselyovdur. Kiselyovun MŞ-nin müraciətini əhəmiyyətsiz sənəd hesab edib.

İclasda "Sputnik Azərbaycan"ın rəhbəri İqor Kartavıxın və böyük redaktor Yevgeni Belousovun həbslərinin jurnalist fəaliyyətləri ilə heç bir əlaqəsinin olmadığı bir daha vurğulanıb. Mövcud xüsusda bildirilib ki, indiyədək "Sputnik"in peşə müstəvisindən uzaq hərəkətlərinə dair həm yerli, həm də beynəlxalq miqyasda bir sıra insidentlər qeydə alınıb.

İkincisi, ümumən Rusiyanın xaricdəki media özəklərinin Kremlin gündəliyinin təbliğinə yönəlmiş informasiya və təbliğat kampaniyaları aparmaları düşünülmüş strategiya halını alıb.

Üçüncüsü, Azərbaycanın hüquq-mühafizə orqanlarının işi qanunvericiliyə uyğundur. Hazırda İ.Kartavıx və Belousovla bağlı istintaq aparılır. RJİ-nin, eləcə də Rusiyanın media cameəsinin ayrı-ayrı təmsilçilərinin istintaqın nəticələrini gözləmədən adları çəkilən şəxslərin saxlanılmalarını söz azadlığı müstəvisinə daşımaları jurnalistika standartları ilə manipulyasiya və beynəlxalq ictimai rəyi yanlış məlumatlandırmaq cəhdidir. Bu cəhdlərin isə heç bir faydası olmayacaq.

MŞ İdarə Heyətinin iclasında o da vurğulanıb ki, Rusiyanın media cameəsindəki anti-Azərbaycan yönümlü fikir daşıyıcıları ədalət prinsiplərinə kölgə gətirə bilməyəcəklərinin fərqinə varmalıdırlar. Belələri, ilk növbədə, Rusiyada söz azadlığına, jurnalist hüquqlarına aşkar həqarət hallarına cəbhə açmalıdırlar. Bunu bacarmayıb, Azərbaycana qarşı beynəlxalq miqyasda mənfi rəy formalaşdırmaq istəmələri kənardan gülünc görünür. Şuranın müraciətinə həqarətli münasibətlə yanaşan D.Kiselyova gəlincə, o, gülünc durumun bənzərsiz və təkrarsız mənfi personajından başqa bir şey deyil.

*

İclasda müzakirəyə çıxarılmış ikinci məsələ Mətbuat Şurasının milli mətbuatımızın 150 illik yubileyi ilə əlaqədar olub. Şura yubileylə bağlı iki təşəbbüs irəli sürüb. Bunlardan birincisi elekton və çap formatında "150 illik Azərbaycan mətbuatı" biblioqrafik məlumat kitabının nəşridir. Kitabda Azərbaycanda 150 il müddətində işıq üzü görmüş qəzet və jurnalların ilk sayları, ideya istiqamətləri, ölçü və tirajları, loqoları, redaksiyaların tərkibi, ünvanları, eləcə də onlar haqqında digər yığcam məlumatların toplanılması, çapı və PDF formatda hazırlanması nəzərdə tutulur. İkinci təşəbbüs isə "Əkinçi"nin 50 illiyinə həsr edilmiş kitabın nəşridir. 1925-ci il martın 16-da Azərbaycan Kommunist Partiyası Mərkəzi Rəyasət Heyəti "İlk türk qəzetinin 50 illiyi haqqında" qərar  çıxarıb. Həmin ilin sentyabrında isə Azərbaycan Xalq Komissarları Şurası da yubileyin keçirilməsi ilə bağlı xüsusi qərar verib, yubiley komissiyası yaradıb. Komissiyaya türk mətbuatının tarixinin öyrənilməsi və Bakıda sərgi təşkili üçün Moskva, Sankt-Peterburq və Tiflis arxivlərində saxlanılan qəzetlərin nüsxələrini toplamaq tapşırılıb. Komissiya üzvləri həmin şəhərlərdə axtarışlar aparıb, Azərbaycan mətbuatının tarixi üçün bu gün də əhəmiyyətini itirməyən sənədlər toplayıblar. MŞ sədri sadalanan təşəbbüslərin həyata keçirilməsi üçün müvafiq müraciətin edildiyini və müsbət cavabın alındığını da diqqətə çatdırıb və tez bir zamanda işlərin görülməsinə başlanılacağını vurğulayıb.

İclasda Şuranın İdarə Heyətinin ötən iclasdan indiyədək gördüyü işlərə dair məlumatı dinlənilib, həmçinin MŞ-nin Katibliyi tərəfindən Şuraya daxil olmuş şikayətlərlə bağlı məlumat verilib.

İclasda məlumat verilib ki, iyulun 18-də MŞ İdarə Heyətinin üzvü, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevin 65 yaşı tamam olur. Bildirilib ki, onun müstəqil medianın formalaşmasında əməyi böyükdür. Qurucusu olduğu "Bakı xəbər" qəzeti də müstəqil medianın ön sıralarında yer alan peşəkar yaradıcılıq nümunəsidir. Bütün bunlar əsas götürülərək, A.Quliyev MŞ-nin diplomuna layiq görülüb və diplom plaketini yubilyara təqdim edilib.

***XQ***

# "Rusiya Jurnalistlər İttifaqı bəyanatı özbaşına verməyib"

## *Tanınmış media eksperti hesab edir ki, beynəlxalq müstəvidə RJİ-ni sayan yoxdur*

**Rusiya və Azərbaycan arasında diplomatik gərginlik söz müstəvisində də davam edir. Rusiya Jurnalistlər İttifaqının "Sputnik Azərbaycan"ın iki əməkdaşının həbsi ilə bağlı bəyanatına Azərbaycan Mətbuat Şurası adekvat cavab verdi. MŞ-nın Beynəlxalq əlaqələr komissiyasının sədri Müşfiq Ələsgərli ilə söhbətimizə medianın siyasiləşməsinin "Rusiya modeli" mövzusu ətrafında başladıq.**



– Ümumiyyətlə, dünyada medianın siyasiləşdirilməsi qəbuledilməz bir haldır. Amma bundan daha ağır vəziyyət isə medianın xüsusi xidmət orqanları tərəfindən, belə demək mümkünsə, istismar olunmasıdır. Məsələ ondadır ki, hazırda Rusiyada elə bir vəziyyət yaranıb ki, orada jurnalistika, peşə termini ilə desək, media dövlət idarəçilik maşınının təkərinin beşinci vintciyidir. Yəni, Rusiyada Leninin irəli sürdüyü bu bolşevik anlayışından hələ də qurtula bilməyiblər. Amma dünya nə deyir? Deyir ki, media təbliğat və təşviqat vasitəsinə çevrilməməli, siyasətə qoşulmamalıdır. Kreml isə açıq mətnlə bəyan edir ki, onların baxışı medianın dövlət idarəçiliyinin bir vintciyi kimi görməkdir. Bu təfəkkür hələ də oyaqdır.

Demokratik dünyanın belə bir tələbi var ki, media demokratik olmalıdır və bu institutun üzərində dövlət tənzimləyici qurumu yolverilməzdir. Rusiyada bu nəzarət hələ də saxlanılır. Nəqliyyat, Rabitə və Texnologiyalar Nazirliyi həm də medianın fəaliyyətini yönəltməklə məşğuldur. "Roskomnadzor" inzibati idarəsi bu funksiyanı hüquqi əsaslarla yerinə yetirir. Konkret olaraq, sovet anlamında media nə idisə, bugünkü Rusiyada da həmin şeydir. Dediyim kimi, ən pisi də odur ki, jurnalistika nəinki siyasətdə, hərbidə və xüsusi xidmət orqanlarında da geniş şəbəkə formasında xidmət göstərir. Problem ondan ibarətdir ki, Rusiyada hətta azad, amma zəif media təşəbbüsləri də boğulur. Faktlara müraciət edək. 2018-ci ildən sonra Rusiyada kifayət qədər anti-demokratik media qanunları qəbul edildi. Birincisi, "Media haqqında Qanun" dəyişdirildi. İkincisi, xarici agentlər haqqında yeni qanun qəbul olundu ki, bu da birbaşa mediaya şamil olunur. Bunlardan başqa, 2022-ci ildən etibarən Rusiyada rəsmi mənbələrə istinad etmədən material dərc edən media qurumlarına qarşı əlahiddə bir qanun qüvvəyə minib. Bu, nə deməkdir? Misal üçün, jurnalist hansısa hərbi cinayətkar haqqında yazır, yaxud Ukraynada baş verən prosesləri "xüsusi hərbi əməliyyat" deyil, müharibə adlandırır, bu halda həmin media qurumu qanundankənar elan olunur və bağlanır. Qanunun mürtəceliyi bir tərəfə, burada cəzalar da sərtliyi ilə seçilir. Axı, hüququm prinsipinə görə, cəza cinayətə adekvat olmaldır. Orada bu prinsipi də pozurlar. "Əməliyyatı" "müharibə" adlandıranı 15 ilə qədər həbsxana cəzası gözləyir. Digər halarda 50 min avrodan yuxarı cərimələr də nəzərdə tutulub.

Son 5 ildə Rusiyada 20-dən çox jurnalist "xarici agent" kimi qeydiyyata alınıb, son 30 ildə 50-dən çox media əməkdaşını qətlə yetiriblər.

**– Rusiyada son illər istər çap, istərsə də elektron medianın real vəziyyətini onları izləyənlər yaxşı bilirlər. Siyasi dairələrin, dövlət qurumlarının ruporuna çevrildiyi, onların bülleteni funksiyasını yerinə yetirdikləri sirr deyil...**

– Elədir. Normal media fəaliyyəti üçün adda-budda təşəbbüslər olsa da, onlar ya xarici agent haqqında qanuna, ya da müharibə şəraitində rəsmi mənbələrə istinad etmədiklərinə görə böyük məbləğdə cərimələnirlər. Döyülənlər, öldürülənlər də oldu. Son 5-6 ildə dövlətin cızdığı çərçivədən kənara çıxan 1500-ə qədər jurnalist Rusiyanı tərk edib xaricə üz tutub. Yəni, bu ölkədə medianın "təbii seleksiya"sını apardılar. Azad düşünən, yazan, danışan jurnalistləri ya sürgün elədilər, cərimələdilər, ya da ölkəni tərk etməyə məcbur etdilər. Bu müddətdə 18 min media subyektinin fəaliyyəti bloklanıb. Dünyada medianın fəaliyyətinin tənzimlənməsinin iki modeli mövcuddur. Birincisi inzibati amirlik, ikincisi özünütənzimləmə yoludur. Avtoritar rejimlərdə medianın inzibati-amirlik metodu ilə tənzimlənməsi həyata keçirilir. Yəni, mediaya nəzarəti nazirlik reallaşdırır, onu qeydiyyata alır, fəaliyyətinə senzura tətbiq edir və sair. Azad ölkələrdə isə media sahəsində özünütənzimləmə mexanizmi tətbiq olunur. Rusiyada bu gün bu metod qüvvədədir və dediyimiz "Roskomnadzor" bunu həyata keçirir. Azərbaycanda isə media üzərində inzibati amirlik mexanizmi yoxdur. 2001-ci ildə mediaya özünütənzimləmə statusu verilib. Rusiya və Azərbaycan arasında media müstəvisində, sadə dildə desək, anlaşılmazılıq özünün pik nöqtəsinə çatıb. Bu,  özünü 2022-ci ildə Ukrayna müharibəsi başladığı dövrdə göstərdi. O zaman Rusiya media qurumları ölkəmizə qarşı əks-təbliğata start verdilər. Bununla da kifayətlənməyib, FTX-nın bəzi əməkdaşlarını jurnalist adı ilə Qarabağa göndərdilər ki, orada təxribatlar törətsinlər. Biz bunu Semyon Peqovun nümunəsində gördük. O və onun kimi "jurnalistlər" düşmən tərəfinə Azərbaycan Ordusunun mövqeləri barədə informasiyalar ötürürdülər. Bakı bunu bilsə də, onlara qarşı sanksiya tətbiq etmədi. Amma Rusiya Ukraynaya qarşı əməliyyatlara başlayanda Moskva bizim xeyli saytımızı öz ərazisində blokladı. Guya, biz onların Ukraynada apardığı xüsusi hərbi əməliyyatı müharibə adlandırmışıq. Bu, o vaxt idi ki, Azərbaycan və Rusiya arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalanmışdı. Həmin sənəddə qarşılıqlı informasiya mübadiləsi də nəzərdə tutulur...

**– Müşfiq bəy, indi isə gələk Rusiya Jurnalistlər İttifaqının "Sputnik Azərbaycan"ın iki əməkdaşının saxlanılması ilə bağlı məlum bəyanatının üzərinə. Federal Təhlükəsizlik Xidmətinin sifarişini yerinə yetirən RJİ bəyanat yayaraq Azərbaycanı ittiham edir, yaydığı dezinformasiya ilə beynəlxalq ictimai rəyi çaşdırmağa çalışır...**

– Hələ üç il bundan əvvəl "Sputnik Azərbaycan"a Vitali Denisov adlı biri rəhbərlik edirdi. Onun xüsusi xidmət orqanlarına işlədiyi Bakıya məlum olanda ölkədən çıxarılmasına qərar verildi. Onda da Rusiya KİV-ləri Azərbaycana qarşı neqativ kampaniyaya başlamışdı. İndi isə "Sputnik Azərbaycan"ın iki əməkdaşı casusluq fəaliyyətinə görə istintaqa cəlb olunduqdan sonra, iyulun 7-də Rusiya Jurnalistlər İttifaqı beynəlxalq jurnalistlər təşkilatlarına, dünya ictimaiyyətinə müraciətində Azərbaycanda söz azadlığının pozulduğunu bəyan edib. Guya, Bakıda iki rus jurnalisti peşə fəaliyyətinə görə tutulub. Bu məqamda diqqətinizə maraqlı bir ştrixi çatdırmaq istəyirəm. Əvvəlcə onu deyim ki, Rusiya Jurnalistlər İttifaqının dünyada heç bir nüfuzu yoxdur. 2023-cü ildə Rusiya Ukrayna torpaqlarını ələ keçirəndən sonra RJİ işğal olunmuş əraziləri Rusiya Federasiyasının subyektləri kimi qəbul etdi və orada özünün filiallarını yaratdı. Həmin vaxt dünyanın aparıcı media təşkilatları RJİ-yə müraciət edərək bildirdilər ki, siz artıq jurnalist qurumu kimi deyil, Rusiya hərbi-sənaye kompleksinin bir detalı kimi fəaliyyət göstərirsiniz. Buna sizin ixtiyarınız yoxdur və bu niyyətinizdən geri çəkilməlisiniz. Məgər bu qərarı RJİ özbaşına vermişdi ki, ondan da geri çəkilsinlər?

Nəticədə Avropa Jurnalistlər Federasiyası, Beynəlxalq Mətbuat İnstitutu, bir sözlə, dünyanın ən nüfuzlu jurnalist təşkilatları birgə qərar verərək, RJİ-ni üzvlükdən kənarlaşdırdılar. Həmin birgə qərarda RJİ-nin diqqətinə o da çatdırıldı ki, Rusiyada media qanunu mürtəceləşdirilib, son otuz ildə 50-dən çox jurnalist öldürülüb, minlərlə media təmsilçisi həbs olunub, amma onların heç birinin hüququ ittifaq tərəfindən müdafiə olunmayıb. İndi belə bir təşkilatın durub Azərbaycanda söz, ifadə azadlığının pozulması, guya, iki rus jurnalistin peşə fəaliyyətinə görə həbs edilməsi barədə danışması absurddur. Azərbaycan Mətbuat Şurası bütün beynəlxalq media təşkilatlarına ünvanladığı müraciətində (MŞ-nın bəyanatı qəzetimizin 13 iyul sayında dərc olunub- red.) RJİ-nin bəyanatının yalan və böhtana əsaslandığını, ictimai rəyi çaşdırmağa yönəlik dezinformasiya olduğunu nəzərə almalarını xahiş etdi. Onu da deyim ki, RJİ-nin məlum bəyanatına beynəlxalq media təşkilatlarının heç biri reaksiya verməyib.

**– Azərbaycan Mətbuat Şurasının RJİ-yə cavab bəyanatına sadaladığınız beynəlxalq təşkilatlardan ilkin reaksiya varmı?**

– Bəyanatı 3 dildə yaymışıq. İlkin reaksiya bu oldu ki, dediyimiz təşkilatların böyük əksəriyyəti bəyanatımızı aldıqlarını təsdiqlədilər və buna görə təşəkkür etdiklərini yazdılar. Həm də bəyanatı cümə günü verdiyimizdən, sonrakı günlər şənbə və bazara düşdüyündən, çox güman ki, qarşıdakı günlərdə daha geniş reaksiyaları eşidəcəyik və görəcəyik.

***Söhbəti yazıya aldı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Karapetyanın partiyası və ya ana bətnində ölü uşaq

**(əvvəli 1-ci səhifədə)**

S.Karapetyan Ermənistan Cinayət Məcəlləsinin 422-ci maddəsinin 2-ci bəndi ilə, yəni ictimai çağırışlarla hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun dəyişdirilməsinə cəhddə ittiham olunub və İrəvan Məhkəməsinin hökmü ilə iki ay müddətinə azadlıqdan məhrum edilib. Çox güman, istintaq müddəti başa çatdıqdan sonra iş adamı barədə yekun qərar da çıxarılacaq. Heç şübhəsiz, gələcək qərarda onun dünənki müraciəti və siyasi partiya yaratmaq istəyi də nəzərə alınacaq. Əlbəttə, buna nəzərə alınmaq demək mümkündürsə.

Beləliklə, Karapetyan müraciətində bildirib ki, tərəfdarlarının iyulun 4-dəki ilk aksiyası hakimiyyətin əsas qorxusunu üzə çıxarıb. Onun fikrincə, bu aksiyadan sonra xalq, guya, öz gücünə inanır və repressiyalar qarşısında sınmır. Göründüyü kimi, Samvel "sabun köpürtməklə" məşğuldur. Yəni prinsipcə, N.Paşinyan hakimiyyətini devirmək yönümlü çağırışlar səsləndirən digərlərindən fərqlənmir. Onu fərqləndirən isə malik olduğu maliyyə resurslarıdır. O maliyyə resursları ki, mənbəyi Rusiyadır.

Heç şübhəsiz, Karapetyanın siyasi partiya yaratmaq eşqinin müəllifləri də məhz Rusiyada əyləşiblər. Onlar Samveli idarə edirlər. Hərçənd, nəzərə alsaq ki, iş adamı həbsxanadadır, indi onu necə müdafiə edəcəkləri qeyri-müəyyəndir. Üstəlik, Karapetyanın azadlığa çıxıb-çıxmayacağına da heç bir təminat yoxdur.

Əlqərəz, S.Karapetyan onu da bildirib ki, Paşinyanın anti-xalq siyasətinə qarşı indiyədək real mübarizə aparan siyasi qüvvələrə və xadimlərə böyük hörmətlə yanaşır. Amma: "Ermənistan üçün parlaq gələcəyə dair öz baxışımız var. Biz öz yolumuzla, yeni komandamızla irəliləyəcəyik. Bununla yanaşı, eyni düşüncədə olanlarla daxili siyasi əməkdaşlığı da istisna etmirik. Ədalətli və böyük hədəflər ətrafında xalqı birləşdirməyə çalışacağıq. Mövcud hakimiyyətin cəmiyyətə zorla sırıdığı ağ-qara və digər süni bölgüləri rədd edəcəyik. Bu bölgülər ölkəni parçalamaq və zəiflətmək üçündür. Hətta bu rejimin müxtəlif pillələrində indi də çalışan elə peşəkar insanlar var ki, dar hakim qrupun dəyərlərini bölüşmür, lakin mövcud vəziyyətdən çıxış yolu görmürlər. Bizim siyasi komandamızın formalaşması artıq başlayıb. Öz yolumuzla hərəkət edəcəyik".

Əlbəttə, S.Karapetyan nə etdiyini yaxşı bilir. Məsələn, o bilir ki, erməni xalqının hazırda müxalifət kimi ortaya düşən qruplaşmalara ciddi nifrəti var. Buna görə də ayrıca partiya yaratmağa baş vurur, özünün və komandasının köhnə nomenklaturadan, guya, fərqləndiyini göstərmək istəyir. Halbuki onun da, hazırda üzdə olan və həyasızlıq salan ekslərin də "küləyinin" Şimaldan əsdiyini hər kəs çox gözəl bilir.

Başlıca məqam isə budur: S.Karapetyanın hansı metodlarla mübarizə aparmaq niyyətini açıqlamasından asılı olmayaraq, hazırda bu şəxsin siyasi komandası yoxdur. Komanda formalaşdırmaq isə asan məsələ deyil və indiki durumda iş adamı Ermənistanın siyasi mühitində kal armud kimi bir şeydir. Həm də ona görə ki, onu ortaya atanlar tələsiyə düşüblər. O qədər tələsiyə düşüblər ki, Karapetyanın Rusiya vətəndaşlığının olduğunun fərqinə varmayıblar.

Xatırladaq ki, indi Bakı Hərbi Məhkəməsinin özü barəsində çıxaracağı hökmünü gözləyən Qarabağdakı keçmiş separatçı rejimin oyuncaq "dövlət naziri" postunu tutmuş Ruben Vardanyan 2023-cü ilin yayında Rusiya tərəfindən dövriyyəyə buraxılanda onunla əlaqədar "ssenari" indiki qədər səliqəsiz və primitiv qurulmamışdı. Ruben pafoslu müraciət hazırlamış, Rusiya vətəndaşlığından imtina etdiyini bildirmiş və Qarabağda məskunlaşmaq qərarına gəldiyini bəyan etmişdi. Sonra baş verənlər də hər kəsin yaxşı xatirindədir. O cümlədən, Vardanyanın tutulub Bakıya aparılması...

Təsadüfi deyil ki, Samvelin Rusiya vətəndaşı olması rəsmi İrəvanın da mövzuya yanaşmasına təsir göstərir. Diqqət yetirək, Ermənistan Baş nazirinin aparat rəhbərinin müavini Taron Çaxoyan Karapetyanın siyasi partiya yaratmaq məsələsinə belə münasibət bildirib: "Rusiya vətəndaşının Ermənistanın daxili siyasi həyatına qarışması narahatlıq doğurur. Əgər sizi hakimiyyətin yeni siyasi komandanın yaranmasından qorxduğu maraqlandırırsa, onu deyim ki, 2018-ci ildən indiyədək xeyli sayda siyasi qüvvələr formalaşıb. Biz onların potensiallarının çatdığı qədər bacarıqlı olduqlarını görmüşük".

T.Çaxoyan açıqlamasında onu da bildirib ki, 2026-cı ilin parlament seçkilərinə qədər gözləmək və hakimiyyətə qarşı çıxanların nə ortaya qoyacaqlarını görmək lazımdır. Məsələ isə ondadır ki, bir il ərzində heç nə dəyişməyəcək. Yəni, Karapetyanın hansısa fövqəladə imic toplaması və hazırkı iqtidara qarşı tutarlı alternativə çevrilməsi mümkünsüzdür. Onu da nəzərə alaq ki, bu şəxsin həbsə atılmasına ciddi əks reaksiya da yoxdur. Çünki böyük ölçüdə erməni cəmiyyəti anti-Rusiya ovqatına köklənib. Mövcud köklənİş fonunda Samvelin partiyası üçün "ölüm hökmünün" indidən çıxarıldığını söyləmək mümkündür. Daha dəqiq desək, Karapetyanın yaradacağını açıqladığı siyasi partiya ana bətnindəki ölü uşaq kimidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan xarici siyasətinin yeni hədəfi

(əvvəli 1-ci səhifədə)

Məhz bu baxımdan, Əhməd Əl Şaraanın Bakıya rəsmi səfəri həm simvolik, həm də funksional məna daşıyır. Əvvəla, bu səfər Azərbaycanın diplomatik prioritetlərinin coğrafi genişlənməsinin və strateji baxışının dərinləşməsinin göstəricisidir. Bu gün Azərbaycanın diqqəti yalnız Cənubi Qafqaz və Türk dünyası ilə məhdudlaşmır -Yaxın Şərq, Afrika və Asiya istiqamətində artan siyasi təmaslar Azərbaycanın çoxqütblü dünyada öz yerini daha aydın şəkildə müəyyənləşdirdiyini göstərir.

Əhməd Əl Şaraanın Bakıya səfəri həm də Azərbaycan diplomatiyasının prinsipial və ardıcıl xarakterini ortaya qoyur. Bakı beynəlxalq hüquqa hörmət, dövlətlərin suverenliyinin tanınması və daxili işlərinə qarışmamaq prinsipini daim əsas götürür. Suriya ilə münasibətlərdə də eyni yanaşma müşahidə olunur. Azərbaycanın Suriyanın daxili işlərinə qarışmaması, əvəzində, bu ölkənin bey-



nəlxalq hüquq çərçivəsində reabilitasiyasına dəstək verməsi onu regional lider statusundan daha geniş geosiyasi müstəviyə daşıyan əsaslardan biridir.

Diplomatik xəttin arxasında yatan daha bir mühüm aspekt Azərbaycanın "multivektorlu siyasət" konsepsiyasıdır. Bakı müxtəlif güc mərkəzləri ilə balanslı münasibətlər saxlayaraq müstəqil siyasətini yürütməkdədir. Suriya ilə təmas da bu strategiyanın tərkib hissəsidir – Azərbaycan hansısa blok və ya ittifaqın diktəsi ilə deyil, milli maraqları və ümumi beynəlxalq legitimlik əsasında münasibətlər qurur.

Bütün bu amillər Azərbaycanın postmünaqişə dövründə siyasi diplomatiyanın qalibi kimi çıxış etdiyini göstərir. Bakı artıq sülh quruculuğu prosesində fəal tərəfdaş olaraq qəbul edilir. Bu isə Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeni rolu və məsuliyyətidir

*



Azərbaycanın Suriya ilə münasibətlərində diqqət çəkən əsas məqamlardan biri bu təmasların arxasında duran siyasi simvolizm və normativ güc yanaşmasıdır. Əgər əvvəllər geosiyasi dinamikanın əsas aparıcıları sərt güc vasitələri – hərbi alyanslar, sanksiyalar və nəzarət mexanizmləri ilə ön plana çıxırdısa, Azərbaycanın ortaya qoyduğu model fərqli bir yolu – hüquqa əsaslanan, qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulan diplomatiya yolunu təklif edir.

Suriyanın keçid dövrü rəhbərliyinin Azərbaycana üz tutması, ilk növbədə, Bakının beynəlxalq münasibətlər sistemində artan siyasi etibarı və legitimlik daşıyıcısı kimi qəbul olunmasının göstəricisidir. Əvvəlki Suriya rejiminin Azərbaycanla münasibətlərdə tutduğu soyuq mövqenin fonunda, bu gün yeni rəhbərliyin ilk strateji diplomatik addımlardan birini məhz Bakı istiqamətində atması dərin simvolik mənaya malikdir. Bütün bunlar Azərbaycanın regionun yeni diplomatik cazibə mərkəzlərindən birinə çevrildiyini və postmünaqişə dövründə siyasi stabilizasiya üçün model təklif edə bildiyini göstərir.

Azərbaycanın bu yanaşması onu Yaxın Şərqdə özünəməxsus mövqeyə çıxarır. Ənənəvi güc aktorlarından fərqli olaraq, Bakı regiona "tənzimləyici" və ya "hakim" kimi daxil olmur. Əksinə, Bakı konstruktiv tərəfdaş olaraq çıxış edir və qarşılıqlı ehtiyaclara, hörmətə və suveren qərarverməyə əsaslanan model irəli sürür. Mövcud amil bölgə dövlətləri üçün, xüsusilə də müharibədən çıxmış və yeni siyasi sistem qurmaq istəyən Suriyanın özünə bərabər hüquqlu tərəfdaş axtarışında Azərbaycanı məqbul və etibarlı aktor kimi görməsinə səbəb olur.

Eyni zamanda, Azərbaycan bu əməkdaşlıq çərçivəsində Suriya ilə əlaqələrini ideoloji və ya siyasi bloklar prizmasından deyil, məhz praqmatik və prinsipal əsaslarda qurur. Bakı hüquq, sülh, əməkdaşlıq və reabilitasiya çağırışları ilə çıxış edir ki, bu da onu həm normativ güc mərkəzi, həm də yeni dünya nizamında konstruktiv qüvvə kimi fərqləndirir.

Nəticə olaraq, Azərbaycan–Suriya tərəfdaşlığı siyasi simvolizm və normativ diplomatiya baxımından unikal bir presedentdir. Azərbaycanın yalnız öz milli maraqlarını deyil, həm də regionun və qlobal sistemin sabitliyi üçün dəyər əsaslı diplomatiya irəli sürür. Yanaşma həm də onu sübut edir ki, postmünaqişə situasiyalarda dayanıqlı əməkdaşlıq yalnız güc balansı ilə deyil, həm də qarşılıqlı hüquqi-siyasi etimad əsasında mümkündür.

*

Müasir beynəlxalq münasibətlər sistemində güc təkcə silahların sayı və iqtisadi göstəricilərlə ölçülmür. Dövlətlərin diplomatik çevikliyi, konfliktlərə neytral və etibarlı yanaşması, həmçinin müxtəlif güc qütbləri arasında körpü rolunu oynamaq bacarığı da onları geosiyasi liderlik səviyyəsinə yüksəldə bilər. Azərbaycan məhz bu istiqamətdə – postmünaqişə dövründə formalaşmış "Bakı modeli" ilə özünü regional diplomatiyanın yeni mərkəzlərindən biri kimi təqdim etməkdədir.

Əhməd Əl Şaraanın Bakıya səfəri və burada imzalanmış sənədlər, razılaşmalar və ictimai mesajlar göstərir ki, Azərbaycan öz ərazisindən çox uzaqda yerləşən və fərqli geosiyasi şərtlərə malik bir regionda – Yaxın Şərqdə etimadlı tərəfdaş kimi qəbul olunur. Bu fakt özlüyündə bir neçə strateji nəticəyə gətirib çıxarır:

Birincisi, Bakı diplomatik platforma funksiyasını daşımağa başlayır. Əgər Suriyanın keçid dövrü rəhbərliyi kimi həssas bir siyasi subyekt Bakını öz etimad mərkəzi kimi görürsə, bu o deməkdir ki, Bakı münaqişə sonrası dövrlər üçün "sabitləşdirici məkan" modelini təşviq edir.

İkincisi, Bakı modeli ideoloji neytrallığa əsaslanır. Azərbaycan hansısa dini doktrinaya, yaxud geosiyasi alyanslara əsaslanaraq siyasi münasibətlər formalaşdırmır. Sözügedən amil xüsusilə Yaxın Şərq kimi dərin parçalanmaların, məzhəbçi qarşıdurmaların və proksi rəqabətlərin hökm sürdüyü coğrafiyada ciddi üstünlükdür. Bakı universal dəyərlərə və beynəlxalq hüquqa əsaslanaraq tərəfdaşlıq təklif edir. Bu da onun diplomatiyasını digər aktorlardan fərqləndirir.

Üçüncüsü, Bakı modeli keçid dövrü ölkələr üçün alternativ nümunə kimi çıxış edir. Suriyanın mövcud vəziyyəti - zəifləmiş dövlət strukturları, dağılmış infrastruktur və hüquqi qeyri-müəyyənlik – xarici müdaxilələrin çoxalması üçün münbit zəmin yaradır. Azərbaycan bu boşluğu siyasi və iqtisadi hegemonluqla deyil, tərəfdaşlıq və təcrübə mübadiləsi yolu ilə doldurmağa çalışır. İşğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa modeli Suriyanın reabilitasiyasında nümunə ola bilər.

Dördüncüsü, Bakı modelində ardıcıllıq və etibarlılıq əsas prinsiplər kimi çıxış edir. Suriya ilə münasibətlərdə ilk diplomatik jestlərdən etibarən Azərbaycan mövqeyində dəyişiklik etmədən, açıq, şəffaf və hüquqi əsaslı yanaşmanı qoruyub saxlayıb.

Beləliklə, "Bakı modeli" – bir tərəfdən zərif balans siyasətinə, digər tərəfdən isə ciddi prinsipiallığa əsaslanan, ideoloji neytrallıq və hüquqi legitimlik üzərində qurulan yeni diplomatik yanaşmadır. Azərbaycan bu model vasitəsilə Yaxın Şərqdə sabitlik, bərpa və etimad arxitekturasına mühüm töhfə verməkdədir.

Rəsmi Bakının Suriyanın keçid dövrü rəhbərliyi ilə qurduğu münasibətlər və bu münasibətlərin fonunda baş verən diplomatik hadisələr təkcə ikitərəfli əməkdaşlıq formatı kimi deyil, həm də qlobal siyasi arxitekturanın dəyişməkdə olan konturlarını müəyyənləşdirən prosesin bir hissəsi kimi oxunmalıdır. Dünya artıq post-pandemiya, post-ukrayna və post-monoqütblü dövrə qədəm qoyur. Yeni dövrdə sabitlik yalnız güc amilinə deyil, qarşılıqlı etimada, hüququn aliliyinə və siyasi intizamın diplomatik formatlarına əsaslanır. Məhz belə bir şəraitdə Azərbaycan özünü yeni dünya düzəninin konstruktiv iştirakçısı kimi təsdiqləyir.

Yekun olaraq qeyd etmək olar ki, Azərbaycan öz milli maraqlarını müdafiə etməklə yanaşı, beynəlxalq sistemin daha ədalətli, sabit və legitim əsaslar üzərində qurulmasına töhfə verən yeni geosiyasi aktora çevrilməkdədir. Azərbaycanın diplomatik xətti nə regional güclərin təkrarıdır, nə də qlobal güclərin uzantısı. Rəsmi Bakının diplomatiyası öz yolunu seçən, öz nüfuzunu formalaşdıran və öz prinsipial mövqeyi ilə beynəlxalq münasibətlərin yeni mərhələsinə töhfə verən müstəqil bir siyasətin təzahürüdür.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# İrəvanda radikal çağırışlar səngimir

## *Separatçılar yeni təxribatlara başlayıblar*

**Azərbaycan Ordusunun dövlət suverenliyinin bərpası məqsədilə 2023-cü ilin sentyabrında həyata keçirdiyi birgünlük antiterror əməliyyatından sonra keçmiş qondarma separatçı rejimin təzyiq və təhriki ilə bölgəni tərk edən Qarabağ ermənilər İrəvanda acınacaqlı durumdadırlar. Onlar üzləşdikləri vəziyyətlə bağlı narazılıqlarını vaxtaşırı dilə gətirirlər. Sonuncu belə aksiya iyulun 12-də axşam saatlarında İrəvanın mərkəzindəki "Azadlıq" meydanında keçirilib.**

Qeyd edək ki, "Artsax xalqı"nın (?) hüquqlarını müdafiə şurası tərəfindən təşkil olunan mitinqə çağırış bəyanatında bildirilmişdi ki, hüquqlarımızı birgə səylər və qanuni vasitələrlə qoruya bilmək üçün bu çətin şəraitdə mühüm qərarlar qəbul etməliyik. Mitinqə icazə verilmiş, lakin polis və İrəvan meriyası planlaşdırılan yürüş və oturaq aksiyanın keçirilməsi ilə bağlı müraciəti rədd etmişdi. Yürüşün Ermənistan hökuməti və parlament binaları qarşısında keçirilməsi planlaşdırılırdı.

Mitinqin təşkilatçıları bildiriblər ki, onlar "artsaxlılar"ın hüquqlarını bundan sonra da qorumaq niyyətindədirlər. Onlar öz xislətlərinə sadiq qalaraq ənənəvi revanşist bəyanatlar səsləndiriblər: "Biz öz vədlərimizə sadiqik və seçdiyimiz yoldan dönməyəcəyik. Məqsədimiz ümumi məqsəd naminə vahid, əlaqələndirilmiş və səmərəli əməkdaşlığı təmin etməkdir. Biz Erməni Apostol Müqəddəs Kilsəsini, Böyük Kilikiya Evinin Katolikosluğunu, bütün diaspor qurumlarını, ictimai təşkilatlarını və siyasi qüvvələri, bütün erməni xalqını "Artsax ideyası" ətrafında birləşməyə və "Artsax məsələsini" ümumerməni gündəminə çevirməyə çağırırıq. Bu gündəmi dəstəkləyənlər bizimlə birgə, bizim yanımızda olmalıdırlar. Gəlin xatırlayaq ki, 1988-ci ildə eyni ruh, eyni fikir, eyni qətiyyətlə "Artsax"ın oyanışı "xalq üsyanı" ilə başladı. Həmin ruh bu gün də oyaqdır".

Mitinq başlamazdan əvvəl təşkilatçılar tərəfindən daha bir təxribatçı hərəkətə yol verilib. Keçmiş qondarma rejimin "bayrağı" adlandırılan 50 metrlik uzunluqda əski parçası "Azadlıq" meydanında açılıb. Çıxış edən şura üzvü Saida Poqosyan bildirib ki, "artsaxlılar"ın tələbləri dəyişməz olaraq qalır. Bu gündən onlar mübarizənin yeni mərhələsinə başlayırlar. Mitinq zamanı Ermənistan hakimiyyəti qarşısında bir sıra məsələlər qaldırılıb. Bura sosial problemlərin həlli, Bakıda ədalət mühakiməsi önünə çıxarılan şəxslərin azad edilməsi, ermənilərin Qarabağa qayıtmasının təmin edilməsi, habelə işğaldan azad edilmiş ərazilərdə mədəni-tarixi irsin (?) qorunması daxildir.

İyulun 12-dən 13-nə keçən gecədən etibarən separatçılar polis və meriyanın yürüş və oturaq aksiya qadağasına etiraz əlaməti olaraq meydanda müddətsiz oturaq aksiyaya başladıqlarını elan ediblər. Adı çəkilən şuranın



üzvü Artak Mkrtçyanın sözlərinə görə, polis əməkdaşları toplaşanlara xəbərdarlıq ediblər ki, qadağa pozulacağı təqdirdə güc tətbiq oluna bilər: "Biz meydanda oturaq aksiyaya başlayırıq və problemlərimiz həll olunana qədər burada qalacağıq. Polis meydanda çadırların quraşdırılmasını da qadağan edib".

Parlamentdəki "Şərəfim var" fraksiyasının katibi Tiqran Abramyan öz növbəsində qeyd edib ki, "Artsax xalqı" ekstremal tədbirlərə əl atmağa məcburdur, çünki hakimiyyət onların problemlərini həllini hətta, qısamüddətli perspektivdə də təklif etməyib. İş o yerə çatıb ki, onların yürüş keçirmək hüquqlarını belə məhdudlaşdırırlar.

*

Şura üzvləri və bir qrup separatçı bütün gecəni və səhəri meydanda keçiriblər. Gecə saatlarında polislə aparılan danışıqlar nəticəsində oturaq aksiya keçirilən əraziyə bir neçə yuxu kisələri çatdırmaq mümkün olub. Oturaq aksiyanın əsas tələbi "artsaxlılar"ı aktual problemlərini həll etməkdir. Keçmiş qondarma rejimin "ombudsmanı" Geqam Stepanyan bildirib ki, onlar Ermənistan hökumətinə əvvəllər 12 tələbdən ibarət sənəd təqdim ediblər, lakin yalnız sosial məsələlərə baxılıb, digər tələblər, məsələn, Qarabağa qayıtmaq, mədəni irsin qorunması, "məhbuslar"ın azad edilməsi və s. kimi tələblərə rəsmi İrəvan məhəl qoymur.

Keçmiş rejimin sabiq "dövlət naziri" Artak Beqlaryan isə Ermənistan hökumət binası qarşısında jurnalistlərə açıqlamasında deyib ki, etiraz aksiyası hakimiyyətdən gözləntiləri əks etdirir: "Əgər biz buradayıqsa, bu o deməkdir ki, hökumətdən hələ də gözləntilərimiz var. Bizim proqnozlarımız başqa məsələdir. Hələlik hadisələrin inkişafı və hakimiyyətin siyasi mövqeyi göstərir ki, Ermənistan hökuməti "Artsax xalqı"nın hüquqlarını qorumaq üçün ciddi islahatlar və ya əhatəli, effektiv müzakirələr aparmaq fikrində deyil".

Beqlaryan qeyd edib ki, hakimiyyət bəzi siyasi tələbləri milli təhlükəsizliyə təhdid hesab edir. Bura xüsusən də separatçıların Qarabağa geri qaytarılması, "mədəni irs"in qorunması və "məhbuslar"ın azad edilməsi məsələləri daxildir.

Onun sözlərinə görə, hətta, sosial məsələlər də hissə-hissə və səmərəsiz həll olunur. Yaşayış yeri üçün kirayə ödənişləri dayandırıldıqdan sonra Qarabağdan gələnlər arasında yoxsulluq səviyyəsi kəskin şəkildə artıb: "Mütəxəssislərin hesablamalarına görə, Artsax sakinlərinin təxminən 80 faizi artıq yoxsulluq həddindən aşağıda yaşayır. Yaxın 2-3 ay ərzində həddindən artıq yoxsulların sayı xeyli artacaq".

Artak Mkrtçyan isə iyulun 14-də davam edən etiraz aksiyası zamanı bildirib ki, etirazçılar "40+10 min" dəstək proqramının davam etdirilməsini tələb edir, hökumət isə onu dayandırıb və yalnız Qarabağ sakinlərinin müəyyən, ən həssas qruplarına dəstək verir: "Qarabağdan gələnlərin mənzillə təmin olunması problemlidir. Çünki məcburi şərt var – Ermənistan vətəndaşlığının alınması. Adamlar müxtəlif səbəblərdən vətəndaşlıq ala bilmirlər. Bir çoxları doğum haqqında şəhadətnamələrini "Artsax"da qoyublar və burada bu məsələləri operativ həll edə bilmirlər. Adamlar bizə zəng edib deyirlər ki, doğum haqqında şəhadətnamə üçün 200-250 min dram istəyirlər".

*

Dünən Nazirlər Kabinetinin binası yaxınlığında etirazçılar önünə çıxan Ermənistan hökumətinin nümayəndəsi Ayk Simonyan küçədə heç bir müzakirə olmayacağını bildirib və qəbul üçün Qarabağ sakinlərindən ibarət dörd nəfərlik qrup yaratmağı təklif edib. Etirazçılar 2-3 aydır ki, peşəkar qruplarla danışıqlar apardıqlarını, lakin nəticəsi olmadığını xatırladıblar. "Hökumət konkret sosial məsələlərlə bağlı mövqeyini dəyişib, ya yox? Yoxsa, biz sadəcə olaraq yenidən danışıqlar meydançasına girməliyik? – deyə etirazçılardan biri soruşub.

A.Simonyan isə deyib: "Mən indi onları konkret sadalaya bilmərəm, amma suallarınız yerindəcə müzakirə olunacaq, cavablar alacaqsınız. Ola bilər ki, qərar verilsin, amma sizin 20 bəndinizdən hansının dəyişəcəyini indi deyə bilmərəm".

Ermənistan baş nazirinin aparat rəhbərinin müavini Taron Çaxoyan isə etiraz aksiyası zamanı jurnalistlərə açıqlamasında deyib ki, bu məsələ ilə bağlı olduqca aydın siyasi qiymət səsləndirilib: "Müxalifət artsaxlılardan istənilən şəkildə hakimiyyətə qarşı öz mitinqləri üçün siyasi material kimi istifadə etməyə çalışır. Təbii ki, məqsəd hakimiyyəti dəyişməkdir. Hər dəfə "Artsax xalqı"nın emosional hissləri ilə oynamaq və bu insanları küçələrə çıxarmaq cəhdi olur".

İrəvanda keçirilən aksiya bir daha göstərir ki, Qarabağdan könüllü köçüb gedən ermənilər Ermənistan cəmiyyətinə inteqrasiya etməkdənsə, revanşist və separatçı xətlə hərəkət etməyə üstünlük verirlər. Onların aksiyası da sosial narazılığın ifadə edilməsindən çox, revanşist dairələrin siyasi təxribat cəhdinə çevrilib. Mitinq başlamazdan öncə keçmiş qondarma rejimin "bayrağı"nın, əslində, separatizmin rəmzi olan əski parçasının meydanda nümayiş etdirilməsi bu insanların hələ də Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmədiklərini sübut edir. Ancaq deyəsən, onlar başa düşmürlər ki, keçmiş qondarma rejimin simvolik "bayrağı"nın açılması yalnız təxribat deyil, həm də Ermənistanın suverenliyinə açıq-aşkar meydan oxumaqdır. Ermənilər tərəfindən "Qarabağa qayıdış", Azərbaycanda hüquqi müstəvidə mühakimə edilən separatçıların sərbəst buraxılması, işğaldan azad edilmiş ərazilərdə "erməni irsi"nin qorunması kimi tələblərin irəli sürülməsi, mahiyyət etibarilə, separatçıların Ermənistan hakimiyyətinə qarşı təzyiq vasitəsinə çevrilib. Bu çıxışlar Ermənistan hakimiyyətini çətin vəziyyətə salmaqla yanaşı, regionda sülh gündəliyini də pozmağa xidmət edir. Separatçıların aksiyaları Ermənistanın daxili sabitliyinə və siyasi idarəçiliyinə ciddi təhdid yaradır. Onların ritorikası rəsmi İrəvanın beynəlxalq öhdəlikləri ilə də uzlaşmır.

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**

İrəvanda keçirilən mitinq təkcə sosial narazılığın ifadəsi deyil, həm də separatçı ideologiyanın yenidən dirçəldilməsi cəhdidir. Qarabağdan köçən ermənilərin adından çıxış edən qruplar Nikol Paşinyan hökumətini fakt qarşısında qoymağa, siyasi şantaj yolu ilə gündəmi dəyişməyə çalışırlar. Mitinq başlamazdan əvvəl təxribata yol verilməsi, yəni keçmiş qondarma rejimin "bayrağı"nın açılması bu prosesin arxasında revanşist və radikal qüvvələrin dayandığını göstərir. "Artsaxlılar" adı ilə çıxış edən şəxslərin irəli sürdüyü tələblər təkcə İrəvana deyil, regionda sülhün təmin olunmasında maraqlı olan bütün qüvvələrə yönəlmiş siyasi təzyiq elementidir. Bu tələblər beynəlxalq hüquqa və regionda formalaşan yeni geosiyasi reallıqlara ziddir. Onların əsas məqsədi Ermənistanın mövcud hakimiyyətini zəiflətmək, revanşizmə zəmin yaratmaq və Azərbaycanın ərazi bütövlüyü ilə barışmaq istəməyən qüvvələri yenidən səfərbər etməkdir.

Ermənistan hakimiyyətinin bu məsələyə adekvat münasibət bildirməməsi isə belə çağırışların legitimləşdirilməsi anlamına gəlir. Əgər Paşinyan hökuməti bu kimi aksiyalara zamanında reaksiya verməzsə, ölkədə separatçılıq ikinci nəfəs qazana və regionda sülh səylərinə ciddi zərbə vura bilər.

**Heydər Əliyev xatirələr işığında**

*Mintimer ŞAYMİYEV:*

# "Heydər Əliyev məni – Rusiyanın tərkibində olan respublikanın rəhbərini dövlət başçısı kimi qarşıladı"

**Hörmətli oxucular, xatırlıyırsınızsa, 2023-cü il – Heydər Əliyev ilində qəzetimizdə ümummilli liderimiz haqqında "Heydər Əliyev xatirələr işığında" layihəsinə start vermişdik. Bu layihədə ulu öndər Heydər Əliyevlə müxtəlif dövrlərdə çalışmış 10 tanınmış ictimai-siyasi və dövlət xadimindən onunla bağlı xatirələri əksini tapmış üst-üstə 35 müsahibə dərc etmişdik və bu müsahibələri elə həmin il 300 səhifədən ibarət kitab şəklində nəşr etdirdik. Müsahibələr ictimaiyyətdə böyük maraqla qarşılandığı üçün qərara gəldik ki, onları davam etdirək.**

**Budəfəki qonağımız bir qədər uzaqdan, qardaş tatar xalqının tanınmış ictimai-siyasi, dövlət xadimi ulu öndər Heydər Əliyevlə müxtəlif illərdə görüşmüş Tatarıstan Respublikasının ilk Prezidenti, Tatarıstanın Dövlət müşaviri Mintimer Şaymiyeviç Şaripoviç. Əvvəlcədən bildirək ki, biz internet üzərindən tatar xalqının böyük oğluna müraciət edib Heydər Əliyevlə bağlı xatirələrini öyrənmək istədiyimizi bildirəndə çox böyük məmnunluqla buna razılıq verdi. Mintimer Şaripoviçin köməkçisi, Tatarıstan Respublikası mətbuat və kütləvi informasiya vasitələrinin Əməkdar işçisi, jurnalist həmkarımız Nursyuya Şaydullina bu müsahibənin təşkilində bizə yaxından dəstək oldu.**





**– Hörmətli Mintimer Şaripoviç, deyirlər ki, istedadlı və görkəmli şəxsiyyətlərin şöhrəti onlardan qabaqda gedir. 1970-1980-ci illərdə Azərbaycana rəhbərlik edən, sonra isə Sovet İttifaqının rəhbərlərindən birinə çevrilmiş Heydər Əliyevi belə insanlardan hesab etmək olarmı? Bunu ona görə soruşuran ki, siz o vaxt qardaş Tatarıstanda artıq məsul vəzifələrdə çalışırdınız.**

– Şübhəsiz, 1970-1980-ci illərdə Heydər Əliyev artıq bütün ölkədə böyük ittifaq respublikalarından birinin – Azərbaycan SSR-in rəhbəri kimi tanınırdı. O vaxt mən, doğrudan da, artıq məsul vəzifələrdə çalışırdım: Tatarıstan Muxtar Sovet Sosialist Respublikası (TM SSR) meliorasiya və su təsərrüfatı naziri, TM SSR Nazirlər Soveti sədrinin birinci müavini, TM SSR Nazirlər Sovetinin sədri... Gənc, rəhbər vəzifələrdə yenicə çalışmağa başlayan insan kimi imkan daxilində daim ölkədə baş verən hadisələrdən xəbərdar olmağa çalışırdım, milli respublikaların liderləri ilə maraqlanırdım, xüsusilə də Heydər Əliyevlə. Ona görə ki, azərbaycanlılar da tatarlar kimi türkdilli xalqdır. Onların milli mədəniyyətlərini necə inkişaf etdirdiklərini və qoruyub saxladıqlarını bilmək bizim üçün maraqlı idi. Heydər Əliyevin respublika KP MK-nın birinci katibi olduğu dövrdə Azərbaycan SSR bir çox ittifaq respublikaları üçün nümunə idi, nüfuzu yüksək idi. Yəqin ki, bütün ölkə Leonid İliç Brejnevin hakimiyyətdə olduğu illəri xatırlayır, biz onun Azərbaycana necə səfər etməsini, respublikanın uğurlarını necə qeyd etməsini, Heydər Əliyevə ehtiramını ifadə etməsini televiziyada izləyirdik. Heydər Əliyeviç irimiqyaslı şəxsiyyət, əla natiq, 2 dəfə Sosialist Əməyi Qəhrəmanı idi. Məlum olduğu kimi, SSRİ-də bu adlar dövlət qarşısında xüsusilə görkəmli xidmətlərə görə verilirdi. Azərbaycan, əlbəttə ki, iqtisadiyyatın müəyyən sahələrində əlçatmaz idi, məsələn, Azərbaycan torpağının zəngin olduğu üzüm və bir sıra digər məhsulların istehsalının on dəfə artdığını gözəl xatırlayıram. Bir sözlə, respublikanın və qardaş Azərbaycan xalqının çiçəklənmə dövrü idi. Heydər Əliyevçin fəaliyyəti heyranlıq doğururdu.

**– Şəxsən tanımadığınız, lakin haqqında çox eşitdiyiniz Siyasi Büro üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Türk dünyasının nümayəndəsi və müsəlman Heydər Əliyev Sizdə hansı təəssürat yaradırdı?**

– O vaxt eşitdik ki, Yuri Andropov SSRİ-nin rəhbəri olan kimi onu Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə dəvət edib və Heydər Əliyeviç çətinliklə razılaşıb, çünki o, xalqının oğlu kimi öz respublikasına xidmət etmək istəyirdi. Aydın idi ki, o, təcrübəli, müdrik və dərrakəli bir insan idi və yəqin ki, gələcək dəyişiklikləri əvvəlcədən sezmişdi. Bu, Mixail Sergeyeviç Qorbaçovun Sov.İKP MK-nın birinci katibi olana qədərki vaxt idi. Görünür, uzun illər DTK sistemində çalışmış Heydər Əliyeviç ölkənin həyatında başlaya biləcək taleyüklü dəyişiklikləri bizdən də çox bilirdi.

**– 1985-ci ildə Siz Tatarıstan MSSR Nazirlər Sovetinin sədri təyin olunanda Heydər Əliyev artıq üç il idi ki, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışırdı. Həmin illər ərzində onunla şəxsən görüşmək və ya telefonla danışmaq şansınız olubmu?**

– Təəssüf ki, həmin illərdə onunla şəxsən görüşmək şansım olmadı. Amma biz gənc liderlər yenidənqurma illərində baş verən hadisələrin fəal iştirakçıları olmuşuq, hökumətin müxtəlif iclaslarında iştirak edir, prosesləri müşahidə edirdik. Heydər Əliyeviç çoxlarımız üçün nümunə idi. Bu cür şəxsiyyətlərin təsiri bizim sonralar regional lider kimi, indiki halda mənim Tatarıstanın lideri kimi, inkişaf etməyimizə kömək etdi. Yenidənqurmanın ilk illərinin taleyüklü hadisələri fonunda biz SSRİ-nin süqutu şəraitində ittifaq respublikalarının keçmiş rəhbərlərinin öz respublikalarının azadlığı və müstəqilliyi üçün necə can atdıqlarını gördük. O zaman biz hamımız bu şəraitdə yaşamaq və xalqlarımızın mənafeyini qorumaq üçün yollar axtarırdıq. SSRİ xalq deputatlarının qurultaylarında, partiya konfranslarında, rayonlarımızdakı qaynar mitinqlərdə bu suallara cavab axtarırdıq...

**– Mintimer Şaripoviç, necə bilirsiniz, Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun Heydər Əliyevə qarşı ədalətsiz və qərəzli münasibətinin, onun hakimiyyətdən uzaqlaşdırılmasının səbəbləri nə idi? Axı Heydər Əliyev SSRİ rəhbərliyi arasında dövrünün ən mütərəqqi, istedadlı və hörmətli siyasətçilərindən biri idi...**

– Təəssüf ki, bu barədə dəqiq məlumatım yoxdur. Amma öz şəxsi fikrimi deyə bilərəm. Bildiyimə görə, Heydər Əliyeviç Mixail Sergeyeviçin hakimiyyətə gəlməsinə və onun Sov.İKP MK-nın rəhbəri seçilməsinə fəal dəstək vermişdi. Düşünürəm ki, Heydər Əliyeviçlə bilavasitə işləmiş Qorbaçov, yəqin ki, onun hazırlığını və nüfuzunu hiss etdi və ondan qorxmağa başladı. Buna görə də Əliyev sözün həqiqi mənasında Sov.İKP MK Siyasi Bürosundan sıxışdırıldı. Qorbaçov güclü insanlardan qorxurdu. Mən bunu liderin zəifliyi hesab edirəm. Sizə öz təcrübəmdən deyim: güclü, iradəli lider öz strategiyasını həyata keçirə bilməsi üçün bacarıqlı kadrları cəlb etməli və saxlamalıdır. Nə qədər böyük lider olsanız da, güclü komanda olmadan heç nə həyata keçirə bilməyəcəksiniz. Üstəlik, Heydər Əliyeviç, necə deyərlər, millətlərarası problemləri bilən və həll etməyə qadir olan çox müdrik və təcrübəli milli kadr idi. Bizim taleyimiz belədir: biz milli respublikalar bir dövlətin tərkibində və ya qonşu kimi münasibətlər qurmağa məhkumuq, çünki ərazilərimiz bir-birinin qonşuluğunda yerləşdiyindən xalqlarımızın çoxəsrlik əlaqələri var. Heydər Əliyeviç təcrübəli siyasətçi kimi təxirəsalınmaz problemlərin həllində iştirak etməli idi, Qorbaçovun çoxlu belə problemləri var idi.

**– 1990-cı ildə Sizin rəhbərliyinizlə Tatarıstanın Dövlət Suverenliyi Bəyannaməsi qəbul edildi. 1991-ci ildə, siz Tatarıstan Respublikasının Prezidenti seçiləndən az sonra Sovet İttifaqı dağıldı. Sonra 1992-ci ildə respublikada Tatarıstanın statusu ilə bağlı referendum keçirildi. Eyni zamanda, 1991-ci ildə də müstəqilliyini elan edən Azərbaycan 1993-cü ilə qədər dövlətçiliyini təhlükə altına alan siyasi böhran yaşadı. Bu hadisələri Kazandan izləyib nə düşünürdünüz? O zaman Heydər Əliyevi xatırladınızmı?**

– Düz deyirsiniz, Tatarıstanın həyatında ən taleyüklü hadisələr 1990-1994-cü illərdə baş verib. Tatarıstanın lideri kimi, Sizin sadaladığınız bu hadisələrdən keçərəkən mən respublika rəhbərinin uğurunun əsas şərti kimi özüm üçün bir şeyi müəyyənləşdirdim - bu, xalqın dəstəyi və etimadıdır, uzun illər ərzində qazanılmalıdır. İttifaq respublikalarının rəhbərlərinin yenidənqurma illərində hələ SSRİ-nin tərkibində olarkən, sonra isə Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin başçısı olanda davranışlarını yaxşı xatırlayıram. Amma hamı müstəqil dövlətlərin rəhbəri olmağa hazır deyildi. Biz hamımız postsovet ölkələrində baş verən hadisələri izləyirdik və özümüz üçün çoxlu dərslər aldıq. Ayaz Mütəllibovun Azərbaycana rəhbərlik etdiyi vaxtı xatırlayıram. Azərbaycanda siyasi sabitliyin pozulması kifayət qədər güclü idi. Təbii ki, biz bu prosesləri izlədik və başa düşdük ki, o dövrdə siyasi proseslərin, o cümlədən Qarabağ münaqişəsinin fəlakətli inkişafının qarşısını ala biləcək əsl mötəbər lider meydanda yox idi. Mən əmin idim ki, Heydər Əliyeviç o vaxt hakimiyyətdə olsaydı, bu faciənin qarşısı alınardı. Həmin təlatümlü vaxtlarda, bir qədər gecikmiş olsa da, respublika əhalisi Heydər Əliyeviçin hakimiyyətə qayıdışını tələb etdi ki, bu da tarixən özünü doğrultdu. Əgər o, xalqın onun Ali Sovetə rəhbərlik etmək təklifini qəbul etməsəydi, bundan da pis ola bilərdi. Bəzən siyasətdə ən kiçik boşluq xalq üçün böyük fəlakətə çevrilir. Respublika sakinləri daha sonra onu qətiyyətlə dəstəklədilər, o, 98 faiz səslə Azərbaycan Prezidenti seçildi. Nə yaxşı ki, Azərbaycan xalqının öz təcrübəli, ölkəni, qonşu respublikaları tanıyan müdrik şəxsiyyəti var idi. O, həqiqətən də, bir çox suallara cavab tapıb, respublikada siyasi, sosial-iqtisadi həyatı öz axarına sala bildi. Heydər Əliyev nadir şəxsiyyətdir, ona həm Sovetlər İttifaqında, həm də, postsovet məkanında dünya düzəninin tamamilə yeni şərtlərində həqiqətən hörmətlə yanaşılıb. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevlə fəxr edir, dahi oğlunun müqəddəs xatirəsini əziz tutur. Hərdən onu diktator olmaqda ittiham etmək cəhdlərini eşidirəm və s. Bu adamlar sadəcə olaraq türk xalqlarının adət-ənənələrini bilmirlər, burada hakimiyyət əsrlərlə liderin nüfuzuna söykənib. Hakimiyyət və hörmət isə xalqın etimadını real əməllərlə qazanmaqla əldə edilir. Rəhbərə hörmət edilirsə, xalq onu həm seçkilərdə, həm də indiki fəaliyyətində dəstəkləyir. Xalq birləşib liderə dəstək olanda nəticə var. Ona görə də bu və ya digər rəhbərliyə qiymət verməzdən əvvəl xalqların tarixini, əxlaqını, adət-ənənələrini, mənəvi irsini daha yaxşı öyrənməyi məsləhət görərdim.

**– Heydər Əliyevlə ilk görüşünüzün tarixçəsini bölüşə bilərsinizmi? O, sizdə hansı təəssüratlar oyatdı?**

– Bəli, həyatda onunla şəxsən tanış olmaq mənə qismət oldu. Nə gizlədim, köhnə günlərdə bu barədə xəyal etmək belə mümkün deyildi. 1991-ci ildə mən Tatarıstan Respublikasının Prezidenti seçildim. Respublikamız tədricən beynəlxalq layihələrdə fəal iştirak etməyə başladı, bir çox ölkələrlə iqtisadi və mədəni əlaqələr qurmağa başladıq.

1995-ci ilin yanvarında biz Davosa iqtisadi foruma getdik, ora bir çox dövlətlərin başçıları gəldi, Heydər Əliyeviç də orada idi. Bir-birimizlə tanış olduq, qısa söhbət etdik. Sizə deməliyəm ki, biz onunla şəxsən söhbət edəndə sovet dövründə və ondan sonrakı bütün müşahidələrim tam təsdiqini tapdı, o, həqiqətən də təsəvvür etdiyim kimi idi.

1995-ci ilin avqustunda mən respublikanın böyük nümayəndə heyəti ilə Şərqin görkəmli şairi və mütəfəkkiri Abay Kunanbayevin 150 illik yubileyini qeyd etmək üçün Qazaxıstana gəldim. Azərbaycan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Gürcüstanın rəhbərləri orada idilər. Bayram şənliklərində birgə iştirak bizi bir-birimizə daha da yaxınlaşdırdı. Mən onların hər biri ilə şəxsən danışdım. Heydər Əliyeviç məni Azərbaycana rəsmi səfərə dəvət etdi. Mən onun dəvətini minnətdarlıqla qəbul etdim.

**– Beləliklə, Tatarıstanın Prezidenti kimi müstəqil Azərbaycana ilk rəsmi səfəriniz 1996-cı ilin noyabrında baş verdi. Prezident Heydər Əliyev böyük ehtiram əlaməti olaraq Sizi hava limanında şəxsən qarşıladı. Onun nümayiş etdirdiyi bu ehtiram sizə necə təsir bağışladı? Həmin səfərin başqa hansı anları yaddaşınıza yazıldı?**

– 1996-cı ilin noyabrında biz Tatarıstan Respublikasından böyük nümayəndə heyəti ilə İrana rəsmi səfər etdik və səfər başa çatdıqdan sonra Azərbaycana yollandıq.

Noyabrın 20-də təyyarəmiz Binə Beynəlxalq Hava Limanına gəldi və orada fəxri qarovul dəstəsi ilə bizi şəxsən Prezident Heydər Əliyev qarşıladı. Düzünü desəm, təəccübləndim, əslində belə yüksək şərəf gözləmirdim. Dahi Heydər Əliyev özü trapın qarşısında dayanıb və məni - Rusiyanın tərkibində olan respublikanın rəhbərini dövlət başçısı kimi qarşılayır. Bu, heç vaxt unutmayacağının bir şeydir. Bu, mənim siyasi karyeramın başlanğıcı idi və onun diqqəti mənə böyük dəstək oldu. Məncə, Heydər Əliyev bunu başa düşdü.

Səfərin ilk günü Heydər Əliyevlə axşam saat 7-də oturub səhər saat 4-ə qədər söhbət etdik. Bu, böyük qardaşla kiçik qardaş arasında, mübaliğəsiz, ürəkdən gələn söhbət idi. Onun insanlığı və ünsiyyətdəki sadəliyi məni, yaxşı mənada, son dərəcə heyrətləndirdi. Yəqin ki, ata-anasına təşəkkür etmək lazımdır, o, yaxşı tərbiyə alıb, SSRİ dövrünün böyük şöhrəti onu dəyişməyib. Mən o zaman hiss etdim ki, o, ilk növbədə, xalqının oğlu kimi doğma Azərbaycanı üçün səmimi qəlbdən narahatdır. O zaman baş verən hər şey ürəyindəki ağrıda əks olundu və görünür, sonradan sağlamlığına çox təsir etdi. Ertəsi gün təntənəli şəraitdə Tatarıstan və Azərbaycan arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında dövlətlərarası Sazişin imzalanması baş tutdu. Sonra Tatarıstan Respublikasının Azərbaycandakı daimi nümayəndəliyində olduq, tatar diasporunun nümayəndələri ilə görüşdük. Axşam Heydər Əliyeviç bizim şərəfimizə rəsmi nahar verdi. Noyabrın 22-də gözəl Bakı şəhərini gördük, sakinlər bizi mehribanlıqla qarşıladılar, mən şəhər əhalisi ilə, həm də tərcüməçisiz tatar dilində danışdım. Dağlıq Qarabağdan olan məcburi köçkünlərin məskunlaşdığı əraziyə baş çəkdik, onların məskunlaşdığı binaya baxış keçirdik, ailələri ilə söhbət etdik. Kazana çatan kimi onlara humanitar yardımın göstərilməsini əmr etdim. Tatarıstanlılar isə təcili ehtiyac duyulan humanitar yardımla bir KAMAZ karvanını ora göndərdilər.

Sonra bir neçə dəfə müxtəlif şənliklərdə görüşüb söhbət etdik. Yadımdadır, 1998-ci ilin iyununda Qazaxıstan Respublikasının paytaxtı Astananın təqdimat mərasimində bir yerdə idik. Yeri gəlmişkən, 90-cı illərdə mən Türkiyə prezidentləri Turqut Özal, sonra Süleyman Dəmirəllə görüşdüm, onlardan Heydər Əliyeviçin ünvanına çoxlu hörmət və minnətdarlıq sözləri eşitdim.

**– Yəqin ki, Heydər Əliyevin idarəçilik təcrübəsindən, xarakterindən və liderlik keyfiyyətlərindən çoxlu dəyərli dərslər çıxarmaq olar. Heydər Əliyevi böyük qardaş adlandıran Mintimer Şaymiyev ondan nə öyrəndi?**

– Heydər Əliyeviçlə hər söhbətimdən müdriklik və uzaqgörənlikdə əvəzsiz bir dərs aldım. Əsl siyasətçi intuisiyası var idi. O, həyatı bilməklə, tarixi bilməklə baş verən hadisələrə dəqiq irimiqyaslı qiymət verə, bunun ölkələrimizin gələcəyinə necə təsir edəcəyini hesablaya bilərdi.

**– Ulu öndər Heydər Əliyevin vəfatından sonra siyasətçilərdən biri deyirdi: "Heydər Əliyevlə bütöv bir dövr başa çatdı". Bundan sonra Azərbaycan xalqının seçimi İlham Əliyev oldu. Bu gün onun rəhbərliyi altında Azərbaycanın inkişafını Tatarıstanda necə qiymətləndirirlər?**

– Mən İlham Heydəroğlunu nəhəng atasının layiqli oğlu və ən yaxşı davamçısı hesab edirəm. O, postsovet məkanında yeni geosiyasi sistemin gələcək inkişafına, Rusiya Federasiyası ilə mehriban qonşuluq münasibətlərinə və işgüzar əməkdaşlığa böyük töhfə verir. Hazırda Azərbaycan güclü iqtisadiyyata və etibarlı sosial təminatlara malik, demokratik dəyərlərə, mədəniyyətlərarası və dinlərarası dialoqa sadiq olan, sürətlə inkişaf edən dövlətə çevrilib. Onun siyasi iradəsi sayəsində Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya edərək böyük investisiyalar cəlb edən ölkəyə çevrilib.

Məlum olduğu kimi, Tatarıstan və Azərbaycan xalqlarını həmişə qardaşlıq və dostluq əlaqələri bağlayıb. Mən çox şadam ki, müasir dövrdə təməlində Heydər Əliyevlə dayandığımız respublikalarımız arasında əməkdaşlıq Rusiya–Azərbaycan dostluq münasibətləri çərçivəsində uğurla davam edir və hər gün daha da möhkəmlənir.

Hazırda Tatarıstanla Azərbaycan arasında münasibətlərin necə inkişaf etdiyini izləyirəm. Azərbaycanda, Bakıda hələ də Tatarıstan Respublikasının Səlahiyyətli Nümayəndəliyi fəaliyyət göstərir və Kazanla Bakı arasında birbaşa hava əlaqəsi mövcuddur. Bu gün Azərbaycanda 18 minə yaxın soydaşımız yaşayır və onlara Azərbaycan rəhbərliyi tərəfindən daim dəstək verilir. Eyni zamanda, bizim dəstəyimizlə Tatarıstanda azərbaycanlıların milli-mədəni muxtariyyəti yaradılıb. Son siyahıyaalmaya görə, onların sayı 8,7 min nəfərdir və onlar respublikanın həyatında fəal iştirak edirlər. İki respublika arasında iqtisadi əməkdaşlıq da inkişaf edir.

Azərbaycan Prezidenti İlham Əliyev və Tatarıstanın Rəis Rüstəm Minnixanov tez-tez görüşürlər. Onlar həmişə vurğulayırlar ki, Azərbaycanla Tatarıstan arasında çoxillik dostluğa mənimlə Heydər Əliyev arasında mövcud olan isti şəxsi münasibətlər kömək edir.

Ötən ilin sonunda Rüstəm Nurqaliyeviç Bakıya növbəti işgüzar səfər edib. Onlar bu barədə daha əvvəl İlham Əliyevin BRİKS sammitində iştirak etmək üçün Kazana səfəri zamanı razılığa gəliblər. İlham Əliyev Rüstəm Minnixanova "Dostluq" ordenini, tatar dilində dostluq mənasını verən "Duslyk" ordenini təqdim edib. Məncə, bu, çox simvolikdir. Birçə onu arzu etmək qalır: "Yaşasın hər zaman dostluğumuz"! (Yaşəsən həvakıt dusliqıbız! (tatar dilində.)

***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

**14 iyul 1969-cu ildən başlanan yol**

# Azərbaycanı gələcək müstəqillik epoxasına hazırlamış qurucu lider

**Dərin zəka sahibi, müdrik insan, böyük öndər Heydər Əliyevin görkəmli dövlət xadimi, təcrübəli siyasətçi, Azərbaycan dövlətçiliyini xilas edib möhkəmləndirən və inkişaf etdirən qüdrətli şəxsiyyət kimi həyat və fəaliyyəti müasir tariximizin mühüm mərhələsini təşkil edir. Başqa sözlə desək, müasir dövlətçilik mərhələsinin tarixi həm də Heydər Əliyevin əməli, çoxşaxəli, məhsuldar fəaliyyətinin tarixidir.**



Heydər Əliyevin fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai sistemin qovuşuğundan keçmiş və bunların hər ikisindən o, bacarıqla istifadə edib respublikamızın tərəqqisini təmin etmişdir. 1969-cu il iyulun 14-də keçirilən Azərbaycan Kommunist Partiyasının Plenumunda respublika rəhbərliyində kifayət qədər yüksək vəzifə ilə təmsil olunan – Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olan Heydər Əlirza oğlu Əliyevin Mərkəzi Komitənin birinci katibi seçilməklə ali məqama yüksəlməsi ölkəmizin tarixində gerilikdən çıxma, milli-mədəni intibah, hərtərəfli yüksəliş dövrünün başlanğıcı oldu.

***Həmin plenum tarixdə belə iz qoyub:***

***Gündəlikdə təşkilat məsələsi idi – AKP MK-nın birinci katibinin seçilməsi. Plenumun işində iştirak edən Sov. İKP MK-nın katibi İ.V.Kapitonov iclasda çıxış edib. O, göstərib ki, bu məsələ mərkəzdə və respublikada uzun müddət, diqqətlə və hərtərəfli müzakirə edildikdən sonra Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində çalışan Heydər Əliyevin namizədliyi üzərində dayanıblar. Çünki o, cavandır, bacarıqlıdır, respublika mühitində böyüyən, püxtələşən bir şəxsdir. O özünü gözəl təşkilatçı, insanlarla işləyən, ünsiyyət yarada bilən rəhbər kadr kimi də göstərmişdir, özünə və başqalarına qarşı son dərəcə tələbkardır. Bunları nəzərə alaraq Sov. İKP MK-nın Siyasi Bürosu və Azərbaycan KP MK Heydər Əliyevin MK-nın birinci katibi və büro üzvü seçilməsi barədə təklifi plenumun müzakirəsinə verib.***

***Respublikaya 10 il başçılıq edən Vəli Axundov plenumda çıxış edərək Heydər Əliyev haqqında demişdir: "Heydər Əliyevə xas olan bütün siyasi və iş keyfiyyətləri söyləməyə imkan verir ki, o, respublikaya layiqincə rəhbərlik edəcək, böyük və çətin işin öhdəsindən bacarıqla gələcək. O, kifayət qədər savadlı, hərtərəfli hazırlıqlı, yüksək intellektə malik insandır. Bütün kadrlara qarşı eyni düzgün mövqedədir, çünki kifayət qədər obyektiv, vicdanlı və ləyaqətli insandır. Çekistin isti ürəyi, aydın ağlı, təmiz əli olmalıdır. Bütün bu keyfiyyətlər Heydər Əliyevdə vardır və mən əminəm ki, o, respublikaya bacarıqla rəhbərlik edəcək".***

***Plenum yekdilliklə Heydər Əliyevə səs verib və o, AKP MK-nın birinci katibi vəzifəsinə seçilib. Plenumda çıxış edən Heydər Əliyev bildirib ki, o, tam məsuliyyətlə qarşıda duran çətin və mürəkkəb vəzifələri dərk edir və öz əməli işində bunların həlli üçün əlindən gələni əsirgəməyəcək.***

1969-cu il iyul plenumunun qərarlarının tarixi əhəmiyyət daşıdığını həyat özü göstərdi, respublikanın sürətli inkişafında, xalqımızın taleyində dönüş mərhələsi oldu Azərbaycanda siyasi rəhbərliyə gələn Heydər Əliyev keçmiş ittifaqın iqtisadiyyatı üçün xammal mənbəyinə çevrilmiş respublikamızın yeni inkişaf strategiyasını hazırlayıb qısa müddətdə həyata keçirdi. Bunun nəticəsində əvvəllər bütün əsas göstəricilər üzrə ölkə miqyasından geri qalan Azərbaycan tezliklə İttifaqın ən inkişaf etmiş respublikalarından birinə çevrildi.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi seçilən vaxt respublika iqtisadiyyatı dərin iqtisadi böhran mərhələsinə qədəm qoymuşdu. 60-cı illərdə iqtisadiyyatın inkişafında mənfi meyillər özünü göstərirdi. Bir sıra obyektiv və subyektiv səbəblərə görə Azərbaycanın sosial-iqtisadi inkişafdan geridə qalması nəzərə çarpırdı. Bir çox sahələrdə - milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geridə qalırdı.

1965-ci ildə 1940-cı ilə nisbətən Azərbaycanda məcmu ictimai məhsul 3,6 dəfə, sənaye məhsullarının həcmi 4 dəfə artmışdı. Lakin Ümumittifaq üzrə bu göstəricilər müvafiq surətdə 5,7 və 7,9 dəfəyə çatırdı. Azərbaycan SSR milli gəlirin həcminə görə Ümumittifaq səviyyəsindən 2 dəfə, əsas fondlara görə 1,8 dəfə, kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı. Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesində işlərin fasiləsiz aparılması pozulur, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri aşağı düşürdü.

Kənd təsərrüfatının istehsal səviyyəsi aşağı düşməkdə davam edirdi. Meliorasiya və dəmyə torpaqların suvarılmasında, kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsində nöqsanlar var idi. Kənd təsərrüfatında taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa bitkilərin məhsuldarlığı aşağı səviyyədə idi. Respublikanı belə bir ağır vəziyyətdən qurtarmaq üçün çıxış yolunun axtarıb tapılması, iqtisadiyyatın inkişafı üçün prinsip etibarı ilə yeni konseptual proqram işlənməsi, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri həyata keçirilməsi, təsərrüfatçılıq işində yeni metodlar tətbiq edilməsi kimi zəruri vəzifələr qarşıda dururdu.

Bu çətin və mürəkkəb işlərin həyata keçirilməsində güclü, bacarıqlı təşkilatçı, cəsarətli bir rəhbərə ehtiyac var idi. Belə bir rəhbər də Heydər Əliyev oldu. Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən bir ay keçməmiş Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda məruzə ilə çıxış etdi. Məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyət böyük prinsipiallıqla dərindən və hərtərəfli təhlil edilir və xalq təsərrüfatına, mədəni quruculuğa rəhbərlikdə buraxılmış ciddi nöqsanlar və çatışmazlıqlar aşkar edildi. Plenum bütün təşkilatları dövlət və əmək intizamını möhkəmlətməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa istiqamətləndirdi.

Respublika rəhbəri Heydər Əliyev 1969-1970-ci illərdə keçirilən Azərbaycan KP MK-nın plenumlarında, fəallar yığıncaqlarında, toplantılarda və başqa yığıncaqlarda məruzə və çıxışlarında ardıcıl olaraq təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil edir və yeni vəzifələr qarşıya qoyurdu. Həmin illər Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsi oldu.

Azərbaycanın müasir tarixində 1969-cu ildə irimiqyaslı inkişafın təməli qoyuldu. Respublikamızın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi Heydər Əliyevin yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və böyük təşkilatçılığı bütün 1970-80-ci illərdə müvəffəqiyyətlərin rəhni oldu.

Hər bir dövlətin qüdrəti onun iqtisadi inkişaf göstəriciləri ilə müəyyənləşir. 1969–1982-ci illər ərzində respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı 2 dəfə, kənd təsərrüfatında istehsal olunan məhsulun ümumi həcmi 2,7 dəfə, xalq istehlakı mallarının istehsalı isə 3 dəfə artmışdır. İqtisadiyyatda köklü struktur və keyfiyyət dəyişiklikləri baş verdi, tərəqqinin və yüksəlişin təməli qoyuldu. 14 ildə respublikamızın sənayesi nəinki keçmiş İttifaqın bütün respublikalarına, hətta bir sıra inkişaf etmiş xarici ölkələrə nisbətən də daha yüksək sürətlə inkişaf edirdi.

Sənayenin orta illik artımı 7,9 faizə yüksəlmişdir. Təkcə 1982-ci ilin iki günü ərzində bütünlükdə 1920-ci ildə buraxılan məhsulun həcmi qədər məhsul istehsal olunurdu. Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət obyektlərinin tikilib istifadəyə verilməsi xüsusi diqqət mərkəzində idi. Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi birinci dövrdə (yəni cəmi 14 ildə) iri sənaye müəssisələrinin sayı 1048-ə çatdırılmışdı. Əsas istehsal sahəsi olan neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesi inkişaf etdikcə Azərbaycan keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrilirdi.

1982-ci ildə kimya və neft-kimya sənayesinin, maşınqayırma və metal emalının, yüngül və yeyinti məhsulları sənayesinin xüsusi çəkisi sənayenin strukturunda 1913-cü ildəki 14,8 faizə qarşı 75,6 faiz təşkil edirdi. Nəqliyyat kompleksində, dəmir yolunda, gəmilərin yükboşaltma işlərində hərəkətlər sürətlənmiş, sərnişin nəqliyyatının işində intensivlik artmışdı.

Diqqət mərkəzində olan məsələlərdən biri də yeni yolların tikintisi idi. 1969-1982-ci illərdə tikilib istifadəyə verilən asfalt yolların uzunluğu 20,4 min kilometrə çatırdı, halbuki 1969-cu ilədək həmin rəqəm 12,7 min kilometr təşkil edirdi.

Bütün əsrlər boyu qədim əkinçilik diyarı kimi tanınmış Azərbaycan Heydər Əliyevin rəhbərliyi dövründə nəhəng sənaye-aqrar respublikalarından birinə çevrilmişdi. Meliorasiya və irriqasiya sahəsində mühüm tədbirlər həyata keçirilir, aqrotexniki qaydalar sürətlə təkmilləşir, taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa kənd təsərrüfatı məhsullarının artımı ildən-ilə nəzərəçarpacaq dərəcədə yüksəlirdi.

İri sənaye müəssisələrinin əksəriyyətinin bir qayda olaraq, Bakı, Sumqayıt şəhərlərində tikilməsini nəzərə alaraq ucqar rayon mərkəzlərində, müxtəlif bölgələrdə respublika əhəmiyyətli obyektlər tikilir, iş yerləri açılırdı. Ölkə başçısının xüsusi diqqət yetirdiyi məsələlərdən biri də respublika əhalisinin mənzil şəraitinin yaxşılaşdırılması idi. 14 ildə respublika əhalisinə 376,1 min yeni tikilmiş mənzil verilmişdi. Bu, Azərbaycanın hər üç sakinindən birinin məhz həmin dövrdə təzə mənzillə təmin olunduğuna dəlalət edir.

O vaxtkı ən kəskin problemlərdən biri də əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, habelə əmək ehtiyatlarından səmərəli istifadə edilməsi məsələsi idi. 1970-ci ildən başlayaraq bu problemin həlli yollarında ardıcıl olaraq görülən işlər, atılan addımlar öz səmərəsini vermişdi, orta və kiçik şəhərlərdə, kənd yerlərində əlavə iş yerləri açılması hesabına fəhlə, qulluqçu və kolxozçuların orta illik sayı 813 min nəfər, yaxud 1,5 dəfə artaraq 1985-ci ildə 2 milyon 360 min nəfərə çatmışdı.

Azərbaycan sənayesinin inkişafında elmi-texniki tərəqqinin nailiyyətləri geniş tətbiq olunaraq 1971-1985-ci illərdə 581 adda yeni tipli avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı. 1050 adda mühüm sənaye məhsulunun istehsal olunduğu 2,5 min mexanikləşdirilmiş axın xətti, 73 elmi istehsalat və istehsalat birliyi yaradılmışdı ki, bunların da tərkibində 264 iri müəssisə vardı. Bununla yanaşı, elm, təhsil, maarif, ictimai-mədəni sahələrdə də mühüm dəyişikliklər baş vermişdi.

Doqquzuncu beşilliyin yekunlarına görə, respublika üzrə 12 min nəfər orden və medallarla təltif edilmişdi. 16 nəfərə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi. 1971-1975-ci illərdə respublikamızda 198 elmlər doktoru və 1781 elmlər namizədi hazırlanmışdı. Elmi-tədqiqat institutları, ali məktəblər, elm və tədris müəssisələri yüksəkixtisaslı kadrlarla təmin edilmişdi. Respublikada yeni ali məktəblər - Xarici Dillər İnstitutu, İnşaat Mühəndisləri İnstitutu, Naxçıvan Pedaqoji İnstitutu açılmış, Dağlıq Qarabağda Pedaqoji İnstitut yaradılmışdı.

Azərbaycan SSR-nin xalq təsərrüfatının bütün sahələrində tarixdə görünməmiş inkişafı Heydər Əliyevin rəhbərliyinin nəticəsi idi. Heydər Əliyev respublikamızın yeni inkişaf strategiyasını hazırlayıb həyata keçirilməsini təşkil etdi. 1970-1985-ci illər Azərbaycan tarixinin ən parlaq səhifələrini təşkil edir.

Bu dövrdə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan kompleks inkişaf planlarının həyata keçirilməsi respublikamızın tarixində misli görünməmiş dəyişikliklər, yüksəlişlə nəticələnmişdir. Müstəqillik dövründə bu məsələdən söz açan Prezident Heydər Əliyev deyirdi: "Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızm tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır".

Aparılan böyük və nəhəng dəyişikliklər, tutumuna və həcminə görə, iqtisadi və sosial sahələrdə tətbiq olunan islahatlar Azərbaycan xalqının maddi rifah halmın keyfiyyətcə yeni mərhələyə çatmasına böyük təkan vermişdi. Həmin zaman SSRİ hökuməti Azərbaycanla bağlı beş xüsusi qərar qəbul etmişdi. Bu qərarların həyata keçirilməsi ilə respublikamızın bir çox sahələrində hərtərəfli yüksəliş, ardıcıl inkişaf dövrü başlanmışdı. Heydər Əliyevin müdrik siyasəti nəticəsində 14 il ərzində respublikada yaranmış güclü sosial, iqtisadi və intellektual potensial Azərbaycanın müstəqilliyi üçün mühüm zəmin yaratmışdı.

Ümummilli lider Heydər Əliyev 1970-1985-ci illərdə Azərbaycanda yaradılan maddi-texniki bazanı, möhkəm iqtisadiyyatı müstəqil Azərbaycan Respublikasının gələcək quruculuq işləri üçün təməl, bünövrə hesab edir və yüksək qiymətləndirirdi: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha da dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

Ulu öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə həmişə Azərbaycan xalqının dilinin, mənliyinin, milli şüurunun, milli mentalitetinin qorunması və inkişaf etdirilməsi keşiyində durmuş və bu sahədə çalışanların əməyinə yüksək qiymət vermişdi: "Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim - onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüuranun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəli getməsinə xidmət göstərir".

Azərbaycan xalqı bəşər tarixinə görkəmli şəxsiyyətlər - elm, mədəniyyət və ictimai-dövlət xadimləri vermişdir. Belə şəxsiyyətlərin xidmətlərini, tarixdə rolunu göstərmək, onların adını əbədiləşdirmək, bütün xalqa və gələcək nəsillərə tanıtmaq Heydər Əliyevə xas olan nəcib və yüksək keyfiyyətlərdəndir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin fəaliyyətinin üzə çıxarılması, adlarının əbədiləşdirilməsi onun şəxsi təşəbbüsü, böyük və tarixi xidmətidir. Respublikada görkəmli şəxslərin, elm, təhsil və mədəniyyət ocaqlarının yubileylərinin keçirilməsi böyük tarixi hadisəyə çevrilmişdi.

1970-1980-ci illərin əvvəllərində ali təhsil sahəsində yaranan fundamental maddi-texniki baza, mütərəqqi ənənələr müasir ali təhsilimizin möhkəm bünövrəsini təşkil edir. 10 il ərzində ali təhsilli ixtisaslı kadrların sayı respublikada iki dəfə artmışdı. Həmin dövrdə hər il yüzlərlə azərbaycanlı gənc Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə təhsil almaq üçün keçmiş İttifaqın qabaqcıl ali məktəblərinə göndərilirdi. 1969-1982-ci illərdə 15 mindən çox azərbaycanlı gənc SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almışdır. Bütün bunlar ölkə rəhbərinin Azərbaycan gəncliyinə göstərdiyi böyük qayğının təzahürü idi.

Onu da qeyd etməliyik ki, müasir dövrdə, müstəqillik şəraitində Azərbaycanın yüksək ixtisaslı mütəxəssislər sarıdan çətinlik çəkməməsi məhz 1969-1982-ci illərdə görülən səmərəli işlərin nəticəsidir. Etiraf etməliyik ki, 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinin ən məhsuldar, işıqlı səhifələri olmuşdur. Həmin vaxt uzaq gələcəyə yönələn, müstəqilliyə yol açan, mütərəqqi ənənələrə söykənən inkişaf strategiyası müəyyənləşdirilmiş və uğurla həyata keçirilmişdir.

Xalqımızın qüdrətli oğlu Heydər Əliyev hələ 70-80-ci illərdə Azərbaycana rəhbərlik etdiyi vaxtlarda da respublikanın gələcəyi, müstəqilliyi haqqında düşünürdü. Azərbaycanın müstəqil yaşaması üçün, mövcudluğu üçün böyük imkanlara malik olduğuna tam əmin idi. Qeyd etmək lazımdır ki, o, respublikanın sosial-iqtisadi, milli-mədəni inkişafını yüksək səviyyədə təmin etməklə məhz bunun gələcəkdə əsas təməl olacağını nəzərdə tuturdu. Bu fikrini, ideyasını sonralar daha açıq şəkildə ifadə edirdi.

1996-cı ildəki çıxışlarının birində Ulu öndər bildirmişdi: "Mən keçmişdə də Azərbaycanın gələcəyi, müstəqilliyi haqqında düşünərkən və Sovet İttifaqı dağılan zaman bu barədə öz fikrimi qəti bildirərkən Azərbaycanın müstəqil yaşaması üçün tam imkanı olduğu barədə fikirlərimi deyərkən, eyni zamanda zəngin yeraltı sərvətlərimizlə, neft-qaz yataqlarımızla və başqa mədənlərimizlə bərabər, böyük sənaye potensialı ilə bərabər, geniş aqrar sektorda, kənd təsərrüfatı sahəsində, ərzaq məhsulları istehsalı sahəsində də Azərbaycanın böyük potensialını həmişə nəzərə alırdım".

1969-1982-ci illərdə Azərbaycanın inkişaf tarixinin dinamikası belə bir fikri təsdiq edir ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, respublikamızın müstəqil dövlət quruculuğuna aparan yol olmuşdur. Heydər Əliyevin böyük əməyinin nəticəsində həyata keçirilən dəyişikliklərin həcminə, ictimai-iqtisadi islahatların səciyyəsinə görə 70-80-ci illər Azərbaycanın tarixində ən parlaq səhifələr təşkil etmişdir.

Ötən əsrin 70-ci illərindən başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, milli özünüdərk duyğularının, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı milli dövlətçilik ideyasının milli-azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsində mühüm zəmin oldu. 80-ci illərin sonu - 90-cı illərin əvvəlində müstəqillik uğrunda mübarizənin yüksəlişi Heydər Əliyevin rəhbərliyinin birinci mərhələsində əldə edilmiş iqtisadi canlanma və milli mübarizlik ruhunun təşəkkülü nəticəsində mümkün oldu.

Ümummilli lider Heydər Əliyevin 2 fərqli ictimai-siyasi quruluşda Azərbaycana rəhbərlik etməsi tarixdə nadir liderlik nümunələrindən biridir. Hər iki sistemdə görkəmli dövlət və siyasi xadim kimi Azərbaycanın iqtisadiyyatını möhkəmlətmiş, onun şöhrətini, nüfuzunu yüksəklərə qaldırmış, milli mənafeyini, milli mentalitetini, mədəniyyət və mənəviyyatını qorumuş və inkişaf etdirmişdir.

Birinci dövrdə – sovet hakimiyyəti zamanında respublikamızı keçmiş SSRİ-də bütün sahələrdə öncül yerlərdən birinə çıxarmış, sosial-iqtisadi və mədəni sahələrdə həyata keçirilən tədbirlər və uzaqgörən siyasət nəticəsində qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynamışdır.

İstər Sovet İttifaqı, istərsə də müstəqil Azərbaycan Respublikası dövründə Vətəninə, xalqına sədaqətlə, ləyaqətlə xidmət Heydər Əliyevin mübarizə devizi və həyat idealı olmuşdur. O, əmək və ictimai fəaliyyətinin ilk dövrlərindən özünün şəxsi keyfiyyətləri ilə fərqlənmiş, ən yüksək rəhbərlik səviyyəsinə qalxmışdır.

Qətiyyətlə deyə bilərik ki, müstəqilliyə gələn yolumuzu işıqlandıran, hər an gələcəyə baxan, həyatın sərt, çətin sınaqlarına sinə gərən, ən çətin şəraitdən ən düzgün çıxış yolu tapan, daim xalqı ilə yaşayan, qəlbində Vətən sevgisi, milli ruh gəzdirən qüdrətli və bütöv şəxsiyyət Heydər Əliyev olmuşdur. Müasir Azərbaycan dövlətinin inkişafı məhz həmin illərdə yaradılmış bünövrə üzərində qurulub. Bu gün Ümummilli liderin ideya və əməllərinin ən sadiq varisi Prezident İlham Əliyev Onun "Azərbaycan dünyaya günəş kimi doğacaq" amalını uğurla gerçəkləşdirir.

***İradə HÜSEYNOVA,***
***BDU-nun kafedra müdiri, professor***

# Terrorla mübarizədə “türk strategiyası”: konseptual aspekt




I MƏQALƏ

## Günahkar qloballaşmadırmı?

İndi terrorla bağlı çoxlu sayda elmi tədqiqatlarda əsasən “beynəlxalq terror” ifadəsindən istifadə edilir. Bu bəlanın səbəbi kimi başlıca olaraq qloballaşmanı göstərməyə çalışırlar. Görünür, o mənada ki, qloballaşma dünya dövlətləri arasında öncəki tarixi mərhələlərdə olan maneələri (kommunikasiya, ünsiyyət, müxtəlif xarakterli, o cümlədən informasiya sferalarındakı məhdud təmasları) aşdığından terror beynəlxalq mahiyyətli olmuşdur.

Bu tezisdə həqiqət payını danmaq doğru deyildir. Lakin indi dünyanı təhlükələr qarşısında qoymuş müasir terroru əsas olaraq qloballaşma ilə izah etmək böyük yanlışlıqdır. Çünki terrorun mənbəyi ünsiyyət və ya hər hansı münasibətlərin genişlənməsində deyildir. Çox geniş kontekstdə insanların, ayrı-ayrı qrupların və dövlətlərin bu münasibətlərə hansı niyyətlə daxil olmaları ilə bağlıdır.

İnsan təbiəti elədir ki, daim ünsiyyətdə, müxtəlif xarakterli təmaslarda olmalıdır (elmdə buna kommunikativ aspekt deyirlər və ya qarşılıqlı təsirlər sahəsi də demək olar). Tarixin müxtəlif mərhələlərində bu cür münasibətlərin təsir dairəsi darala və ya genişlənə bilər. Bu anlamda münasibətlərin məhdudluğu terrorun yoxluğunu və genişlənməsi onun çoxluğunu müəyyən edə bilməz. Burada ancaq terrorun forması və təzahür üsulları dəyişə bilər. O cümlədən, onun əhatə dairəsi öncəki tarixi mərhələdən fərqlənər.

Deməli, qloballaşmadan terror mövzusunda “günah keçisi” yaratmaq əslində terroru arxa planda hiyləgərcəsinə dəstəkləməkdir. Burada başlıca məqsəd hansısa dövlət və ya qrupun (siyasi qrup, dövlətlər qrupu, dini qruplar və s.) özünün terroruna haqq qazandırmaqdan, düşmən hesab etdiyi tərəfi isə terrorda günahlandırmağın elmi əsasını formalaşdırmaqdan ibarətdir.

## Terror və islamofobiya

Nə qədər təəssüfedici və paradoksal olsa da, indi İslama qarşı müşahidə edilən davranışlar, ilk növbədə müsəlmanlara qarşı terroru “qanuniləşdirməyin”, “onu elmiləşdirməyin”, “bütövlükdə müsəlmanlara qarşı nifrət bəsləməyin təbii olduğu görüntüsü yaratmaq” cəhdlərinin təzahürləridir. Dünyanın müxtəlif regionlarında terrorun antiislam kontekstində təqdimatı və baş verən real terror aktları göstərir ki, bu trek indi kifayət qədər konkret istiqamətlənmiş və ciddi dəstək verilən qlobal proses halına gəlmişdir. Onun başlıca məkanı Qərb ölkələridir. Ancaq islamofobiyaya Uzaq Şərqdə, Latın Amerikasında və Afrikanın müəyyən hissələrində də rast gəlmək olar. Qərbdə ABŞ və əsasən Avropanın inkişaf etmiş ölkələri, Uzaq Şərqdə son illər Hindistan və Myanma, qismən Çin, Latın Amerikasında bir sıra dövlətlər islamofobiyadan əziyyət çəkirlər. Maraqlıdır, niyə məhz İslam və İslamofobiya?

## Terrorun qaynağı və dini müstəsnalıq mərəzi

Terrorun birbaşa qaynağı heç zaman din olmamışdır. Terror sosial hadisədir. O, fərdlərin ədalətsizliyə, haq-hüquq pozuntusuna qeyri-qanuni, çılğın, məhvedici reaksiyasının təzahürüdür. Sosial kommunikasiyanın forması və inkişaf dərəcəsindən asılı olaraq terror fərdi, qrupvari və daha geniş əhatəli ola bilər. Daha çox siyasiləşmiş münasibətlər çərçivəsində terror yeni növlərdə özünü göstərə bilər. Onun bu aspektdə ən çox “uğur” qazandığı sfera dindir. Çünki din hər bir cəmiyyət üçün çox qədimdir və insanların duyğuları ilə birbaşa bağlıdır. Din tarixən zaman-zaman ümumiyyətlə, cəmiyyətlərin formalaşmasında, onun identikləşməsində aparıcı rol oynamışdır. Müasir mərhələdə də dini başqa heç bir mənəviyyat sferası əvəz edə bilməz. Əksinə, müasir siyasi, ideoloji və geosiyasi reallıqlar dini cəmiyyət üçün daha da aktuallaşdırmışdır.

Bundan başqa, təcrübə göstərir ki, insanları ən sürətlə birləşdirən məhz dini çağırışlardır. Dini dəvətlər sübut tələb etmədiyindən insan avtomatik olaraq ona uyur və dərhal özü üçün dost və düşmən obrazı yaradır. Bu proses davamlı olaraq intellektual güc hesabına ideya və ideologiya qəlibinə salındıqda isə çox radikal bir şəxs qarşında durmuş olur.

Təsadüfi deyildir ki, əsasən dini təsir sayəsində insanlar özlərini partladırlar. Hansı dinə (və ya məzhəbə) qulluq etməsindən asılı olmayaraq hər biri üçün bu, “Yaradanın ədalətini bərpa etmək” naminə edilmiş olur. Təsəvvür edək ki, İslamda bir fərqli məzhəb mənsubu digərini partladır və arqument kimi Allahın ədalətini bərpa etməyi istəyini gətirir. Katolik xristian pravoslavı partladır və adını eynilə Yaradan ədaləti qoyur. Qarşı tərəf də terror törətməyi eyni arqumentlə izah etməyə çalışır. Nəticədə sağlam məntiqə ziddi situasiya yaranır – hər partlayış ədalətli imiş, yəni düşmən saydığını məhv edə bilərsən. Bu isə dinin mahiyyətinə zidd olan cəfəngiyatdır! Bir nümunə hər şeyi aydınlaşdırır!

***İmam Əli döyüşlərin birində düşmən əsgərini məğlub edir və xəncərini çıxardır ki, onu öldürsün. Bu zaman məğlub əsgər nalayiq hərəkət edir. Əli xəncəri yerinə qoyub, onu öldürməyəcəyini deyir. Bundan düşmən əsgər çox təəccüblənir. Səbəbini soruşanda imam Əli cavab verir ki, mən səninlə Allah və din naminə savaşdım, lakin sən mənə qarşı nalayiq hərəkət etməklə nəfsimi oyatdın. Mən nəfsimə görə kimsəyə zərər verməərəm!***

Əsl müsəlman islami düşüncə və tərbiyə qətiyyən terror qaynağı ola bilməz. Əksinə, haqq-ədalət uğrunda mübarizənin çarcısıdır! Bəs hansı səbəblərdən İslamofobiya yaradırlar?

İslama qarşı radikal davranışların bir mənbəyi məzhəbi düzgün anlamamaqla bağlıdır. Digər səbəbi isə başqa dinlərin nümayəndələrinin özlərinin müstəsna olmaları haqqında xülyalara uymasıdır. İslam daxilində məzhəbçiliyi hər hansı formada radikal məzmunda təbliğ edirlərsə, bu artıq dini çərçivəni aşmaq deməkdir. Yəni siyasətdir, xüsusi düşünülmüş ideologiyadır. İnsanlar adi dini təsəvvürlərdən onun siyasi maskalanmış formasını ayırd edə bilmirlər. Bunu dünya təcrübəsi göstərir.

Başqa dinlərin nümayəndələrinin özlərini müstəsna kimi təsəvvür etmələri isə, məsələn, “Səlib yürüşləri”ni yaradır. Bu da artıq daha geniş miqyasda toplumsal və camaat düşmənçiliyi deməkdir ki, birbaşa siyasi və geosiyasi məna çalarlarına da malikdir. Buradan beynəlxalq terrorun mahiyyəti haqqında bir mühüm fəlsəfi nəticə çıxara bilərik.

## Beynəlxalq terror

Beynəlxalq terrorun kökü birbaşa audendtik (olduğu kimi) dində deyildir. Əslində onun mahiyyətcə dinə elə bir aidiyyatı yoxdur. Beynəlxalq terror hər hansı dinin pərdəsi altında kimlərəsə qarşı düşmənçiliyin xüsusi formasıdır. Burada “din” anlayışı əsl məqsədi ört-basdır etmək üçün işlədilir. Onun da sübutu kimi konkret dinə aid zahiri faktorlardan – geyim, ibadət forması, məişətdə həyat tərzi və s. istifadə edilir. Deməli, beynəlxalq terror dindən bəhanə kimi istifadə etməklə müəyyən siyasi dairələrin (və ya dini dairələrin) öz maraqlarını təmin etməyin silahlı üsullarından biridir. Bir-birinə mahiyyət və məzmunca çox tərs olsalar da, hər birinin əsas arqumenti Allahın ədaləti uğrunda savaşla məşğul olmasından ibarətdir. Ölən də belə deyir, öldürən də!

Bütün bunlara görə, dünyada terrora məruz qalmış hər bir ölkənin, qövmün, xalqın, millətin öz təcrübəsi vardır. Terror hər qövmə qarşı standart məqsəd və üsullarla aparılmır. Onun konkret tarixi və məqsədləri olur. Bu bağlılıqda dünyada son yüzillər ən çox terrora məruz qalan qövm türk xalqları və onların qurduqları dövlətlərdir. Ümumi halda türk toplumlarına qarşı terroru onların dövlətçiliyinə qarşı xainliklə qurulmuş “böyük sui-qəsd” adlandıra bilərik.

Xüsusilə, Azərbaycanla bağlı məsələnin bu tərəfi fövqəladə əhəmiyyətlidir. Çünki həm Azərbaycana qarşı terrorun mahiyyətini, məzmun, üsul və məqsədlərini fəlsəfi anlamaq imkanı yaranır, həm də dövlətin buna qarşı mübarizəsinin anatomiyasını dərk etmək mümkün olur.

## Azərbaycana qarşı terrorun mənbəyi və hədəfi

Son bir neçə yüz ilin faktları göstərir ki, türk-müsəlman qövmlərinə qarşı terrorda başlıca məqsəd onları insan kimi məhv etməkdən, coğrafi məkanlarından qovmaqdan və həm də dövlətçiliklərini aradan qaldırmaqdan ibarət olmuşdur. Burada təəssüf hissi ilə vurğulamalıyıq ki, bir müddət hansısa səbəblərdən Səfəvi-Osmanlı silahlı qarşıdurmaları da “düşmən dəyirmanına su tökmüşdür”. Çünki nə oldusa, türk-müsəlman dövlətçiliyinə, coğrafi məkanına və demoqrafiyasına oldu. İki güclü türk imperiyası həm öz coğrafiyalarında məzhəb ayrı-seçkiliyinə, həm də dövlətçiliyin zəifləməsinə təkan verdilər.

İşin qurucuları isə kənardan bunları seyr etmədilər – müxtəlif üsullarla münasibətləri barışmaz hala gətirdilər. Nəticədə hər iki türk dövləti itirdi. Bu da düşmənlərə və fürsət yoxsullarına daha geniş dərin qatlarda Azərbaycana qarşı hərəkətə keçməyə əlavə imkan verdi. Niyə məhz Azərbaycanı deyirik? Çünki Osmanlı Səfəvidən xeyli sonra dağıldı və dəyən Azərbaycana dəydi.

Birincisi, Azərbaycanı ikiyə böldülər və sonra da bəzi torpaqlarını ona-buna “hədiyyə” etdilər. İndi adını nə qoysaq da, cəmi 100 ilə 2 milyon kvadratkilometrlik bir coğrafiyada hökm edən azərbaycanlıların XX əsrin ikinci onilliyinin sonunda cəmi 114 min kvadratkilometrlik ərazidə müstəqil dövlətləri vardı. Onu da cəmi bir ilə çökdürdülər.

İkincisi, ən ağrılısı o oldu ki, bu prosesdə Azərbaycan bir neçə yerə coğrafi və demoqrafik olaraq parçalandı. Tarixən böyük bir coğrafiyanın ən potensiallı etnosu olan azərbaycanlılar qısa müddətdə düşmən təbliğatı ilə kiçik regional (bölgəsəl) maraqlarına tapınmış və öz qan qardaşını yad sayan, ona yuxarıdan aşağı baxan və məişətdə ayrı-seçkilik edən tayfaçılığa və regionçuluğa sığındı.

Üçüncüsü, burada əsas məsələ Azərbaycanın bir hissəsinin çoxlu sayda xanlıqlara bölünməsi ilə bağlı deyil. Bu bölünmədə düşmən ssenarisi üzrə xalqın psixologiyasına və şüuruna öz qanından, canından olanlara qarşı qərəzli münasibətin formalaşdırılması əsas bəla idi. Yəni müəyyən dairələrin psixologiya, ideya, ideologiya, şüur səviyyəsində bizi bir-birimizə yad etməsi tariximizdə ən böyük terrordur! Həmin məqam Azərbaycana qarşı terrorun başlıca özəlliyidir.

Bununla da Azərbaycana qarşı terror yeni mərhələsinə qədəm qoydu. Ancaq onun mahiyyəti dəyişmədi: Azərbaycan dövlətçiliyi, demoqrafik özəlliyi, mədəniyyəti, coğrafiyası, mənəvi-əxlaqi dəyərləri tam məhv edilməli idi! Dini məzhəbçilik müsəlmanların bir-birinə qarşı qatı düşmənçiliyi səviyyəsinə qaldırılmalı idi. Paralel olaraq Azərbaycan coğrafiyasında xristian dövləti yaratmalı və xristianlığın yüksək keyfiyyətə malik kimi təbliği beyinlərə yeridilməli idi. Bunun fonunda İslam və ona qulluq edənlər “köhnəlik əlamətləri” adı ilə aşağılanmalı idi.

Deməli, Azərbaycana qarşı terror həm ideya və məqsəd baxımından, həm də həyata keçirilmə formaları aspektində çoxtərəfli prosesdir. Burada fərdlərə qarşı terror aktları ilə bütövlükdə topluma və dinə qarşı hücumlar, dövlətçiliyin və mədəniyyətin aşağılanması və s. kimi hallar sistemli aparılırdı.

**(ardı var)**

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

# Rusiya miqrasiya siyasətini siyasiləşdirir

## *Rəqəmsal nəzarət, sərt qaydalar*

**Rusiya Federasiyası miqrasiya sahəsində ciddi dəyişikliklərə start verib. Bugünlərdə Prezident Vladimir Putinin imzaladığı sərəncama əsasən, 2026-cı ilin iyun ayına qədər miqrantlara dair mərkəzləşdirilmiş rəqəmsal məlumat bazası – “Xarici vətəndaşın rəqəmsal profili” adlı dövlət informasiya sistemi istifadəyə veriləcək. Bu yeni mexanizm vasitəsilə Rusiyada yaşayan əcnəbilərin şəxsiyyəti, hüquqi statusu, yaşayış yeri, əmək fəaliyyəti və digər vacib məlumatlar bir sistemdə toplanacaq. Yeni yanaşma həm hüquqi nəzarəti gücləndirmək, həm də miqrasiya axınını operativ şəkildə tənzimləmək məqsədi daşıyır.**

Paralel olaraq, Rusiya Dövlət Duması miqrantlardan alınan dövlət rüsumlarının artırılmasını və yeni rüsumların tətbiqini nəzərdə tutan qanun layihələrini müzakirəyə çıxarır. Layihələrə əsasən, əcnəbilərin ölkədə rəsmi əmək fəaliyyəti ilə məşğul olması üçün tələb olunan patentlərin verilməsi və yenilənməsi üçün 4200 rubl, sənədlərdə dəyişiklik və dublikatların verilməsi üçün isə 2100 rubl həcmində rüsumun tətbiqi nəzərdə tutulur. Həmçinin qeydiyyat, yaşayış yerinin dəyişdirilməsi, müvəqqəti qalma müddətinin uzadılması və nəqliyyat vasitələrinin qeydiyyatı ilə bağlı xidmətlər üzrə də əlavə ödənişlərin artırılması təklif olunur.



Bu dəyişikliklərin miqrantlar üçün əlavə maliyyə yükü yaradacağı şübhəsizdir. Xüsusilə də Rusiyada işləyən əmək miqrantları, o cümlədən Azərbaycan vətəndaşları üçün sənədləşmə xərcləri artacaq. Yeni rüsumlar qeyri-leqal əmək fəaliyyətini stimullaşdıra və sosial-iqtisadi gərginliyə səbəb ola bilər. Hazırda qanun layihəsi müzakirə mərhələsindədir, yaxın aylarda qəbul olunacağı təqdirdə qüvvəyə minə bilər.

Rusiya hökuməti tibbi tələbləri də sərtləşdirir. Yeni tənzimləməyə əsasən, miqrantlardan ölkəyə daxil olarkən yalnız tibbi sığorta deyil, eyni zamanda HİV, vərəm, sifilis, hepatit B və C, eləcə də narkotik maddələrə testlərin nəticələri tələb olunacaq. Bu, ölkənin səhiyyə sisteminə düşən yükü azaltmaq məqsədi daşıyır. Hazırda miqrantlardan Rusiyaya giriş üçün yalnız tibbi sığorta tələb olunur.

Onu da qeyd edək ki, iyulun 1-dən qüvvəyə minmiş yeni qaydalara əsasən, mobil rabitə operatorları şəxsiyyət vəsiqəsi, IMEI kodu və biometrik məlumatlarını təqdim etməyən əcnəbilərə xidmət göstərmir. Əlavə olaraq, daha əvvəl bağlanmış mobil rabitə müqavilələri yeni tələblərə uyğun olaraq yenidən nəzərdən keçirilir. Beləliklə, mobil rabitə infrastrukturu da miqrasiya siyasətinin vacib alətinə çevrilir. Bu addımlar miqrantların nəzarətdə saxlanılması, izlənməsinə imkan verir.

*

Xatırladaq ki, bundan əvvəl də miqrantlara qarşı sərt qadağalar qoyulmuşdu. Rusiya polisi artıq məhkəmə qərarı olmadan əcnəbilərin deportasiyasına qərar verir. Bu, 2024-cü il avqustun 8-dən qüvvəyə minən 248-FZ saylı Federal Qanunla mümkündür. Yeni qaydalar qeyri-qanuni yaşayan miqrantların fəaliyyətini ciddi şəkildə məhdudlaşdırır. Onlara rəsmi nikah bağlamaq, əmlak və nəqliyyat vasitəsi almaq, biznes qurmaq, avtomobil idarə etmək, bank hesabı açmaq və pul köçürmək qadağan olunur. Hətta ölkədən çıxarılma prosesi başladıqda həmin şəxslərin müəyyən olunmuş ərazini tərk etməsi belə mümkün deyil.

Əmək fəaliyyəti ilə bağlı da ciddi məhdudiyyətlər var. Miqrant yalnız patentdə və ya iş icazəsində göstərilən ərazidə və konkret sahədə işləyə bilər. Əks halda, inzibati məsuliyyət, cərimə və deportasiya ilə üzləşəcək. İşəgötürənlər isə qanunsuz miqrant işlədiklərinə görə 1 milyon rubla qədər cərimələnə və 90 günədək fəaliyyətləri dayandırıla bilər. Əmək haqqının yalnız rubl ilə ödənməsi də yeni qaydalardandır. Əcnəbilərlə əmək müqaviləsi bağlayan işəgötürənlər bu barədə məlumatı üç iş günü ərzində Daxili İşlər Nazirliyinə təqdim etməlidirlər.

Qeyri-qanuni miqrantlara xidmət göstərən şəxslərə də sanksiyalar tətbiq olunacaq. Məsələn, fiziki şəxslər üçün 5 min, vəzifəli şəxslər üçün 50 min, hüquqi şəxslər üçün 500 min rubla qədər cərimə nəzərdə tutulur.

Yada salaq ki, yaşayış icazəsi ilə bağlı da qaydalar sərtləşdirilib. Müvəqqəti yaşamaq üçün əcnəbi Rusiya vətəndaşı ilə ən azı 3 il birgə nikahda olmalı və bu fakt məhkəmə tərəfindən təsdiqlənməlidir. Əgər nikah pozularsa və ya etibarsız sayılarsa, yaşayış icazəsi ləğv edilir. Əgər əcnəbinin Rusiya vətəndaşı olan azyaşlı övladı varsa, bu halda müəyyən şərtlərlə icazə mümkündür. Lakin valideynlik hüququnun itirilməsi və ya atalıq faktının ləğvi bu icazəni də etibarsız edir.

Hazırda Rusiyada 6 milyondan çox miqrant yaşayır və onların böyük əksəriyyəti tikinti, məişət, çatdırılma, kommunal xidmətlər, logistik kimi sektorlarda çalışır. Yeni qanunvericilik bu sahələrdə ciddi təsirlər yaradır. Miqrantların sayının azalması işçi çatışmazlığına, xidmətlərin keyfiyyətinə və qiymətinə təsir göstərir. Xüsusilə çatdırılma xidmətləri, anbarlar və supermarketlər miqrant əməyindən asılı vəziyyətdədir. Bu sahələrdə yerli işçi qüvvəsinin azlığı və yüksək maaş tələbləri səbəbilə əlavə xərclər yaradır. Bütün bu tədbirlər Rusiya hökumətinin miqrasiyanı potensial təhlükə kimi qəbul etdiyini və onunla inzibati və texnoloji yollarla sərt şəkildə mübarizə apardığını göstərir. Qanunsuz miqrantlar potensial cinayətkar kimi qiymətləndirilir və cəmiyyət üçün təhlükə mənbəyi sayılır. Bu isə onların hüquqi və sosial mühitdən təcrid olunmasına gətirib çıxarır.

**Milli Məclisin deputatı Elşad Musayev XQ-yə** bildirdi ki, Rusiyada miqrasiya siyasətində yeni mərhələyə keçid ölkə üçün güclü inzibati nəzarət imkanları yaratsa da, bu yanaşma əmək bazarında ciddi boşluqlar və sosial gərginliklər doğurur: “Hazırda Rusiya iqtisadiyyatında işçi qüvvəsinin çatışmazlığı müşahidə olunur və miqrantların sayının azalması bu problemi daha da dərinləşdirə bilər. Əmək məhsuldarlığının azalması, bəzi sahələrdə xidmətlərin keyfiyyətinin zəifləməsi onun dayanıqlılığı ilə bağlı risklər artır.

Bu vəziyyət, xüsusilə miqrantların üstünlük təşkil etdiyi sahələrdə daha kəskin hiss olunacaq. Məsələn, son illər Rusiyada geniş yayılan çatdırılma xidmətləri bu kateqoriyaya daxildir. İctimaiyyətin onlayn sifarişlərə və evə çatdırılma xidmətlərinə artan tələbatı fonunda bu sektorda miqrant işçilərin azalması ciddi problemlərə yol aça bilər. Anbarlar, supermarketlər və tikinti sektoru da eyni vəziyyətdədir. Bu sahələr uzun illərdir ki, əsasən miqrant işçilərin əməyi ilə fəaliyyət göstərir. Həmçinin mənzil-kommunal təsərrüfatı, küçə təmizliyi və digər ictimai xidmət sahələrində də əsas yük miqrantların üzərindədir. Onların yerli işçilərlə əvəzlənməsi çətinlik yaradır, çünki yerli kadrlar ya bu işlərə maraq göstərmir, ya da daha yüksək əməkhaqqı tələb edirlər. Bu da xidmət xərclərini artırır və nəticə etibarilə, sosial narazılıq doğura bilər.

Rusiya hökumətinin miqrasiya sahəsində tətbiq etdiyi yeni tədbirlər, o cümlədən qeydiyyat qaydalarının sərtləşdirilməsi, biometrik nəzarətin genişləndirilməsi və rəqəmsal profilin tətbiqi Azərbaycandan olan miqrantların həyatına birbaşa təsir edir. Hazırda Rusiya ərazisində yüz minlərlə Azərbaycan vətəndaşı rəsmi və qeyri-rəsmi şəkildə yaşayır və çalışır. Onların hüquqi statusu, iş və yaşayış şəraiti, sosial təminat imkanları bu dəyişikliklər fonunda daha çətin və qeyri-müəyyən hala gəlir. Xüsusilə qeyri-rəsmi şəkildə fəaliyyət göstərən əmək miqrantları üçün deportasiya və hüquqi məsuliyyət riski artır. Bu səbəbdən Azərbaycanın müvafiq dövlət qurumları və diaspor təşkilatları dəyişiklikləri diqqətlə izləməli, Rusiya ərazisində yaşayan və çalışan vətəndaşlara məlumat dəstəyi və hüquqi yardım göstərməlidirlər. Yeni mərhələdə həm hüquqi maarifləndirmə, həm də miqrantların hüquqlarının müdafiəsi sahəsində daha aktiv yanaşma tələb olunur. Əks təqdirdə, bu dəyişikliklər təkcə fərdi səviyyədə deyil, həm də ikitərəfli münasibətlərdə sosial-iqtisadi çətinliklərə səbəb ola bilər”.

Beləliklə, Rusiya miqrant siyasətində yeni dövrə qədəm qoyub. “Rəqəmsal profi”, mobil tətbiq əsasında qeydiyyat və rabitəyə çıxışın məhdudlaşdırılması kimi alətlər ölkənin demoqrafik təhlükəsizlik və əmək bazarını tənzimləmə məqsədlərinə xidmət edir. Lakin bu tədbirlərin insani və hüquqi baxımdan balanslı şəkildə icra olunması da böyük əhəmiyyət daşıyır. Azərbaycanın bu çərçivədə öz vətəndaşlarının hüquqlarını qoruması üçün diplomatik və informasiya dəstəyini artırması vacib olacaq.

**Pünhan ƏFƏNDİYEV**
**XQ**

# Azərbaycanın kredit reytinqi yüksəlir

(əvvəli 1-ci səhifədə)

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin aparıcı məsləhətçisi, iqtisad üzrə fəlsəfə doktoru Lətif Zeynallı bildirib ki, Azərbaycanda iqtisadiyyatın və fiskal siyasətin neft-qaz sektorundan asılılığının azaldılması, pul-kredit siyasətində səmərəliliyin artırılması, maliyyə sektorunun tənzimlənməsi, eləcə də dövlət idarəetməsində şəffaflığın və hesabatlılığın gücləndirilməsi istiqamətində atılan ardıcıl və sistemli addımlar ölkənin iqtisadi idarəetmə keyfiyyətində əhəmiyyətli irəliləyişlərə səbəb olub. Bu layihələrin icrası ilə mövcud makroiqtisadi sabitlik qorunmaqla bərabər, institusional baza daha da möhkəmlənib, dayanıqlı iqtisadi inkişaf modelinə keçid gerçəkləşib.

Pul-kredit siyasətinin optimallaşdırılması inflyasiya gözləntilərinin idarə olunmasına və maliyyə sabitliyinin qorunmasına xidmət edir, fiskal siyasətin neft gəlirlərindən daha az asılı hala gətirilməsi isə büdcə dayanıqlığını artırır. Maliyyə sektorunda qəbul olunan prudensial tənzimləmə (bankın təhlükəsiz fəaliyyətinin təmin edilməsini şərtləndirən normativlərə, qaydalara, tələblərə, eləcə də göstərişlərə əsaslanan davranış, idarəetmə üsulu) və nəzarət mexanizmləri bank sisteminin likvidliyini və riskə davamlılığını yüksəltməklə real sektora dəstəyi gücləndirir. O cümlədən, dövlət idarəçiliyində şəffaflığın və hesabatlılığın artırılması, qərar qəbuletmə prosesində açıq informasiya axınının reallaşdırılması və ictimai resursların səmərəli idarə olunması institusional potensialın güclənməsini gerçəkləşdirir. "Moody's"in reytinq proqnozunda bu amillərin qeyd olunması Azərbaycanın beynəlxalq maliyyə institutları qarşısında artan etibarlılığını və uzunmüddətli iqtisadi perspektivlərinin möhkəmləndiyini nümayiş etdirir.

L.Zeynallının sözlərinə əsasən, logistika, tikinti və turizm sahələrində müşahidə olunan artım ölkənin qeyri-neft sektorunun canlanmasını və diversifikasiyanı stimullaşdırır. Bu sahələr üzrə artım Azərbaycanın tranzit və ticarət mərkəzi kimi mövqeyinin güclənməsi ilə bilavasitə bağlıdır. Xüsusilə Orta Dəhliz üzrə geostrateji mövqeyin möhkəmləndirilməsi Azərbaycanı Şərq və Qərb arasında əsas nəqliyyat və logistika qovşaqlarından birinə çevirərək regional və qlobal inteqrasiyanı sürətləndirir.




Yuxarıda göstərilənlərlə yanaşı, respublikanın bərpa olunan enerji mənbələri sahəsində, xüsusilə, günəş və külək enerjisi potensialının reallaşdırılması istiqamətində atdığı addımlar "yaşıl" iqtisadiyyatın formalaşmasına və dayanıqlı inkişaf hədəflərinə çatmasına xidmət edir. Bu çərçivədə həyata keçirilən "yaşıl" enerji təşəbbüsləri təkcə ekoloji deyil, eyni zamanda, iqtisadi baxımdan da strateji önəm daşıyır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və bu ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası da qeyri-neft sektorunun inkişafında mühüm rola malikdir. Bu bölgələrdə aparılan infrastruktur layihələri, kənd təsərrüfatı və sənaye potensialının yenidən qurulması, eləcə də "yaşıl" enerji zonası kimi formalaşdırılması Azərbaycanın uzunmüddətli inkişaf gündəliyində əsas prioritetlərdən biridir. Sözügedən regionların iqtisadi fəallığa cəlb olunması yalnız regional deyil, bütövlükdə milli iqtisadi artıma da müsbət təsir göstərir.

Xatırladaq ki, neft-qaz gəlirlərindən səmərəli istifadənin davam etdirilməsi, Dövlət Neft Fondunun maliyyə ehtiyatlarının artırılması və dövlət büdcəsinin bu fonddan olan transferlərə asılılığının azaldılması Azərbaycanın fiskal dayanıqlığını əhəmiyyətli dərəcədə gücləndirir. Bu yanaşma həm maliyyə intizamının qorunmasına, həm də gələcək nəsillər üçün strateji ehtiyatların formalaşdırılmasına imkan yaradır.

Artan ehtiyatlar və büdcə strukturunda daha çox qeyri-neft gəlirləri payının çoxalması ölkənin xarici şoklara qarşı davamlılığını gücləndirməklə yanaşı, fiskal siyasətdə çevikliyin və uzunmüddətli makroiqtisadi sabitliyin təmin olunmasına xidmət edir. Bu zaman Dövlət Neft Fondunun aktivlərinin effektiv idarə olunması və şəffaflıq prinsiplərinə əsaslanan fiskal çərçivə iqtisadi təhlükəsizlik baxımından mühüm alət kimi çıxış edir.

Neft gəlirlərindən asılılığın azaldılması və bu vəsaitlərin məqsədyönlü istifadəsi nəticəsində yaranan struktur sabitlik, investisiya mühitinin yaxşılaşdırılması və dövlət maliyyəsinin dayanıqlığının gerçəkləşdirilməsi istiqamətində mühüm zəmin yaradır. Bu da beynəlxalq aləmdə Azərbaycanın uzunmüddətli iqtisadi strategiyasının mühüm tərkib hissəsi kimi yüksək dəyərləndirilir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin əməkdaşı bildirir ki, ümumilikdə, Azərbaycan iqtisadiyyatının dayanıqlı və inklüziv inkişafı istiqamətində atılan kompleks islahatlar və strateji layihələr ölkənin beynəlxalq maliyyə bazarlarında nüfuzunun gücləndirməsinə, makroiqtisadi sabitliyin təmin olunmasına və uzunmüddətli perspektivlərin möhkəmlənməsinə xidmət etməklə bərabər, onun iqtisadi potensialının və idarəetmə keyfiyyətinin beynəlxalq səviyyədə tanınmasının əyani göstəricisidir.

Sonda Maliyyə Nazirliyinin bir məlumatını da xatırlatmaq istərdik. Belə ki, "Moody's Ratings" beynəlxalq reytinq agentliyi bugünlərdə Azərbaycanın suveren kredit reytinqini "Ba1" səviyyəsindən "Baa3" səviyyəsinə (investisiya səviyyəsi) yüksəldərək reytinq üzrə proqnozu "müsbət" saxlayıb. Aparıcı 3 beynəlxalq kredit reytinq agentliyindən biri olan "Moody's"in yaydığı məlumatda qeyd olunur ki, yeni reytinq üzrə müsbət proqnoz ölkədə davam etdirilən islahatların fonunda iqtisadiyyatın və fiskal sahənin neft-qaz sektorundan asılılıq gözləntilərinin azalmasını əks etdirir. Həmçinin pul-kredit siyasətinin təkmilləşdirilməsi, maliyyə sektorunda tənzimləmələr, dövlət maliyyə idarəçiliyi və ictimai inzibati proseslərdə şəffaflığın artırılması istiqamətində aparılan islahatlar institusional idarəetmənin daha da yaxşılaşacağına əsas verir.

Beynəlxalq reytinq agentliyi qeyd edir ki, Azərbaycanın güclü fiskal mövqeyi, möhkəm makroiqtisadi sabitliyin qlobal şoklar və neft qiymətlərinin dəyişkənlik dövründə davamlı olaraq qorunması fiskal dayanıqlığı getdikcə möhkəmləndirir. Müsbət proqnoz, eləcə də hesabatlılıq sahəsində davam edən potensial inkişafı da əhatə edir. Xarici investisiyaların cəlb edilməsi istiqamətində səylər genişlənir, hüquqi və tənzimləyici çərçivələr üzrə islahatlar davam edir ki, bu da şəffaflıq və hesabatlılığın gücləndirilməsini şərtləndirir.

"Moody's"in qənaətinə görə, Azərbaycanın bölgədə nəqliyyat və "yaşıl" enerji mərkəzi kimi mövqeyini möhkəmləndirmək yönündə davamlı səyləri nəqliyyat-logistika, tikinti və turizm kimi qeyri-neft sektorlarında davamlı və əhəmiyyətli artımlara imkan verir. Respublikamızın əlverişli coğrafi mövqeyə malik olması və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu – Orta Dəhlizdə artan fəaliyyəti isə logistika sektorunun inkişafını və iqtisadiyyatın digər sahələrinə müsbət təsir göstərərək böyük investisiyaların cəlbini sürətləndirir.

# Milli superkompüter tezliklə hazır olacaq

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Bakıda keçirilən "Sənaye 4.0 Forumu – Gələcəyin sənayesi: Texnologiya və insan gücü" adlı konfransda bildirib ki, Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafına töhfə verəcək növbəti mühüm təşəbbüslərdən biri olan superkompüter infrastrukturunun yaradılması yekunlaşmaq üzrədir. Onun sözlərinə görə, superkompüter infrastrukturu iqtisadi proqnozların daha sürətli və dəqiq hazırlanmasını, qərar qəbuletmə proseslərində simulyasiya imkanlarının genişlənməsini, eləcə də əsaslandırılmış arqumentlərə əsaslanan analitik yanaşmaların tətbiqini gerçəkləşdirəcək.**



M. Cabbarov əlavə edib ki, bu kimi təşəbbüslər daha sistemli və davamlı şəkildə dəyərləndirmək məqsədilə Azərbaycanda Rəqəmsal İqtisadiyyat Strategiyası hazırlanıb. Strategiyada qlobal texnoloji trendləri və ölkənin inkişaf dinamikasını nəzərə alaraq, biznes, dövlət və cəmiyyət arasında sinerji yaratmaqla iqtisadiyyatın texnoloji transformasiyasını hədəfləmək qarşıya önəmli vəzifə kimi qoyulub.

Müasir dövrdə rəqəmsal iqtisadiyyat yalnız texnoloji yeniliklərlə deyil, eyni zamanda cəmiyyətin bütün sahələrinin – dövlət idarəçiliyindən sənayeyə, kənd təsərrüfatından təhsilə qədər – köklü transformasiyasını şərtləndirir. Azərbaycan da bu qlobal tendensiyadan kənarda qalmayaraq, rəqəmsal iqtisadiyyatın inkişafını milli strateji prioritetə çevirib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illər ərzində informasiya – kommunikasiya texnologiyalarına (İKT) və rəqəmsallaşmaya yönələn genişmiqyaslı islahatlar həyata keçirilib. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində rəqəmsal iqtisadiyyatın inkişafı əsas hədəflərdən biri kimi müəyyən edilib. Bununla yanaşı, 2022-ci ildə təsdiqlənən "Rəqəmsal transformasiya konsepsiyası" bu sahədə fəaliyyətlərin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsini şərtləndirib.

Azərbaycan artıq "Elektron hökumət" mərhələsini geridə qoyaraq "Rəqəmsal dövlət" modelinə keçid edir. "myGov" platforması və "ASAN xidmət" modeli vətəndaşlara və sahibkarlara sürətli, şəffaf və səmərəli xidmətlərin göstərilməsini gerçəkləşdirir. Rəqəmsal sənədlərin tətbiqi, elektron imza sisteminin genişləndirilməsi və bulud texnologiyalarının dövlət orqanlarında istifadəsi bu keçidin mühüm tərkib hissələri kimi diqqət çəkir.

Rəqəmsal iqtisadiyyatın əsas drayverlərindən biri olan startap ekosistemi Azərbaycanda son illərdə sürətlə inkişaf edir. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) tərəfindən müxtəlif texnoloji



təşəbbüslər, akselerasiya proqramları və startaplara maliyyə dəstəkləri həyata keçirilir. Ekspertlər tərəfindən "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, "Technest" təqaüd proqramı və "SİLICON VALLEY" ilə əməkdaşlıq layihələri bu istiqamətdə atılmış önəmli addımlar kimi yüksək dəyərləndirilir.

Pandemiya dövrü bir daha sübut etdi ki, rəqəmsal ticarət və onlayn platformalar iqtisadi dayanıqlığın təminatçısıdır. Azərbaycanda e-ticarətin həcmi ildən-ilə artır, "Azexport.az", "Digital Trade Hub" və digər elektron platformalar vasitəsilə yerli sahibkarların məhsulları qlobal bazarlara çıxarılır. Bununla da ölkənin qeyri – neft sektorunun ixrac potensialı getdikcə genişlənir.

Rəqəmsal iqtisadiyyatın dayanıqlı inkişafı üçün insan kapitalı həlledici əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan hökuməti İKT üzrə ixtisaslı kadrların hazırlanmasına xüsusi önəm verir. "Technest" proqramı çərçivəsində gənclərə proqramlaşdırma, süni intellekt, kibertəhlükəsizlik və digər sahələrdə biliklər aşılanır. ADA Universiteti, Bakı Ali Neft Məktəbi və digər ali təhsil müəssisələrində rəqəmsal texnologiyalar üzrə mütəxəssis hazırlığı istiqamətində tədris proqramları yenilənir.

Azərbaycan süni intellekt sahəsində də öz potensialının inkişaf etdirmək istiqamətində ciddi addımlar atır. 2024-cü ildə təqdim edilmiş "Süni intellekt strategiyası" bu sahənin tənzimlənməsini, tətbiq imkanlarının və etik standartlarını müəyyənləşdirir. Eyni zamanda, rəqəmsallaşma fonunda kibertəhlükəsizliyin təmin olunması prioritet məsələ kimi gündəmdə saxlanılır. Xüsusilə dövlət və özəl sektorda təhlükəsizlik standartlarının tətbiqi genişlənir.

Azərbaycanın bölgələrində rəqəmsal transformasiya prosesinin sürətləndirilməsi regional bərabərsizliyin aradan qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir. "Rəqəmsal kənd", "ağıllı şəhər" və "ağıllı kənd" layihələri bu baxımdan önəmlidir. Zəngilanın Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi innovativ texnologiyaların tətbiqinə nümunəvi misaldır.

Azərbaycan beynəlxalq texnoloji şirkətlər və təşkilatlarla əməkdaşlığı gücləndirərək rəqəmsal iqtisadiyyatın inkişafına töhfə verir. Dünya Bankı, BMT-nin Rəqəmsal Əməkdaşlıq Forumu, Avropa İttifaqı və digər tərəfdaşlar bu istiqamətdə müxtəlif layihələrin reallaşmasında iştirak edirlər. Ölkənin "Regional rəqəmsal mərkəz" ideyası çərçivəsində inkişafına bu gün mühüm önəm verilir.

Azərbaycanın rəqəmsal iqtisadiyyat strategiyası yalnız texnoloji yenilənmələri deyil, bütövlükdə, cəmiyyətin rifahını və iqtisadi dayanıqlığını hədəfləyir. Yeni çağırışlara cavab verən çevik iqtisadi model qurulması, texnologiya yönümlü startapların təşviqi, rəqəmsal savadlılığın artırılması və innovasiya mədəniyyətinin formalaşdırılması bu prosesin əsas dayaqlarıdır. Əminliklə demək olar ki, Azərbaycan rəqəmsal gələcəyə doğru inamla irəliləyir.

# 6 aylıq ÜDM – 62 milyard 78 milyon manat!

**Dövlət Statistika Komitəsindən bildirilib ki, cari ilin yanvar –iyun aylarında ölkədə 62 milyard 78 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz çox ümumi daxili məhsul istehsal olunub.**




Məlumata görə, iqtisadiyyatın neft – qaz sektorunda əlavə dəyər 3,1 faiz azalıb, qeyri – neft – qaz sektorunda isə 3,9 faiz çoxalıb.

ÜDM istehsalının 34,9 faizi sənaye, 10,2 faizi ticarət, 7 faizi nəqliyyat, 6,3 faizi tikinti, 5,9 faizi kənd təsərrüfatı, 2,8 faizi turistlərin yerləşdirilməsi, 1,8 faizi informasiya və rabitə sahələrinin, 21,1 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,0 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 6066,1 manata çatıb.

Qeyd edək ki, hesabat dövründə ÜDM-in artımını qeyri –neft – qaz sektorunun inkişafı şərtləndirib. Başqa sözlə, respublikada artımın əsas mənbəyini qeyri –neft – qaz sektoru təşkil edib. Şübhəsiz ki, bu məsələdə xarici investisiyaların, qabaqcıl texnologiyaların və idarəetmə təcrübəsinin də rolu mühüm önəm daşıyıb. Ölkədə bərqərar olan siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici ölkələrdən birinə çevirib.

# Ölkəmiz ABŞ iqtisadiyyatına da yatırım qoyur

## *Birbaşa investisiyalar bu il 2 dəfə artıb*



**Mərkəzi Bankın məlumatına görə, cari ilin ilk rübündə Azərbaycan Amerika Birləşmiş Ştatları (ABŞ) iqtisadiyyatına 14,7 milyon dollar (ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çox) birbaşa investisiya qoyub. Hesabat dövründə respublikamızın ABŞ iqtisadiyyatına investisiya qoyuluşunun ümumi investisiyalarda payı 2,2 faizdən 4,7 faizə çatıb. Rüb ərzində ABŞ isə Azərbaycan iqtisadiyyatına 42,3 milyon dollar (1 il əvvələ nisbətən 31,1 faiz çox) birbaşa investisiya yatırıb.**

Qeyd edək ki, hesabat dövründə ABŞ-ın Azərbaycanın iqtisadiyyatına investisiya qoyuluşunun ümumi investisiyalarda payı 2,1 faizdən 2,8 faizə çatıb.

Xatırladaq ki, yanvar – mart aylarında ölkəmizdən xaricə yönəldilmiş birbaşa investisiyalar 315,1 milyon ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz az), ölkəyə xaricdən cəlb edilmiş birbaşa investisiyalar isə 1 milyard 519 milyon ABŞ dolları (0,7 faiz çox) təşkil edib.

*Səhifəni hazırladılar:*
***Vaqif VAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Milli məsləkə həyat verən "Həyat"

**XX əsrin əvvəllərində "Şərqi-Rus"dan sonra işıq üzü görmüş 2-ci anadilli qəzetimiz "Həyat" Azərbaycan mətbuatının tarixinə ilk milli burjua nəşri kimi daxil olub. Bu qəzet 1905-ci il iyunun 7-də I Rus inqilabının yüksəlişi zəminində ictimai-siyasi hadisələrin kəskinləşdiyi bir dövrdə nəşrə başlayıb.**

O zaman çarizmin zəifləməsindən öz məqsədləri üçün istifadə edən Daşnaksütyun Partiyasının üzvləri Azərbaycan xalqına qarşı terror və təxribatlar həyata keçirirmişdilər. Ölkəmizdə özlərinə isti yuva tapmış və hakim dairələrin himayəsi ilə xalqımıza qarşı düşmənçiliyi gücləndirmiş erməni millətçiləri Bakıda, Naxçıvanda, Qarabağda və Zaqafqaziyanın azərbaycanlılar yaşayan hissələrində qətliamlar törətmişdilər. Belə ağır vəziyyətdə xalqın üzləşdiyi irili-xırdalı problemlərin müzakirə edilməsi və nicat yolları tapılması üçün informasiya və təbliğata ciddi ehtiyac var idi. Zamanın tələblərinə uyğun olaraq gündəlik qəzet nəşr etmək məsələsi Azərbaycan ziyalılarını, eləcə də milli mövqelərini müdafiə etməyə məhkum burjuaziyanı ciddi düşündürürdü. Məhz onlar "Həyat" qəzetini bu zərurətdən nəşr etdilər.

Qəzetdə dərc edilən məqalələrin məzmununu, əsas ideya istiqamətlərini dövrün görkəmli ziyalıları, "Həyat"ın ayrı-ayrı dövrlərdə redaktoru işləmiş Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu müəyyənləşdirirdilər. "Həyat"a qarşı erməni senzorlar təzyiq və təhdidlər göstərir, qəzetin nəşrinin dayandırılması üçün hər vasitələrdən istifadə edir, böhtan kampaniyası həyata keçirirdilər.

"Həyat" ilk sayında dərc etdiyi "Qəzetimizin məsləki" adlı baş məqaləsində mətbuatın xalqın həyatında, cəmiyyətin inkişafındakı müstəsna rolundan bəhs edərək yazırdı: "Qərb ölkələrində, hətta əhalisi 4-5 milyon nəfər olan ölkələrdə 300-400 qəzet buraxılır. Mədəni millətlər qəzeti "bəşəri ehtiyacların ən zərurilərindən" sayırlar. Həmin ölkələrdə insanlar qəzet oxumağa öyrəniblər, çaysız-çörəksiz dolana bilmədikləri kimi, qəzetsiz də keçinə bilmirlər... Mətbuat insan üçün munis bir yoldaş, xeyirxah bir müəllim, nafiz bir məktəbdir, həm də zillətdə qalanlara doğru yolu, hidayət yolunu göstərir.

Qəzet Qafqazda, Volqaboyunda, Orta Asiyada, İranda və Türkiyə kimi geniş coğrafi ərazidə yayılaraq türk və müsəlman xalqlarının milli oyanışına xidmət edirdi. Azərbaycan ziyalılarının ədəbi-ictimai və siyasi fikir tarixində müstəsna xidmətləri olan görkəmli şəxsiyyətlərin əsl mübarizə meydanına çevrilən "Həyat" qəzetində Ə.Hüseynzadə, Ə.Ağaoğlu, H. Zərdabi, A.Səhhət, M.Hadi, H.S.Ayvazov, Ü.Hacıbəyli, Ə.Haqverdiyev, M.Ə.Sabir, N.Nərimanov, M.Hacınski, M.Ə. Şeyxzadə, S.M.Qənizadə, Axund Əbuturab kimi ziyalılar müxtəlif mövzuda qələmə aldıqları maraqlı yazıları ilə çıxış edirdilər.

"Həyat" qəzeti Azərbaycan publisistikasında yeni bir mərhələ açdı. Bu qəzetdə dərc edilən publisistik yazılarda əsasən milli birlik, qadın azadlığı, elm, təhsil, maarif, dil və mədəni irs kimi məsələlər əksini tapırdı. Məqalələrin ideya xəttini əsasən Şərq və Qərb münasibətləri, Türkçülük və İslamçılıq, müasir təhsil sistemi ilə ənənəvi dini məktəblər arasındakı fərqlər təşkil edirdi.

"Həyat" qəzeti öz səhifələrində məram və məqsədini açıqlayır, ümmət və millət məsələlərinə, ana dilinin inkişafına, maarifçiliyə xüsusi diqqət yetirəcəyini bəyan edirdi. Qəzetdə Əli bəy Hüseynzadənin 50-yə qədər tarixi-publisistik, siyasi-fəlsəfi məzmunlu məqaləsi dərc edilmişdi. Milli ideologiyanın zəruriliyini irəli sürən bu mütəfəkkir ziyalı "Həyat" qəzeti və "Füyuzat" dərgisi ilə Azərbaycanda milli məfkurənin, türkçülük hərəkatının öncülü olmuş, XX əsr ictimai-siyasi və ədəbi-fəlsəfi fikir tarixinin əsas simalarından birinə çevrilmişdi.

Azərbaycan xalqının tarixində mühüm rol oynayan Əhməd bəy Ağaoğlu da "Həyat" qəzetində öz siyasi-publisistik yazıları ilə çıxış edirdi. Böyük ideallar sahibi "Həyat"ın ilk sayında dərc etdirdiyi proqram xarakterli məqaləsində kimliyini dərk edən və milli sərvətlərinə sahib olan Azərbaycan xalqının islami dəyərlərə sadiq qalacağını ön plana çəkərək yazırdı: "Əgər biz irəliləmək və həyati birliyə malik bir millət olmaq istəyiriksə, biz hər şeydən öncə müsəlman olaraq qalmalıyıq. Bizim irəliləmək istəyimiz, həyat şərtlərinin yaxşılaşdırılması istiqamətində olan səylərimiz islam qanunlarına vabəstə olaraq əldə edilə bilər".

XIX əsrin sonları və XX əsrin əvvəllərində türk xalqlarının millət kimi formalaşması, milli təfəkkür sahiblərinə çevrilməsində müstəsna rol oynayan Ə.Ağaoğlu qəzetin ilk saylarından etibarən Rusiyada, Qafqazda, xüsusilə Bakıda baş verən ictimai-siyasi hadisələri öz publisistik yazılarında geniş şərh edir və qiymətləndirirdi. "Həyat"ın 1905-ci il tarixli 7 və 12 iyun saylarında "Müxtəsir övzi Rusiya" məqaləsində o,rus-yapon müharibəsində Rusiyanın məğlub duruma düşdüyünü, üzləşdiyi çətinlikdən inqilabi-demokratik yolla çıxmağın mümkünlüyündən söhbət açır və çar Rusiyasının yeritdiyi mənfur siyasətin iflasa uğradığını göstərirdi.

Ə.Ağaoğlu xalqın hakimiyyətdən narazılığının əsas səbəblərindən birini onların dini inanclarının həyata keçirilməsinə maneçilikdə görürdü. Çarizmin müsəlman xalqlarının inanclarına qarşı qeyri- etik münasibətlərini, biganəliyini, sərbəstlik verilməməsini nəzərdə tutan Ə. Ağaoğlu yazırdı: "Müsəlmanlar qeyriləri kimi hər yerdə və hər cür məscid, minbər və ibadətgahlar bina edə bilirmi? Müsəlmanlar öz xahiş və qaidələrinə müvafiq məktəbi-ruhaniyyə güşadına azaddırlarmı? Kitabi diniyyə çap və intişar etməkdə sərbəstdirlərmi? Gələcəkdə genə müsəlmanlıq cəhətinə müsəlmanları padşahlıq qulluqlarından, bəzi mənsəblərindən məhrum edəcəklərmi? Genə bəzi məkatibi aliyyənin qapıları onların üzlərinə bağlı qalacaqmı?".

Göründüyü kimi, Ə.Ağaoğlu hökumətin fərmanlarında xalqın, müxtəlif peşə sahiblərinin mənafeyinə xidmət edən azadlıq və sərbəstliklərin verilməsini, onların maraqlarının təmin edilməsi məsələsini gündəmə gətirirdi.

"Həyat"ın ilk sayı çapdan çıxıb oxucuların ixtiyarına verildikdən sonra onun dili məsələsi gündəmə gəldi və polemikalara yol açıldı. Əli bəy Hüseynzadə ümumtürk ədəbi dil konsepsiyasına əsaslandığı üçün qəzetdə





dərc edilən yazılarda da bu üslubdan istifadə edir, yəni ziyalıların, cəmiyyətin elitar təbəqəsinin anlayacağı bir dildə yazmağı qarşısına məqsəd qoymuşdu. Azərbaycanda ümumtürk ədəbi dil konsepsiyasını irəli sürən Əli bəy Hüseynzadə onu praktiki şəkildə öz əsərlərində, publisistik məqalələrində işlədirdi.

Əslində, ümumtürk dil birliyi ideyasının müəllifi "Tərcüman"ın baş redaktoru İsmayıl bəy Qaspıralı idi. O, "Həyat" qəzetini "Tərcüman"ın varisi, layiqli davamçısı hesab edirdi. Həm İ.Qaspıralı, həm də Əli bəy Hüseynzadə bütün türklərin eyni millət olduğunu bildirir və onların vahid dilə, yazı mədəniyyətinə malik olmaları tendensiyasını həyata keçirməyə çalışırdılar. Hər iki mütəfəkkir türk xalqlarının milli-mənəvi birliyinə nail olmaq məqsədilə ümumtürk ədəbi dilinin qaydalarının işlənib hazırlanmasını, orta məktəblərdə və mətbuatda işlək bir dilə çevrilməsini təxirəsalınmaz vəzifə hesab edirdi.

Ortaq türk dili ideyası ilə bağlı polemika XX əsrin əvvəllərində daha da geniş xarakter aldı. Azərbaycan romantik ədəbiyyatının qüdrətli nümayəndəsi Məhəmməd Hadi, Krım türklərinin ziyalıları H.S.Ayvazov, S.İbrahimov da öz publisistik məqalələrində İsmayıl bəy Qaspıralı və Əli bəy Hüseynzadənin ortaq türk dili ideyasını dəstəkləyirdilər.

Böyük satirik şairimiz M.Ə.Sabirin məşhur "Müsəlman və erməni vətəndaşlarımıza" şeiri və "Bir məclisdə on iki kişinin söhbəti" əsərləri də "Həyat" qəzetinin səhifələrində dərc edilmişdir. Məhəmməd Hadinin ilk mətbu əsərləri də "Həyat"da dərc olunmuşdu. Şairin "Bəyani-həqiqət" adlı məqaləsi qəzetin 1905-ci il 24 iyul tarixli sayında çap edilmişdi. Hadinin "Həyat"ın səhifələrində ardıcıl dərc etdirdiyi məqalələrdə elm, maarif və mədəniyyətin təbliği, inkişafı məsələlərinə xüsusi diqqət yetirilirdi.

Azərbaycan mədəniyyətinə böyük töhfələr verən dahi Üzeyir Hacıbəyli də öz publisistik yazıları ilə "Həyat" qəzetində çıxış etməyə başlamışdı. Üzeyir bəyin "Həyat"ın 17 sentyabr 1905-ci il tarixli sayında dərc olunan "Bir xanım əfəndinin bizlərə hüsni-təvəccahi" adlı məqaləsi əvvəlcə Peterburqda çıxan "Novoya vremya", sonra isə Bakıdakı rusca nəşr olunan "Baku" qəzetində Maqda Neyman adlı jurnalistin erməni-müsəlman davasına həsr etdiyi yazıya cavab şəklində qələmə alınmışdır. Gənc Üzeyir bəy M.Neyman kimi ermənilərin mövqeyindən çıxış edən jurnalistlərə kəskin, sərt və tutarlı dəlillərlə əsaslandırılmış cavablar vermiş, bəzi millətlərin "türk-islam" birliyindən qorxaraq Azərbaycan türklərinə qarşı qarayaxma kampaniyası apardığını yazıb göstərmişdi.

Milli teatr və mətbuatımızın yaradıcısı, böyük mütəfəkkir Həsən bəy Zərdabinin elm, maarif və mədəniyyətə, cəmiyyətin müxtəlif sahələrinə aid çoxlu sayda publisistik məqaləsi "Həyat"da dərc edilmişdir. "Əkinçi" ideyalarının "Həyat"da davam etdirilməsini zəruri sayan müəllif qəzetin 8 dekabr 1905-ci il tarixli sayında çap olunan "Cəmiyyəti-Xeyriyyə binası" adlı publisist məqaləsində yazırdı: "Bizim Bakı şəhərində hər ildə mərsiyəxanalar üçün neçə min manat pul yığılır və ya fağır-füqəra adına ondan da artıq xərc olur. Amma onlardan millətə heç bir xeyir yoxdur. Hətta zərəri də var. Çünki bu səbəblə ilbəil mərsiyəxanaların və qeyri-dilənçilərin qədəri də artır".

Publisist qeyd edirdi ki, mərsiyəxanalara yığılan həmin vəsaitə məktəblər açılsa, peşə-sənət ocaqları yaradılsa, xeyriyyə cəmiyyətləri düzəldilsə, xalqa çox faydası dəyə bilər. H.Zərdabi məqalədə "zamanı keçmiş, dövrlə uyğunlaşmayan qədim adətləri dəyişdirib, zəmanəyə müvafiq iş görmək" məsələsini aktuallaşdıraraq xalqı maarifləndirməyə səsləyirdi.

"Əkinçi" qəzetinin nəşri tarixini yada salan Həsən bəy "Həyat"ın 28 dekabr 1905-ci il və 3 yanvar 1906-cı il tarixli sayında "Rusiyada əvvəlinci türk qəzetəsi" sərlövhəli məqaləsini çap etdirmişdi. Mətbuatın xalqın maariflənməsində, dirçəlişində mühüm faktorlardan biri olduğunu nəzərə çarpdıran Zərdabi yazırdı: "Hər kəsi çağırıram gəlmir, göstərirəm görmür, deyirəm, qanmır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər böyük daş qoysan, bir neçə ildən sonra o su tökülməkdən o daş mürur ilə əriyib deşilir, habelə söz də beyinlərə əsər edər, "sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən yolun doğru olması aşkar olar".

"Həyat"dakı tənqidi xarakterli kəskin yazılarında Zərdabi dövlət məmurlarını rüşvət almaqda ittiham edir, pul gücünə sadə insanların haqqının pozulmasına qarşı çıxır, haqqı tapdayanları, ədalətsizliyi müdafiə edənləri qınayır, xalqı cəmiyyətdəki bu eybəcərliklərə qarşı mübarizəyə səsləyirdi.

Həsən bəy Zərdabi "Həyat"ın 4 və 11 yanvar 1906-cı il tarixli saylarında dərc etdirdiyi "Zindəganlıq davası və yaxud dirilik mübarizəsi" və "İttihadi-lisan" adlı publisistik məqalələrində həqiqi vətənpərvərliyi, əsl insanlığı xalqı qəflət yuxusundan oyandırmaqda görərək yazırdı: "Oxuyun, elm təhsil edin... Elm təhsil etməyə başlayan tayfa qaranlıq otağın qapısını açıb çölə çıxan kimidir ki, bu zaman günün işığı onun gözlərini nurlandırmaqdan başqa, otağın da içinə daxil olub, orada olan şeyləri artıq işıqlandırıb bir qeyri-surətə salır".

Görkəmli ictimai-siyasi xadim, yazıçı-dramaturq, publisist Nəriman Nərimanov da "Həyat"ın səhifələrində müxtəlif səpkili yazılarını dərc etdirmişdi. Bu publisist yazılarda əsasən 1905-ci il inqilabı, onun Azərbaycan ictimai-siyasi mühitinə təsiri və xalqın milli oyanışı proseslərinə geniş yer verilmişdi. N.Nərimanov publisistik əsərlərində öz fikir və düşüncələrini daha asan yolla xalqa çatdırmaq məqsədilə müxtəlif ədəbi-bədii vasitələrdən sənətkarlıqla yararlanaraq folklordan, klassik Azərbaycan ədəbiyyatının örnəklərindən və Qərb mütəfəkkirlərinin əsərlərindən nümunələrə istinad etməklə felyetonlarını, məqalələrini maraqlı və oxunaqlı bir tərzdə xalqa təqdim edirdi.

Doktor Nərimanov "Həyat"ın 30 iyul 1906-cı il tarixli sayında yazırdı: "Vətən insanın evidir. Necə ki, evində hər bir şeyə ixtiyarın var, necə ki, evin bədbəxtliyi səni qəm dünyasına mübtəla edir, xoşbəxtliyi şad edir, elə də özün üçün Vətən bildiyin məmləkətdə ixtiyarın gərəkdir ola, onun bədbəxtliyi gərək ürəyini dağlaya, xoşbəxtliyi səni şad-xürrəm edə".

"Həyat"da "Dərviş" imzası ilə felyetonlar çap etdirən Nəcəf bəy Vəzirov da "Balaca mütəfərriqə" başlığı altında xeyli felyeton dərc etdirmişdi. N.Vəzirovun qəzetdə çap etdirdiyi ədəbi-bədii, publisistik əsərlərində cəhalətin və islam fanatizminin, mövhumatın törətdiyi acınacaqlı məsələlər tənqid hədəfinə çevrilirdi. Yazıçının "Həyat"ın 21 iyun 1905-ci il tarixli sayında çap etdirdiyi felyetonda deyilir: "Ömrümdə hər nə şikayətim varsa, hamısı o məni təngənəfəs edən cəhalətdir. Xudaya, nə vaxt o zülmətdən xilas olacağıq?".

Azərbaycan milli mətbuatına yeni fəlsəfii düşüncə və üslub, türkçülük ideologiyasını gətirən "Həyat" qəzeti böyük ədəbi şəxsiyyətlərin fikir salnaməsini özündə təcəssüm etdirən dəyərli mətbuat orqanı kimi bu gün də öz tarixi əhəmiyyətini qoruyub saxlamaqdadır.

# "Füyuzat" jurnalı milli məfkurə axtarışında

**"Həyat" qəzeti bağlanandan sonra onun məslək yolunu Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu "Füyuzat" jurnalında davam etdirmişlər. Jurnalın ilk sayı 1906-cı ilin noyabr ayında Bakıda məşhur maarifçi, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə "Kaspi" mətbəəsində işıq üzü görmüşdür. Əli bəy Hüseynzadənin redaktorluğu ilə 1906-1907-ci illər ərzində "Füyuzat"ın 32 nömrəsi çapdan çıxmışdır.**

"Füyuzat" jurnalında dövrün görkəmli şair və yazıçıları, publisistləri Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq, Məhəmməd Əmin Rəsulzadə, Abdulla Sur, Əhməd Kamal, Əhməd Raiq, Abbas Səhhət, Həsən Səbri Ayvazov, İbrahim Tahir, M. Ə. Sabir, Səid Səlmasi, Ə. Hamid, A. Cövdət, Tofiq Fikrət və başqalarının müxtəlif mövzuda qələmə aldıqları yazıları dərc edilirdi.

"Füyuzat" jurnalı ədəbi-publisistik mahiyyətinə görə dövrünün ən nüfuzlu mətbuat orqanlarından biri idi. Jurnal publisistikanın ən yüksək intellektual səviyyəsini özündə ehtiva edirdi. "Füyuzat"çılar maarifçilik, milliyyətçilik və mədəni inkişafı publisitikanın əsas mövzusuna çevirirdilər. Jurnalda çap olunan yazılarda ictimai islahatların vacibliyi, şəxsiyyət azadlığı, qadın hüquqları, Avropa maarifçiliyi və onun Şərqdə tətbiqi kimi məsələlərə geniş yer verilirdi.

Dövrün ədəbi, siyasi qüvvələri məhz "Füyuzat"ın ətrafında toplaşaraq XX əsrin ilk onilliyində milli şüurun, milli özünüdərk prosesinin yaradıcıları kimi fəaliyyət göstərdilər və füyuzatçılıq adlı siyasi, ədəbi cərəyanın intişarına, formalaşmasına xidmət edirdilər. Füyuzatçılıq hər şeydən öncə çarizmə, əsarətə, köləliyə, istibdada qarşı çevrilmiş və türk xalqlarının mənəvi birliyinin təcəssümü olan turançılıq ideologiyasının daşıyıcısıdır. Əslində bu ideologiya boş xülyalardan, utopik düşüncələrdən, absurd fikirlərdən qaynaqlanmırdı, tarixi gerçəkliklərdən, reallıqlardan, milli özünüdərk prosesindən yaranıb formalaşırdı.

Bu ideologiyanın əsas məqsəd və məramı istiqlal uğrunda mübarizə aparan türk xalqlarının milli şüurunu "türkləşmək, islamlaşmaq, avropalaşmaq" istiqamətində oyatmaq, inkişaf etdirməkdən ibarət idi. Füyuzatçılıq eyni zamanda ədəbiyyatda romantizmin, ortaq türk dilinin, ümumi ədəbi dil siyasətinin, islamçılığın, milli məsələlərdə farslaşma və ruslaşmaya qarşı türkçülük ideologiyasının təbliği demək idi. Əli bəy Hüseynzadə jurnalda bu məfkurəni elmi-nəzəri cəhətdən əsaslandırır və dərc etdiyi publisistik yazılarda bir ideoloq kimi çıxış edirdi. Onun tərəqqi proqramına islamlaşmaq və avropalaşmaq məramlarını daxil etmişdi. İslamlaşmaq onun ortaya qoyduğu tərəqqi proqramının ideya-nəzəri əsaslarından biri idi. Mütəfəkkirin aydın nəzəri proqramına görə məzhəb və dinlər türk xalqlarını bir-birlərindən ayırmamalı, əksinə, daha sıx birləşməsinə təminat yaratmalıdır.

"Füyuzat" səhifələrində çarizmin zülmünü, İran və Türkiyə mütləqiyyət üsulunu, Azərbaycandakı feodal münasibətlərini, Şərq ətalətini tənqid edən yazılar da çap olunurdu. Ə.Hüseynzadə bolşevizmə, sosializm ideyalarına qarşı barışmaz mövqedə olduğunu bütün əsərlərində aydın şəkildə göstərirdi. O, Türkiyə "İttihad və tərəqqi" firqəsinin Parisdəki başçıları ilə sıx əlaqələr yaradır, məktublaşır, türklük və islamçılıq ideyalarının təbliğində mühüm işlər həyata keçirirdi. Bolşeviklər xalqı çar mütləqiyyətinə qarşı silahlı mübarizəyə təhrik etdiyi bir dövrdə "Füyuzat" jurnalı həmvətənlərini sülhə, əmin-amanlığa səsləyərək "Nicat məhəbbətdədir!" tendensiyasını irəli sürürdü. İmperiyanın mütləqiyyət üsul-idarəsi fəhlə hərəkatının qarşısını almaq məqsədilə müxtəlif tədbirlər həyata keçirərkən, dumalar çağırıb planlı şəkildə onları arxayınlaşdırmağa çalışarkən, "Füyuzat"ın yazarları milli tərəqqi istiqamətində ardıcıl, prinsipial və təxirəsalınmaz işlər görürdülər.

Füyuzatçılar öz ideyalarını həyata keçirmək naminə ədəbiyyat və dil məsələlərinə də xüsusi önəm verirdilər. Jurnalın səhifələrində Azərbaycan ədəbi dilinin və klassik irsimi-



zin təbliğinə aid publisistik yazılar çap etdirirdilər. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə kimi klassiklərlə yanaşı, türk ədəbiyyatına da böyük maraq göstərirdilər.

Jurnalın ilk sayında məram və məqsədlərini açıqlayan Əli bəy Hüseynzadə "Həyat və meyli-füyuzat" adlı məqaləsində füyuzat sözünün mənasını belə açıqlayırdı: "Məcmuədə "Füyuzat" adı təsadüfi verilmiyor, bu nam həyatdan təbii olaraq təvəllüd ediyor... "Füyuzat" ləfzon "feyz"in cəmil-cəmi olub rifah və bərəkətə, bolluğa, maddi və mənəvi nemətlərin bolluğuna, tərəqqiyyat və kəmalatın şəniəyyi-təcəllisinə dəlalət edərsə də, fəqət əsl məfhumu səadət və ələlxüsus səadəti-mənəviyyədir, həqiqi zövq və səfalərdən ibarət bir səadəti-mənəviyyədir. Həyat isə mənayi batinisilə daimi bir meyli-səadət, bir meyli-füyuzatdır".

Əli bəy Hüseynzadə milli intibahla dini intibahı bir vəhdət şəklində götürürdü. Görkəmli ideoloq türkləşmək məsələsini gündəmə gətirməklə türk dilini, tarixini, ədəbiyyatını bilməyin vacibliyini ön plana çəkirdisə, islamlaşmaq tendensiyası ilə islam dininin ümumbəşəri, mənəvi-əxlaqi dəyərlərinin əxz edilməsi, öyrənilməsi fikrini irəli sürürdü. Bu məqsədlə islamlaşmağı milli tərəqqi proqramına daxil edən Ə. Hüseynzadənin qənaətinə görə, mütləq ilkin islama qayıdılmalıdır. Əgər belə olmazsa, dinin əsl mahiyyətini, real həqiqətləri, hikmətləri ortaya çıxarıb bərpa etmək və müxtəlif təhriflərdən xilas etmək qeyri- mümkün olacaqdı.

Avropalaşmaq strategiyası Ə. Hüseynzadənin milli tərəqqi proqramında əksini tapan əsas ideoloji istiqamətlərdən biri idi. O, ictimaiyyətə bu ideyanı təbliğ etməklə Avropanın elmi uğurlarını, texnikasını, sənayesini öyrənmək və onu öz ölkəsində tətbiq etməyin zəruriliyini əsaslandıraraq deyirdi: "Cəhalətin kökünü ancaq bu vasitə ilə qurutmaq, söküb atmaq olar. Başqa yol yoxdur".

"Füyuzat"ın səhifələrində yer alan Avropa şair və yazıçılarının əsərlərinin tərcüməsinin çapı da məhz bu ideologiyanın reallaşmasına xidmət edirdi. Azərbaycan oxucuları ilk dəfə bu jurnal vasitəsilə Tolstoy, Höte, Russo, Monteskye kimi görkəmli şəxsiyyətlər haqqında geniş, dəqiq məlumatları onların həyat və yaradıcılığını əks etdirən yazılardan əldə edə bilirdilər. Hötenin məşhur "Faust"u, Şeksprin "Yuli Sezar" kimi dəyərli əsərləri Azərbaycan dilinə tərcümə olunaraq geniş oxucu auditoriyasına çatdırılır və Avropa mədəniyyətinin təbliği jurnalda önəmli yer tuturdu.

"Füyuzat" türk xalqları arasında dil, din birliyini təşkil etməklə, Avropanın elmi yeniliklərini əxz etməklə tərəqqiyə, milli yüksəlişə nail olmağın salnaməsini yaratdı. Bütün təhdid və təzyiqlərə baxmadan "Füyuzat"çılıq ideyasını cəmiyyətə təlqin edə bildi. Əli bəy Hüseynzadə "Füyuzat"ın birinci nömrəsində dərc etdirdiyi "İcmal" məqaləsində öz yerini "Füyuzat"a verən "Həyat" qəzetini xatırlayır və "Həyat"ın yoxluğundan keçən" iki aya qədər bir vaxtda baş verən ictimai-siyasi hadisələri diqqətə çatdırırdı.

"Füyuzat"ın 2-ci sayında ədib "Vəqayeyi aləmə bir nəzər" adlı məqaləsində inqilabın silahlı mübarizə yolunu seçməsinə qarşı çıxaraq yazırdı: "Həqiqi vətənpərvərlər heç nədən çəkinməməlidirlər. Əldə qan tökməyəcək çarələr var ikən xunrizanə vəsaitə müraciət etmək əbəsdir".

Əli bəy Hüseynzadə jurnalın 3-cü sayında dərc etdirdiyi "Şüunat" məqaləsində türk xalqlarının azadlıq yolunun mübarizədən, təkamüldən keçdiyini göstərərək deyirdi: "Bu yolda biz hürriyyət, ədalət, müsavat deyə-deyə, fəryad edə-edə qanuni-əsasiyə doğru yüksələrək tərəqqi edəcəyik".

Milli ideoloq imperiyanın caynağında inləyən məmləkətimizin ciddi çətinliklərlə üzləşdiyini göstərməklə yanaşı, imperialist güclərə qarşı həmvətənlərini vahid mövqedən çıxış etməyə, zülm və istibdada, müstəmləkəçiliyə son qoymağa səsləyirdi.

Belə bir ideyanı səsləndirdiyinə görə "inqilabın qızğın çağında" xalqı mübarizələrdən çəkindirdirməkdə günahlandırılan Ə. Hüseynzadəyə təzyiqlər göstərilirdi. Bu basqı və təpkilərə cəsarətlə müqavimət göstərən Ə. Hüseynzadə öz fikirlərini oxucularla bölüşərək yazırdı: "Kim deyir bitərəf olmalı? Xeyr. Əsla bitərəf olmamalı! Bitərəflik ayaq altda qalmaqdır. Su belə yerdə sabit və rakid durmaqdan qorxur. Qorxur, çünki qoxuyar, kiflənər, yosun bağlar. Təmiz və salim olmaq üçün su bir tərəfə axmalı, cərəyan etməli, ya heç olmazsa, dərya kimi ləpələnməlidir".

"Füyuzat" jurnalı yalnız ədəbi orqan kimi fəaliyyət göstərməmiş, eyni zamanda, dünyada gedən ictimai-siyasi prosesləri yaxından izləmiş və baş verən proseslərə obyektiv münasibət bildirmişdi. Milli məsələlərin mətbuatda işıqlandırılmasına, təbliğinə hər vəchlə mane olmağa çalışan çarizmin Azərbaycandakı hakim nümayəndələri jurnalın ideya-siyasi istiqamətindən təşvişə düşür və müəyyən tədbirlər görürdülər. Çünki məcmuənin yaradıcısı Əli bəy Hüseynzadə "İttihada doğru tərəqqi" proqramını irəli sürüb dəstəkləməklə Türk dünyasının ictimai-siyasi fikir ntarixində yeni bir səhifə açır və böyük planların həyata keçirilməsində əvəzsiz rol oynayırdı.

*Səhifəni hazırladı:*
***Gülbəniz BABAYEVA,***
***AMEA Ədəbiyyat İnstitutu mətbuat tarixi və publisistika şöbəsinin baş elmi işçisi, dosent***

# Vaqif Poeziya Günləri başlandı

**Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı ilə növbəti Vaqif Poeziya Günləri başlanıb. Ənənəvi poeziya bayramı bu il də ölkəmizin bir neçə şəhər və rayonunu əhatə edəcək.**




Vaqif Poeziya Günlərinin təməli ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə Şuşada qoyulub. Məhz o zaman Ulu öndərin iştirakı ilə Molla Pənah Vaqifin məqbərəsi və Poeziya Evi təntənəli şəkildə açılıb və onun tapşırığı ilə Vaqif Poeziya Günlərinin keçirilməsinə qərar verilib. Qarabağ münaqişəsindən əvvəl bu poeziya bayramı



ənənəvi olaraq şairin vətəni Qazaxdan başlayaraq, ətrafa şeir işığı yayır və Şuşanın əsrarəngiz Cıdır düzündə başa çatırdı.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin şanlı qələbəsi nəticəsində Şuşa şəhəri işğaldan azad olunduqdan sonra Vaqif Poeziya Günləri yenidən keçirilməyə başlanıb.

Şeir təntənələri dünən Molla Pənah Vaqifin doğulduğu Qazax rayonundan start götürüb. Əvvəlcə iştirakçılar Yuxarı Salahlı kəndində şairin 300 illiyi ərəfəsində abadlaşdırılmış məkanda onun heykəlinin önünə gül dəstələri qoyub, əziz xatirəsini ehtiramla yad ediblər. Ardınca Qazax Müəllimlər Seminariyası – ADA Universitetinin Qazax Mərkəzində unudulmaz Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyinə həsr olunan konfrans keçirilib.

Axşamüstü Qazax şəhərindəki Mütəfəkkirlər Parkında, Molla Pənah Vaqiflə Molla Vəli Vidadinin qoşa abidələri önündə Poeziya Günlərinin açılış mərasimi xüsusilə yaddaqalan təsir bağışlayıb. Tədbirdə rayon rəsmiləri, AYB-nin rəhbər heyəti, yazar və alimlər, şəhid ailələri, ağsaqqallar, ziyalılar, gənclər və KİV nümayəndələri iştirak ediblər. Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal tədbirə toplaşanları salamlayıb, səmimi ürək sözlərini çatdırıb. O deyib ki, Vaqif Qazaxda dünyaya göz açsa da, Şuşada məşhurlaşıb və orada dəfn edilib. Aparıcı Türk dünyasının böyük şairinin adına ənənəvi bayramın təşkilində əməyi keçənlərə qazaxlı ziyalılar adından minnətdarlığını bildirib.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, AYB katibi Səlim Babullaoğlu və başqaları çıxışlarında ölkə rəhbərliyinin mədəniyyətə, o cümlədən ədəbiyyata qayğısını yüksək dəyərləndirib, bu bayramın yaradıcı mühitə stimul və ilham verdiyini vurğulayıblar. Musiqili proqram, o cümlədən Səməd Vurğunun “Vaqif” dramından parça və yerli aşıqların ifaları böyük ruh yüksəkliyi yaradıb.

**Poeziya Günlərinin iştirakçısı kimi Qazaxa gələn ədəbiyyatşünas alim Rüstəm Kamal XQ-yə açıqlamasında dedi:**

– Qonşu Gürcüstanın Rustavi şəhərində anadan olsam da, Qazaxın İkinci Şıxlı kəndində orta təhsil almışam. Odur ki, bura hər gəlişimi, sözün əsl mənasında qənimət sayıram. Şərəfli ziyarətində bulunduğumuz Molla Pənah Vaqifə gəlincə isə deyim ki, o, yazılı ədəbiyyatımızın milli etnik kodlarla köklənməsində və poeziyamızda xalqımızın öz obrazının yaradılmasında müstəsna rolu olmuş şairdir. Vaqif başdan-ayağa işıq poeziyasıdır. Onun şeirlərində ən çox mənalanan, ən çox hallanan, ən çox diqqət çəkən nur, işıq, şölə sözləridir. Dövlətimizin başçısı İlham Əliyev və Heydər Əliyev Fondu bizim mədəniyyətimizi, ədəbiyyatımızı klassiklərimizi layiqincə himayə edir, onların yenidən milli yaddaşımıza qayıtmasında böyük rol oynayır. Bir ziyalı kimi, Vaqif Poeziya Günlərinin bərpasına görə ölkə rəhbərliyinə təşəkkür edirəm.

**AYB-nin poeziya bölməsinin rəhbəri İbrahim İlyaslının ürək sözləri:**

– Mən də əslən şairlər yurdu Qazaxdanam. Bura əliboş gəlməmişəm. Yenicə çapdan çıxmış “Salam sahibi haqqdı...” kitabımı dostlara ərməğan gətirmişəm. Bu topluda divani, təcnis, qoşma, gəraylı və müxəmməslərim toplanıb. Vaqifin başımız üstündəki ruhuna sığınaraq, bir neçə şeirimi səsləndirdim. İmkan olsa, Şuşada “Poeziya saatı”nda da oxuyacağam. Dediyim budur ki, belə bayramlar bizi ruhlandırır, ürəkləndirir, xalqımızın ədəbiyyata, poeziyaya bağlılığını görüb sevinirik. Ənənəvi Poeziya bayramları bir daha dünyaya göstərir ki, biz qılıncı da, qələmi də əlimizdə möhkəm tutan millətik.

Qeyd edək ki, Poeziya Günləri bu gün Gəncədə, sabah Ağdam rayonunda davam edəcək. Bayramın əsas və son akkordları isə iyulun 17–18-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində vurulacaq. Şuşada baş tutacaq tədbirlərdə tanınmış ədəbiyyat və incəsənət xadimləri, dövlət və hökumət nümayəndələri iştirak edəcəklər. Günlər çərçivəsində Şuşanın müxtəlif tarixi və mədəni məkanlarında – o cümlədən Heydər Əliyev Fondu tərəfindən bərpa olunan Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Natəvanın evi, Qarabağ oteli və Mehmandarovlar malikanəsində poeziya saatları, kitab sərgiləri və təqdimatları, musiqili kompozisiyalar, elmi konfrans, teatr tamaşaları və müxtəlif ədəbi-bədii proqramlar təşkil ediləcək.

Bu il də Vaqif Poeziya Günləri poeziya, ədəbiyyat və mədəniyyət həvəskarlarına çox unudulmaz anlar yaşadacaq. Bayram çərçivəsində istiqlalçı Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyi də qeyd olunacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Təqvim yada salır**

# Görkəmli musiqi xadimləri

**Müğənni, lirik tenor, pianoçu, pedaqoq Rauf Atakişiyev 1925-ci il iyulun 15-də Göyçayda anadan olub.**



Moskva Dövlət Konservatoriyasını və orada aspirantura pilləsini bitirəndən sonra Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub. Teatrda Əsgər ("Arşın mal alan"), Faust ("Faust"), Qraf Almaviva ("Sevilya bərbəri", Coakkino Rossini), Knyaz Sinoda ("Demon", Anton Rubinşteyn), Hofman ("Hofmanın nağılları", Jak Offenbax), Malxaz ("Daisi", Zaxari Paliaşvili), Alfred ("Traviata", Cüzeppe Verdi), Edmond ("Kornevil zəngləri", Rober Plaket), Anatoli (“İnsanın taleyi”) partiyalarını oxuyub. 1967-ci ildə Azərbaycanın xalq artisti fəxri adına layiq görülüb.

Rauf Atakişiyev Azərbaycan Dövlət Konservatoriyasında (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) uzun illər dərs deyib, fortepiano kafedrasına rəhbərlik edib, bir çox beynəlxalq müsabiqələrin münsiflər heyətinin üzvü olub.

*

**Bu gün Azərbaycan bəstəkarı, professor, Xalq artisti Azər Rzayevin isə 95 yaşı tamam olur.**



Məşhur opera müğənnisi Həqiqət Rzayevanın oğlu olan Azər Rzayev Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Yaradıcılıq fəaliyyətində beynəlxalq və Ümumittifaq müsabiqələr laureatı və diplomantı, Azərbaycan gənclərinin I və II festivallarında həm bəstəkar, həm də ifaçı kimi laureat adlarına layiq görülüb.

Bəstəkar Azər Rzayev skripka ilə simfonik orkestr üçün 3 konsertin, 6 poemanın, o cümlədən "Həyat vurğunu", "Nəsimi", "Atamın xatirəsinə" poemalarının, "Bakı-90" simfoniyasının, skripka ilə orkestr üçün "Fədai-Vətən", violonçel və simfonik orkestr üçün "Poema-konsert"in, tar və simfonik orkestri üçün "Düşüncə" və “Qaytağı”, fortepiano və simfonik orkestr üçün konsertin, habelə "Hacı Kərimin Aya səyahəti" adlı bir operettanın, çoxlu sayda kamera-instrumental əsərlərin, tamaşalara yazılmış musiqilərin müəllifidir.

***Ə.ƏLİYEV***
***XQ***

# “Rəngli talelər: cəsurlar, çəkingənlər…”

**Fəlsəfə doktoru, Əməkdar jurnalist Natiq Abdullayevin bu adla oxuculara təqdim olunan yeni kitabında iki fərqli dövrün ibrət götürülməli olan həyat hekayələri verilib.**

Həyatda hansı insanın – ehkamlara boyun əyən, çox zaman haqqını qoruya bilməyən, çəkingənin, yoxsa ilk baxışdan sözeşitməz, inadının arxasınca gedərək bəzən qazanan, bəzən də iflas edən cəsarətlinin yolu daha doğrudur? Bu seçimi ona yüksəliş, amallarının gerçəkləşməsi məmnunluğu da yaşada bilər, ömür boyu daşlı-kəsəkli yollar və nakamlıq məzəmməti də. Bəzən insan özünü tanımır, atdığı




addımların onu hara aparacağını hiss edə bilmir. Ya reallığı düzgün dərk etmir, ya da ki, dərk edəndə artıq gecikir, geriyə dönüş olmur. Çünki həyat ikitərəfli yox, sadəcə birtərəfli yoldur.

Belə dilemmalarda həyat hekayələri insana yardımçı ola bilər. Doğru-düzgün, bəzəksiz-düzəksiz, olduğu kimi göstərilən, gerçək həyat hekayələri... Ən önəmlisi, təkrar olunan və ya olunacaq, qismət dediyimiz alın yazısının sənə uyğun istiqamətlənməsinə düzən vermək bacarığıdır.

Kitabdakı qəhrəmanların yaşadıqlarını gördükcə bəzən düşünürsən ki, kaş o, bu qədər cəsarətli, inadkar olmazdı. Yaxud əksinə, kaş ki, cəsarəti çatıb etiraz etməyi bacaraydı, qətiyyətli olub sevgisini və həyatını daim özünüməzəmmət girdabından xilas edə biləydi.

***XQ***

# Naxçıvanın təbiət abidələri UNESCO siyahısında

**Xəbər verildiyi kimi, ötən həftə Parisdə UNESCO-nun Baş Qərargahında keçirilən Dünya İrsi Komitəsinin 47-ci sessiyasında Naxçıvandan “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi” də UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilib.**

Bu tarixi hadisə ölkəmizin tarixi zənginliklərinin dünya miqyasında qəbul olunmasının nəticəsidir. Bəs, bu abidələr daha çox hansı xüsusiyyətləri ilə diqqət çəkir və tariximizin hansı sirlərini özündə saxlayır?



Ordubad rayonunun ərazisində yerləşən Gəmiqaya dünyanın ən qədim insan məskənlərindən biri olmaqla, Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Zəngəzur silsiləsinin suayırıcı hissəsində, 3725 metr yüksəklikdə yerləşir. Bu tarixi yurd yeri haqqında hələ illər əvvəl ümummilli lideri Heydər Əliyev demişdir: Naxçıvanın gözəl təbii abidələri var. Gəmiqaya dünyada məşhur bir yerdir... O, bizim böyük sərvətimizdir. Orada insanın qoyduğu izlər var. Bu, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixidir. Bunlarla məşğul olmaq lazımdır”.

Gəmiqaya abidələrinin tədqiqinə də elə Ulu öndərin Azərbaycana siyasi rəhbərliyinin 1-ci dövründə başlanılıb. 1971–87-ci illərdə Azərbaycan Respublikasının Elmlər Akademiyası tərəfindən burada tədqiqat işləri aparılıb, bununla bağlı bir sıra elmi materiallar çap olunub.

Bu ərazi Tunc dövrünün müxtəlif mərhələlərinə, Dəmir dövrünə və Orta əsrlərə aid qayaüstü təsvirlərlə zəngindir. Gəmiqayadakı iki təbii göl – Göygöl və Qazangöl də daxil olmaqla, ərazidəki bütün yaylaq, çeşmə, bulaq, dərə-təpələrin adları qədim türk soyları ilə bağlıdır. Araşdırmalara görə, ərazidə qeydə alınmış 100-dən artıq toponim Naxçıvan, 70-ə yaxını isə Zəngəzur ərazisindədir.

Təəssüf ki, Gəmiqaya abidələrinin tədqiqi sahəsində aparılan işlər 1980-ci illərin sonlarından unudulub. Bu isə erməni “tarixçilərini” hərəkətə gətirib. Belə ki, yaranmış boşluqdan istifadə edən saxtakar haylar gizli şəkildə Gəmiqayada araşdırmalar aparıb, bunun nəticəsi olaraq “Navsarın qaya təsvirləri” və “Naxçıvanın memorial abidələri və relyefləri” adlı saxta materiallar da nəşr etdiriblər. Nəticədə, xalqımızın ən qədim yadigarı olan Gəmiqaya abidələrini heç bir elmi əsas olmadan erməniləşdirməyə çalışıblar. Gəmiqayanın adını “Navsar”, “Tapanasar” kimi uydurma adlarla əvəz ediblər. Bədnam erməni tarixçisi A. Ayvazyan Ermənistan Elmlər Akademiyasının “Xəbərlər” jurnalında (1982, № 2) nəşr etdirdiyi “Navsarın qaya təsvirləri” adlı məqaləsində yazır ki, guya Gəmiqaya erməni abidəsi olmuş, azərbaycanlılar isə onun adını dəyişdirmişlər (!?). Halbuki ulu babalarımıza məxsus bu incəsənət əsərindəki qaya təsvirləri içərisində – insan, maral, öküz, quş, it, aslan, ov səhnələri təsvirləri sırf qədim türk mifologiyası ilə bağlıdır. Qayaüstü abidələr 3000–3500 metr yüksəklikdə yerləşən Qaranquş yaylağındadır. Belə təsvirlərə ərazidəki Qəmişölən və Nəbiyurdu yaylaqlarında da rast gəlmək mümkündür. Ümumiyyətlə, Gəmiqaya abidəsi əcdadlarımızın dini, ideoloji, mifoloji, siyasi görüşlərini əks etdirən qayaüstü rəsmlər toplusudur. Süjet və kompozisiyası ilə fərqlənən bu rəsmlərin mövzusu əcdadlarımızın inanc və əmək fəaliyyətini özündə əks etdirir.

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə muxtar respublikanın tarix və mədəniyyət abidələrinin qorunması və bərpası yönündə bir sıra addımlar atılıb, Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilib, bu mövzuda onlarla elmi məqalə və kitablar yazılıb. Həmçinin “Gəmiqaya” Tarix-Bədii Qoruğu yaradılıb. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilib, ətrafda tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanıb. 2013-cü ildə isə “Gəmiqaya” Tarix-Bədii Qoruğu və muzey üçün bina istifadəyə verilib. Muzeyin fondunda 200-dən çox eksponat – üzərində rəsmlər olan qaya daşları, Gəmiqayada aparılan tədqiqat işlərinə aid müxtəlif



kitablar, qəzetlər, fotoşəkillər, qayaüstü rəsmlərin fotoşəkilləri, eləcə də Naxçıvanın tarixinə aid elmi simpoziumların materialları toplanılıb.

Ordubad rayonu ərazisindəki digər maraqlı təbiət abidələrindən biri isə Göygöldür. Rayonun Nürgüt kəndi yaxınlığında, Zəngəzur silsiləsinin cənub yamacında, 3065 metr yüksəklikdə yerləşən Göygölün sahəsi 1,5 hektar, dərinliyi isə 6,5 metrə çatır. Suyunun göyümtül rəngə oxşamasına görə belə adlandırılıb. Göygöl ilin bütün fəsillərində yağan qar və yağış sularından, eləcə də gölün ortasından qaynayan bulaqlardan qidalanır. Bu təbiət abidəsinin gözəlliyi ondadır ki, burada ilin dörd fəslini də eyni anda müşahidə etmək mümkündür. Belə ki, gölün bir tərəfində qar, bir tərəfində gül-çiçək, bir tərəfində soyuq, bir tərəfində günəşli havanı eyni vaxtda müşahidə etmək mümkündür.

AMEA-nın müxbir üzvü, tarixçi alim Vəli Baxşəliyevin sözlərinə görə, Göygöl unikal təbiət abidəsi olmaqla yanaşı, ərazidə mis yataqları da var, eyni zamanda burada qədim mədən izlərinə də rast gəlinib. Həmçinin ərazidə arxeoloji abidələr də mövcuddur. Vaxtı ilə burada Tunc dövrünə aid kurqanlar qeydə alınıb.

Sevindirici haldır ki, “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi”nin UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilməsi hər iki abidənin dünya səviyyəli rəsmi sənəddə əhəmiyyətini əks etdirməklə yanaşı, həm də bu tarixi yurd yerinə əsassız erməni iddialarının üstündən xətt çəkir.

***H.SƏBUHİ***
***XQ***




# "AZPETROL" 28 yaşını qeyd edir!

**"Azpetrol" şirkəti Azərbaycanın yanacaq bazarında artıq 28 ildir ki, fəaliyyət göstərir. Neft strategiyasının ayrılmaz hissəsinə çevrilən "Azpetrol" brendi, 28 il ərzində yanacaqdoldurma məntəqələrinin sayını 108-ə çatdırmışdır.**

"Azpetrol" şirkətinin yaranması, inkişafı və uğurlu fəaliyyəti ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda iqtisadiyyatın və sahibkarlığın inkişafı sahəsində görülən işlərin nəticəsində mümkün olmuş və respublikanın neft strategiyasının inkişafına təkan vermiş və 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasının məntiqi nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni neft strategiyasının məqsədləri isə "Azpetrol" şirkətinin fəaliyyət istiqamətlərinin yol xəritəsidir.

Şirkətin əsas fəaliyyəti yanacağın pərakəndə və topdan satışını həyata keçirməkdən ibarətdir və hazırda "Azpetrol" brendi altında Azərbaycanın əksər iqtisadi zonalarında 108 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsi nəticəsində qazandığı tarixi Zəfər, şirkətin strateji inkişaf planına yenidən baxılması və əhatə dairəsinin işğaldan azad olunmuş Qarabağ torpağında genişləndirilməsi məsələsini gündəmə gətirdi. "Azpetrol" şirkəti Şuşa, Xankəndi, Cəbrayıl, Əsgəran, Suqovuşan, Hadrut, Ağalı , Xocalı, Füzuli, Zəngilan, Xocavənd, Laçın, Horadiz və Füzuli-Şuşa Zəfər yolunda modul tipli yanacaqdoldurma məntəqələrini istismara vermişdir.

Şirkətin uğurları və nailliyyətləri yerli və beynəlxalq qurumlar tərəfindən hər zaman yüksək qiymətləndirilib. 28 il ərzində "Azpetrol" nümunəvi fəaliyyət, eləcə də, müştərilərə göstərilən yüksək keyfiyyətli xidmətləri ilə fərqlənir. Bundan başqa, "Azpetrol" şirkəti özündə üç istiqaməti - keyfiyyətin idarə olunması sistemini (ISO-9001), ətraf mühitin mühafizəsini (ISO - 14001), əməyin mühafizəsini və təhlükəsizlik texnikasını (İSO-45001) əks etdirən birləşmiş sistemin tətbiqini nəzərdə tutan yeni inkişaf proqramını uğurla həyata keçirir və mövcud istiqamətlər əsasında hədəflərinə doğru öz siyasətini icra edir.

"Azpetrol" şirkətinin ilk yanacaqdoldurma məntəqəsi - "Spartak", 1997-ci il iyulun 15-də Bakı şəhəri, Nəsimi rayonu, Moskva prospekti, 1013-cü məhəllədə açılıb. Hazırda şirkətin Azərbaycanın əksər iqtisadi zonalarını əhatə etməklə ən müasir avadanlıqlarla təchiz olunmuş 108 yanacaqdoldurma məntəqəsi, 1 maye qazdoldurma (propan-butan) məntəqəsi, ictimai nəqliyyatda sərnişindaşımaya xidmət edən respublikada ən müasir standartlara cavab verən 1 sıxılmış təbii qaz (CNG) terminalı, yanacaq məhsullarının saxlanılması üçün 3 neftbazası, yanacaqdaşıyan maşınlar üçün avtobaza, yanacağın yanacaqdoldurma məntəqələrinə fasiləsiz daşınmasını təmin etmək üçün 128 yanacaq daşıyan avtomobili və minik maşınları üçün avtosahəsi mövcuddur.

Fəaliyyət göstərən yanacaqdoldurma məntəqələrində 4 sıxılmış təbii qazdoldurma postu, 4 maye qazdoldurma postu və elektromobillərin 23 enerji ilə doldurulma postu, 1 hotel, 8 motel və eyni zamanda müxtəlif xidmətlərin göstərilməsi üçün əksər məntəqələrdə iaşə obyektləri (kafe, avtoyuma və market) fəaliyyət göstərir. Həmçinin "Azpetrol"un Azərbaycanın ən iri işəgötürənlərindən biri olduğunu xüsusi ilə qeyd etmək vacibdir. Belə ki, hazırda şirkətdə çalışan işçilərin ümumi sayı 3400 nəfərdən çoxdur. "Azpetrol" şirkəti daim inkişaf edir və göstərdiyi xidmətlərin keyfiyyətini və çeşidlərini artırır.

"Azpetrol" - Daim inkişafa doğru!

**Ceyhun MƏMMƏDOV,**
**"Azpetrol Ltd" MMC-nin baş direktoru**

Beynəlxalq həyat

# Yeni Kaledoniya: "Müstəqil müstəmləkə" modeli?

## *Paris "yeni dövlət" anlayışı altında köhnə müstəmləkəçiliyini davam etdirir*



**2025-ci il iyulun 12-də Parisdə imzalanan və Yeni Kaledoniyanın gələcək statusunu müəyyən edən müqavilə, ilk baxışda siyasi kompromis kimi təqdim olunur. Ancaq bu hadisə, əslində, Fransanın dəyişməyən müstəmləkəçilik təcrübəsinin davamı kimi qiymətləndirilir. Prezident Emmanuel Makronun "Fransa tərkibində yeni dövlət" ifadəsi təkcə hüquqi yenilik yox, həm də siyasi manipulyasiya kimi qəbul olunur. Reallıqda isə Parisdə müstəqilliklə uzlaşmayan, lakin onun görüntüsünü yaradan bir sistem formalaşdırılır.**

Bu müqavilə çərçivəsində Yeni Kaledoniyaya müəyyən dərəcədə muxtariyyət, simvolik vətəndaşlıq və xarici əlaqələrdə məhdud səlahiyyətlər verilir. Lakin iqtisadiyyat, müdafiə, hüquq-mühafizə orqanları və məhkəmə sistemi tam şəkildə Parisin nəzarətində qalır. Nəticədə bu, birbaşa suverenlik deyil, idarəetmədə kosmetik dəyişikliklərlə zənginləşdirilmiş bir "siyasi dekora" çevrilir. Beləliklə, XXI əsrdə Fransa, sadəcə, klassik müstəmləkə idarəetməsini daha yumşaq ritorika ilə təqdim edir.

Yeni Kaledoniya 1853-cü ildə Fransa tərəfindən anneksiya ediləndən bəri bir sıra dönüş nöqtələri yaşayıb. Əvvəlcə sandal ağacı və nikel yataqları uğrunda istismar edilən bu ada, zamanla Fransa üçün strateji əhəmiyyət daşıyan dənizaşırı koloniyaya çevrilib. Kanak xalqı — bu ərazinin yerli əhalisi — kolonial siyasətin sərt üzünü hər mərhələdə hiss edib. Onlar torpaqlarından sıxışdırılıb rezervasiyalara göndərilib, iqtisadi və siyasi sistemlərdən kənarda saxlanılıb, üsyan etdikdə isə ağır repressiyalara məruz qalıblar.

XX əsrin ikinci yarısında baş verən islahatlar – vətəndaşlıq hüququnun verilməsi, muxtariyyətin tanınması, hətta referendum imkanlarının yaradılması – əslində, köklü azadlıq deyil, müstəmləkəçiliklə kompromis axtarışının nəticəsi idi. 1988-ci ildə Matinyon, 1998-ci ildə isə Numea sazişi ilə Fransa bu kompromisin çərçivəsini genişləndirdi, lakin əsas güc mexanizmləri heç vaxt yerli icmaların nəzarətinə verilmədi.

Fransa hökuməti 2024-cü ildə seçki hüququ ilə bağlı dəyişikliklərə təşəbbüs göstərdi. Yeni qanun 1998-ci Numea razılaşmasına zidd olaraq, son 10 ildə Yeni Kaledoniyada yaşamış bütün sakinlərə səsvermə hüququ verirdi. Bu, yerli kanak əhalisinin – sayca onsuz da azlıqda olan icmanın – siyasi çəkisini daha da azaltmaq üçün atılmış addım kimi qəbul olundu.

Nəticədə, kütləvi etirazlar başladı. May ayında fövqəladə vəziyyət elan edildi, 7 nəfər həyatını itirdi, yüzlərlə insan həbs edildi. Prezident Makron bölgəyə səfər etməli oldu, lakin siyasi dialoq adı altında təqdim olunan müzakirələr yerli xalqlarda inam yaratmadı.

İyulda imzalanan yeni müqavilə isə böhranı həll etmək əvəzinə, onu yeni mərhələyə daşıdı. Sənədin qüvvəyə minməsi üçün Fransa parlamenti və yerli referendumun razılığı tələb olunur. Bu isə mübahisələrin yenidən alovlanma ehtimalını artırır.

Fransa rəsmiləri Yeni Kaledoniyanı "yeni dövlət", "muxtar region", "ortaq məsuliyyət zonası" kimi terminlərlə təqdim etməyə çalışsalar da, reallıq dəyişmir: Yeni Kaledoniya Parisin iqtisadi və siyasi orbitindən kənara çıxa bilmir. Fransanın 13 dənizaşırı ərazisi üzərində qurduğu bu "muxtariyyət modeli" – Quadelupa, Martinika, Fransız Qvianasında olduğu kimi – müstəmləkə idarəetməsinin liberal formada yenidən təqdim edilməsidir.

Bu modeldə Fransa maliyyə yardımları və təhlükəsizlik zəmanətləri ilə əhalini öz orbitində saxlayır, eyni zamanda, siyasi və hüquqi nəzarəti əldən vermir. Beləliklə, Paris beynəlxalq aləmdə "azadlıqsevər respublika" imicini qoruyur, əslində isə iqtisadi və geosiyasi maraqlarını qorumaq üçün yeni üsullara əl atır.

Yeni Kaledoniya ilə imzalanan müqavilə bir həqiqəti açıq şəkildə göstərir: Fransa öz müstəmləkə keçmişindən imtina etmədi, sadəcə, onu terminologiyada və hüquqi çərçivədə yenidən formatladı. Parisin müstəmləkəçiliyi artıq hərbi ekspedisiya ilə deyil, qanun layihələri, maliyyə asılılığı və "referendum mexanizmləri" ilə həyata keçirilir.

Bu reallıqda "müstəqillik" sözünün özü mənasını itirir. Yerli kanak xalqı isə bu yeni konfiqurasiyanı "azadlıq deyil, yeni formada asılılıq" kimi dəyərləndirir. Əgər siyasi dil reallığı əks etdirmirsə, bu zaman mübarizə bitmiş sayılmır - sadəcə, başqa müstəviyə keçir.

***S.ELAY***
***XQ***

# Şəhid Başlıbelin qanlı xronikası



**Dünən Azərbaycan Mətbuat Şurasında araşdırmaçı-jurnalist Elxan Salahovun "Başlıbel: yaranışdan işğaladək" kitabının təqdimatı keçirilib.**

Mərasimdə MŞ sədri Rəşad Məcid kitabın E.Salahovun əvvəl qələmə aldığı nəşrlərin davamı olduğunu, erməni təcavüzünə məruz qalmış Kəlbəcərin ucqar kəndinin tarixindən, üzləşdiyi acınacaqlı durumdan bəhs etdiyini, faktlarla zənginliyini vurğulayıb.

Mətbuat Şurası İdarə Heyətinin üzvləri Qulu Məhərrəmli, Umud Mirzəyev, Elşad Eyvazlı, Milli Məclisin deputatları Sevil Mikayılova, Rizvan Nəbiyev və Mircəlil Qasımlı, kitabın redaktoru Süleyman Qaradağlı, məsləhətçisi Elşən Əliyev, Qarabağ qazisi Rey Kərimoğlu, jurnalistlər Fərqanə Allahverdiyeva, Məhəmməd Nərimanoğlu və başqaları vəsaitin əhəmiyyətindən söz açaraq nəşrin Başlıbelin timsalında digər kənd və şəhərlərimizin, onların sakinlərinin üzləşdikləri erməni vandallığını əks etdirdiyini, ibrətamiz mahiyyət daşıdığını diqqətə çatdırıblar.

Müəllif Elxan Salahov Başlıbel haqqında yazmaq ideyasının 22 il əvvələ təsadüf etdiyini, buna kimi kəndin özü, işğal dövründə üzləşdiyi durumla bağlı 2 kitab və 1 sənədli film hazırladıqlarını söyləyərək təqdimatı keçirilən nəşrin ərsəyə gəlməsində əməyi keçən hər kəsə minnətdarlığını bildirib.

***XQ***

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti
"ManageEngine Endpoint Central" lisenziyalarının satın alınması üçün
AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "ManageEngine Endpoint Central" lisenziyalarının satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 29 iyul 2025-ci il saat 14.00-dır .

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

"Güzgü-Furnitur" ASC səhmdarlarının nəzərinə!

31 avqust 2025-ci il saat 9.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.
Gündəlikdəki məsələlər:
1. 2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.
Bütün səhmdarların iştirakı vacibdir.
Telefon- 070-379-94-04.
Ünvan - Bakı, Keşlə qəsəbəsi, Abdulla Mirzəyev küçəsi 3.

*Müşahidə şurası*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 143 (30837) 15 iyul 2025-ci il, çərşənbə axşamı

# Futbolun yeniləşən mundialı

## Gözlənilməz qalib və yaxşı qazanan klublar. Bir də turnirin sələfində Tofiq Bəhramov izi



**Formatının dəyişdirilməsi, turnirin genişləndirilməsi ilə bağlı narazılıqlara və tənqidlərə baxmayaraq, futbol üzrə klublararası Dünya çempionatı start götürdü, keçirildi və başa çatdı. Sırf oyun baxımından danışsaq, özü də gözlənilməz nəticə ilə yekunlaşdı. "Çelsi" yarışın əsas favoriti sayılan "Pari Sen-Jermen"ə əsl futbol dərsi keçdi. 3:0 hesablı nəticə dediklərimizə aşkar sübutdur.**

"Pari Sen-Jermen" bu mövsüm üstünlüklə Fransa çempionu olmuş və UEFA Çempionlar Liqasında layiqli qələbə qazanmışdı. Sonuncu dəfə böyük fərqlə isə 2023-cü ilin oktyabrında "Nyukasl"a uduzmuşdu (1:4). "Çelsi" də çətinlik çəkmədən Avropanın səviyyəcə 3-cü klub turniri Konfrans Liqasının qalibi olmuş, İngiltərə çempionatında isə 4-cü yeri tutmuşdu. Finala daha yaxşı hazırlaşan London təmsilçisinin rəqibi daha yaxşı təhlil etməsi öz nəticəsini verdi.

Əslində, klublararası Dünya çempionatı vaxtilə mövcud olmuş Qitələrarası kubokun xələfidir. Bu kubok uğrunda Avropa Çempionlar kuboku/Çempionlar Liqasının və Cənubi Amerikanın Libertadores kubokunun qalibləri mübarizə aparardı. 1972-ci ildə Qitələrarası kubokun Argentinada "İndependiente" və "Ayaks" komandaları arasında keçirilən ilk final matçını bizim Tofiq Bəhramovun idarə etdiyini də xatırlaya bilərik.

FIFA 2000-ci ildə klublararası Dünya çempionatını təsis edərək bu yarışa təkcə Avropa və Cənubi Amerikanın deyil, digər qitələrin də ən güclü klublarını cəlb etdi. İştirakçı sayı da 7-yə yüksəldi – 6 qitənin hərəsindən bir komanda və təşkilatçı ölkənin təmsilçisi. FIFA 2025-ci ildə isə klublar üçün də sanballı dünya çempionatı təşkil etmək qərarına gəldi. İştirakçı sayı 32-yə, oyun sayı isə 63-ə çatdırıldı. Bu mundial 4 ildən bir keçiriləcəyindən FIFA artıq hər il olacaq Qitələrarası kuboku da bərpa etdi.

Tənqidlər və narazılıqlar, təbii ki, sıx təqvimlə bağlıdır. Yarışların, oyunların sayı da artır. Artıq bir klubun və ya bir futbolçunun bir mövsüm ərzində 60-dan çox rəsmi oyun keçirməsi adi hal alıb. 2024-cü ilin yayında Avropa çempionatında oynayan, bu yay klublararası Dünya çempionatında çıxış edən futbolçuları 2026-cı ildə də iyunun 11-dən iyulun 19-na kimi ilk dəfə 48 milli komandanın mübarizə aparacağı Dünya çempionatı gözləyir.

ABŞ-da təşkil edilən klublararası dünya çempionatında oyunların tez və qızmar günəş altında keçirilməsi, bəzən matçlarda fırtına təhlükəsi üzündən böyük fasilələrin yaranması, həmçinin satışın istənilən səviyyədə olmaması səbəbindən biletlərin qiymətinin xeyli aşağı salınması ilə bağlı xəbərlər də mütəmadi gündəmdə idi. Rəsmi rəqəmlərə inansaq, mundialın hər matçını 39 min 557 azarkeş izləyib. Müqayisə üçün deyək ki, milli komandalar arasında sonuncu dünya çempionatı – Qətər-2022-də bu göstərici 53 min 191, Almaniyada keçirilən Avro-2024-də isə 52 min 574 nəfər olub.

Mundialın iştirakçıları arasında səviyyə fərqi isə özünü məhsuldarlıqda göstərib – orta hesabla hər oyunda 3,1 qol vurulub. Milli komandaların mundialında belə nəticə sonuncu dəfə İsveç-1958-də olub – 3,6 qol. Avropa çempionatlarında isə belə məhsuldarlıq heç qeydə alınmayıb (8-16-24 komandalı yarışlarda).

Klublararası Dünya çempionatından yaxşı qazanan elə klubların özləri olub. Turnirin ümumi mükafat fondu da əvvəlki bütün yarışlarla müqayisədə daha yüksək həddə çatıb – 1 milyard dollar. "The Swiss Ramble"ın hesablamalarına əsasən, göstərdikləri nəticələrə uyğun olaraq, qalib "Çelsi" 114,6 milyon, finalçı "Pari Sen-Jermen" 106,9 milyon, yarımfinalçılar "Real Madrid" 82,5 milyon və "Fluminense - 60,8 milyon, dörddəbir finalçılardan "Bayern" 58,2 milyon və "Borussiya Dortmund" 52,3 milyon, 1/8 finalda mübarizəni dayandırmış "Mançester Siti" isə 51,7 milyon dollar qazanıb.

UEFA Çempionlar Liqasında aparıcı klubların hər oyuna ortalama qazancı 10 milyon dollardan az olsa da, burada hətta 15 milyonu keçib. Hətta aşkar autsayder, 0:10 və 0:6 hesablı məğlubiyyətlər almış, həvəskar futbolçulardan ibarət "Oklend Siti" də büdcəsini 4,6 milyon dollar məbləğində artırıb.

Növbəti klublararası dünya çempionatı 2029-cu ildə keçiriləcək. Mundialın harada olacağı hələ məlum deyil: yenidən ABŞ, həmçinin Avstraliya, Braziliya, Qətər və DÇ-2030-un ev sahibləri – İspaniya, Portuqaliya və Mərakeş bu turniri keçirməyə namizəddirlər. Amma iştirakçılardan 4-ü artıq indidən bəllidir – "Əl-Əhli" (Səudiyyə Ərəbistanı), "Piramids" (Misir), "Kruz Azul" (Meksika) və həmin "Pari Sen-Jermen".

Bəli, turnirin genişləndirilməsi futbolçulara əlavə yük gətirsə də, klublar üçün böyük maliyyə qazancı oldu. FIFA bu turniri futbolun qlobal inkişafında əsas hadisə kimi görür və gələcəkdə də önəmli tutmağı planlaşdırır.

*Rasim MÖVSÜMOV,*
*idman icmalçısı*

## İDMAN

### Gimnastlarımızın Portuqaliya uğuru



**Azərbaycan təmsilçiləri Portuqaliyanın Santarem şəhərində keçirilmiş batut gimnastikası və tamblinq üzrə "ScalabisCup 2025" beynəlxalq turnirində medallar qazanıblar. Bu barədə mətbuata Azərbaycan Gimnastika Federasiyasının xidmətindən məlumat verilib.**

Tamblinq üzrə U-12 yaş kateqoriyasında Sənan Rzazadə 21.300 xalla birinci yeri tutub. Əsnad Niftiyeva (18.600 xal) ikinci olub. Böyüklər arasında Tofiq Əliyev, Bilal Qurbanov və Aleksey Karataşovdan ibarət komanda (156.300 xal) qızıl mükafat əldə edib. Fərdi yarışlarda Tofiq Əliyev (28.200 xal) gümüş, Bilal Qurbanov (26.400 xal) bürünc medala sahib çıxıb.

Batut gimnastikasında U-14 kateqoriyasında Muhəmməd Həsənli (46.350 xal) ilə Fərhad Mustafayev (49.190 xal) birinci, Ammar Baxşalıyev (53.000 xal) ikinci, Nicat Mirzəyev (53.820 xal) üçüncü yeri tutub.

Baxşalıyev ikili-mini batutda 23.900 xalla bürünc medal əldə edib.

### Boksçu Şadlinskinin qızıl medalı



**Azərbaycan boksçusu Abbasqulu Şadlinski (75 kq) Portuqaliyada qızıl medal qazanıb.**

O, Braqada keçirilən beynəlxalq turnirin qalibi olub.

Şadlinski yarımfinalda Françisko Silvanı (Portuqaliya) mübarizədən kənarlaşdırıb. Finalda isə o, bəhreynli Hassan Camşirlə döyüşüb və qələbə qazanıb.

### Yoahim Löv Özbəkistan millisinə rəhbərlik edəcəkmi?



**Tanınmış almaniyalı mütəxəssis Yoahim Lövün tezliklə Özbəkistan millisinə rəhbərlik edəcəyi gözlənilir. Daşkənd qəzetləri yazırlar ki, artıq Özbəkistan Futbol Assosiasiyası 65 yaşlı mütəxəssislə danışıqlara başlayıb.**

Hazırda Özbəkistan millisinə Timur Kapadze rəhbərlik edir. Onun almaniyalı çalışdırıcının texniki heyətində yer alacağı istisna edilmir.

Xatırladaq ki, Özbəkistan millisi tarixində ilk dəfə dünya çempionatının final mərhələsinə yüksəlib.

*M.HACIXANLI*
*XQ*

## Bəxtiyar Vahabzadə barədə kitab gürcü dilində

**Filologiya üzrə fəlsəfə doktoru Aida Mirzəyevanın Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyi münasibətilə gürcü dilində hazırladığı kitabı işıq üzü görüb və oxuculara təqdim edilib.**



"Bəxtiyar Vahabzadə poeziyasında istiqlal ideyası" adlanan elmi monoqrafiyanı Tbilisidəki "Universal" nəşriyyatı çap edib. Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Almaz Əliqızı, rəyçiləri isə professor Vaqif Sultanlı və dosent İradə Rəhmanovadır.

Monoqrafiyada Bəxtiyar Vahabzadənin poeziyasında istiqlal düşüncəsi, milli ruh, vətən sevgisi və azadlıq ideyalarının poetik və fəlsəfi təhlilinə yer verilir. Kitab daha öncə Azərbaycan, türk, Ukrayna, rus, ingilis və ərəb dillərində çıxıb. Müəllif deyib ki, onu müxtəlif kitabxanalara, ali təhsil müəssisələrinə və ədəbi dairələrə təqdim edəcək: "Məqsədim Bəxtiyar Vahabzadənin poeziyası əsasında milli kimlik, istiqlal və azadlıq ideyasını müxtəlif dillərdə və mədəniyyətlərdə yaşatmaqdan, ədəbi-mədəni dialoqu daha da genişləndirməkdən, şairin zəngin ədəbi irsinin beynəlxalq oxucu kütləleri arasında geniş şəkildə yaymaqdan ibarətdir".

*XQ*

## Xaçmazda "Məşğulluğa dəstək"

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa dəstək layihəsi" barədə növbəti ictimai dinləmə Xaçmaz şəhərində təşkil olunub.**



Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, işsiz və işaxtaran şəxslərin iştirakı ilə keçirilən tədbirlərdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi barədə məlumat verilib.

Layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblərdən, proqramın gözlənilən faydalarından, layihəyə müraciət qaydalarından bəhs olunub.

"Məşğulluğa dəstək layihəsi" çərçivəsində avadanlıqlarla təmin olunaraq kiçik bizneslərini quran şəxslərin uğur hekayələrini əks etdirən videoçarxlar nümayiş olunub.

İştirakçıları maraqlandıran suallar cavablandırılıb, eləcə də layihə çərçivəsində öz biznesini qurmaq istəyən şəxslərə müvafiq tövsiyələr verilib.

*XQ*

## Günəşli və isti bir yay günü...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bugün Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-26, gündüz 34-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 754 millimetr civə sütunu, nisbi rütubət gecə 65-70, gündüz 35-40 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-27, gündüz 36-40, dağlarda gecə 10-15, gündüz 26-31 dərəcə isti olacağı ehtimal edilir.

*Q.QASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3209
SİFARİŞ 1641
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00